TERRORİZM və qan çilənən torpaqlar

Şöhrət Səlimbəyli

III kitab

Şöhrət Səlimbəyli

# TERRORİZM

## və qan çilənən torpaqlar



ŞÖHRƏT SƏLİMBƏYLİ

# TERRORİZM

## qan çilənən torpaqlar

**III kitab**

**"Azərbaycan bayrağı" ordenli Şahid Həbibullayevin həyatından ştrixlər**

«AVROPA» NƏŞRİYYATI BAKI. 2010

**Az-2**
**S-42**

**REDAKTORLAR:** **Babək QURBANOV**
fəlsəfə elmləri doktoru,
professor
**Mahmud ALLAHMANLI**
filologiya elmləri doktoru,
professor

**RƏYÇİ:** **Füzuli RZAQULİYEV**
Qarabağ müharibəsinin iştirakçısı, II qrup
müharibə əlili, ehtiyatda olan polkovnik

S- 42. Terrorizm-qan çilənən torpaqlar.«Avropa» nəşriyyatı.
Bakı. 2010. 224 səh.

**S** $\frac{4702060104}{8032\text{-}2010}$ **qrifli nəşr**

**ISBN 978-9952-8032-2-8**

**«AVROPA» nəşriyyatı. 2010.**



”AZƏRBAYCAN BAYRAĞI” ORDENLİ
ŞAHİD HƏBİBULLAYEV



**Mustafa Kamal ATATÜRK**

Böyük olmaq üçün *kimsəyə bənzəməməlisən, kimsəni üstün görməməlisən, heç kimi aldatmamalısan, ölkə üçün həqiqi idealın nədirsə onu görməlisən.*

*Hər kəs sənə qarşı çıxacaqdır; hər kəs səni yolundan döndərməyə çalışacaqdır; qarşına sonsuz əngəllər çıxacaqdır, fəqət sən bunlara qarşı dayanıqlı olmalısan.*

*Özünü böyük deyil, kiçik, əlacsız bir heç sayaraq, kimsədən yardım görməyəcəyinə inanaraq, bu əngəlləri aşmalısan.*

*Bütün bunlardan sonra də sənə "böyük" deyərlərsə, söylənənlərə güləcəksən.*

**Mustafa Kamal ATATÜRK**



**Nəriman**
**HƏSƏNZADƏ**
Xalq şairi

# ŞƏRƏFLƏ YAŞANAN ÖMÜR

Qarabağ müharibəsi xalqımızın ağrı-acılarla, ölüm-itimlərlə, qəhrəmanlıqlarla dolu olan tarixinin bir hissəsidir. Sovetlər imperiyasının dağılması respublikalara özü boyda fəlakətlər gətirdi. Bu fəlakətləri Azərbaycan da yaşadı. Qərbi Azərbaycanda yaşayan həmvətənlərimiz dədə-baba torpaqlarından didərgin düşdü. Qədim yurd yerlərimiz, min illər boyu yaradılan maddi mədəniyyət abidələrimiz dağıntılara məruz qaldı. Hələ bu azmış kimi, Xocalı hadisələri baş verdi. Minlərlə soydaşlarımız iyirminci yüzilliyin görünməmiş dəhşətləri ilə üz-üzə qaldı. Ailələr, nəsillər məhv edildi. Mərd, cəsur oğlanlarımız, bütünlükdə millətimiz bu təcavüzə qarşı birləşdi. Xalqımızın, bir növ, sözün

həqiqi mənasında, qəhrəmanlıqlarla dolu olan tarixinin yeni bir mərhələsi başladı.

Düzdür, Qarabağ savaşı bu gün böyük itkilərlə, torpaqlarımızın işğalı, durumumuzun məğlubluğu ilə xarakterizə olunur. Ancaq hələ müharibə bitməyibdi.

Tarix yazılmır, yaradılır deyirlər. Burada bir həqiqət var. Çünki tarixi xalq, onun igid, cəsur oğulları yaradır. "Azərbaycan bayrağı" ordenli Şahid Həbibullayev da belə oğullardandır. Düşmən torpaqlarımızın işğalına başlayanda, minlərlə vətənpərvər insanlarımız kimi, o da könüllü müharibəyə yollandı. Müharibənin odundan-alovundan keçdi. Kəndlərimizin, şəhərlərimizin düşmən işğalından azad olunması yolunda əlindən gələni əsirgəmədi.

Şahid Həbibullayev kimdir? Onun Qarabağ savaşına qədərki və ondan sonrakı həyatı hansı hadisələrlə xarakterizə olunur? Bu məsələlərə diqqət yetirdikdə qeyri-adi qəhrəmanlıqlarla, vətənpərvərliklə yoğurulmuş bir insan ömrü gözlərimiz qarşısında canlanır. Onun haqqında çox eşitmişdim. Qəzet səhifələrində oxumuşdum. Müxtəlif vaxtlarda onunla bağlı televiziyada gedən verilişlərə baxmışdım.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin fərmanı ilə onun 1994-cü ilin 9 oktyabrında "Azərbaycan bayrağı" ordeninə layiq görüldüyünü bilirdim. Lakin son günlərdə haqqında bəhs olunan "Terrorizm - qan çilənən torpaq" adlı kitabın əlyazması ilə tanış oldum. Bu böyük işlər, qəhrəmanlıq bir daha gözlərim önündə canlandı. Təəssüfləndim ki, bu cür şərəfli, igidliklə, vətənpərvərliklə yoğurulmuş bir ömrü lazımınca ictimaiyyətə, gənc nəs-

lə, gələcəyə ötürə bilmirik. Bu özlüyündə bir istiqamətdə ədəbiyyatımızın, xalqımızın ağrılı tərəfidir.

Azərbaycan xalqının tarixi daim qəhrəmanlıqlarla dolu olub. Bizə yaxın, uzaq zamanın qəhrəmanlıq tarixi buna nümunədir. "Kitabi-Dədə Qorqud", "Manas", "Alpamış", "Uraltabır", "Canqar", "Corabatır", "Edige", "Koroğlu", "Qaçaq Nəbi", "Qaçaq Kərəm", "Qandal Nağı" və digər qəhrəmanlıq dastanlarımız Azərbaycanın, bütünlükdə türk xalqlarının şərəfli tarixinin poetik ifadəsidir. Bu nümunələrin hər birinin arxasında böyük tarix dayanır. Həmin qəhrəmanlar öz cəsurluğu, igidlikləri ilə adını tarixin daş yaddaşına yazıblar. Eyni zamanda, etdikləri ilə gələcək nəsillər üçün nümunəyə çevriliblər. On doqquzuncu yüzilliyin görkəmli ədibi N.A.Dobrolyubov xüsusi olaraq vurğulayırdı ki, xalqlar tarixin ən ağır məqamlarında keçmişinə müraciət edir, qəhrəmanlıq tarixini səhifələyir və oradan güc almaqla düşdüyü vəziyyəti həll edir, çətinliklərdən çıxır. Azərbaycan xalqı da Sovetlər İttifaqının dağılmasından sonra belə bir vəziyyəti yaşadı. Olmazın problemlərlə qarşılaşdı. Tarixə, tarixi keçmişinə üz tutdu. Bir növ, oradan güc aldı. Qəhrəmanlıqlar təkrarlandı.

Xan Qazandan, Babəkdən, Koroğludan, Şah Xətaidən, Cavad xandan gələn igidlik ənənəsi yenidən yaşandı. Mərd, cəsur oğulların vətənpərvərliyi sayəsində problemlərin böyük əksəriyyəti çözüldü. Və bu gün də çözülmədə davam edir. Şahid Həbibullayev də həmin qəhrəmanlardan biridir.

Təəssüf doğuran odur ki, bu gün ədəbiyyatımız həmin savaşı, ağrıları, vətənpərvər oğulların qəhrəmanlığını onların etdikləri səviyyədə təqdim edə bilmir. Bir növ,

ədəbiyyyat bu prosesi təqdim baxımdan gecikir. Düzdür, müharibənin ağrıları, Xocalı faciəsi, Göyçə itkisi, Qarabağ savaşını əks etdirəcək nümunələr var. Və yenə də yaranmaqdadır. Şairlərimiz, yazıçılarımız həmin hadisələri əks etdirəcək əsərlər yazırlar. Ancaq təkrar qeyd edək ki, bu hələ lazımi səviyyədə özünün ifadəsini tapmır.

Yadıma Böyük Vətən müharibəsi dövrünün ədəbiyyatı gəlir. Orada elə müharibənin gedişində bütünlüklə müharibə ağrılarını təqdim edəcək klassik nümunələr yarandı. Əminik ki, Qarabağ müharibəsinin fəlakətləri özü boyda ədəbi nümunələri ortaya qoyacaqdır. Qəhrəmanlarımızın adına nəğmələr, dastanlar qoşulacaq, romanlar yazılacaq. Bir örnək kimi gələcək nəsillərə ötürüləcək. Necə ki, son dövrlərdə həmin müharibənin qəhrəmanları ilə bağlı şeirlər, hekayə və povestlər yazılmaqdadır.

Görkəmli ictimai xadim, yazıçı, həkim N.Nərimanov hələ keçən əsrin əvvəllərində xüsusi olaraq vurğulayırdı, vətənin qədrini o kəslər biləcək ki, ruhən onunla bağlı olsun, onunla birgə ağlasın, onunla birgə gülsünlər. Ş.Həbibullayev bütün varlığı ilə bu ruhda olan şəxslərdəndir. O, təkcə müharibədə göstərdiyi qəhrəmanlıqlarla səciyyələnmir. Bu gün gördüyü böyük işlərlə bütünlükdə Azərbaycan, türk xalqları üçün nümunəyə çevrilib.

Xalqımızın yaratdığı böyük maddi mədəniyyət abidələrinin qorunub saxlanılması və dünyaya təqdimi yolunu tutub. O, 1994-cü ildə müharibədə ağır yaralandıqdan sonra tərxis edildi.

Boş dayanmadı, döyüş meydanlarında cöstərdiyi igidliyi, qəhrəmanlığı arxa cəbhədə davam etdirdi. Bütün varlı-

ğı ilə maddi mədəniyyət abidələrimizin toplanması, qorunub saxlanması və gələcək nəsillərə çatdırılması kimi savab işə başladı. Xalqımızın maddi mədəniyyətinin zənginliyini öz böyük işi ilə ortaya qoydu.

Təkcə onu demək kifayətdir ki, Şahid Həbibullayevin kolleksiyasının Azərbaycan bölməsində e.ə. VII əsrdən başlamış eramızın XIX əsrinəcən aid olan 800-dən artıq mis məişət və bəzək əşyaları var. Rusiya, Almaniya, Polşa istehsalı olan XVII-XIX əsrlərə aid bərpa olunmuş 999 ədəd samovar, asma və yaylı tərəzilər, XVIII-XIX əsrdə Almaniyada istehsal olunmuş qəndil və stolüstü lampalar və s. bir yox, bəlkə də, bir neçə institutun birgə görə biləcəyi işlər qədərdir. Halbuki, onu Ş.Həbibullayev özünün vətənpərvərliyi, böyük zəhməti sayəsində görə bilib. İndi o, böyük işləri ilə beynəlxalq sərgilərdə təmsil olunur. Maddi mədəniyyətimizin keçmişi haqqında bütöv təsəvvür yaradır. Bunlar özü tapıntıdır, Ş.Həbibullayevin vətən, xalq qarşısında xidmətləridir. Belə böyük və savab işlərlə öyünməyə dəyər.

# İŞĞAL EDİLMİŞ AZƏRBAYCAN TORPAQLARI

| | | | |
|---|---|---|---|
| QAZAX rayonu | **6 kənd** | avqust | 1990-cı il |
| NAXÇIVAN MR | **1 kənd** | 20 yanvar | 1991-ci il |
| XOCALI rayonu | | 26 fevral | 1992 -ci il |
| ŞUŞA rayonu | | 8 may | 1992 -ci il |
| LAÇIN rayonu | | 18 may | 1992-ci il |
| XOCAVƏND rayonu | | 2 oktyabr | 1992 -ci il |
| KƏLBƏCƏR rayonu | | 2 aprel | 1993-cü il |
| AĞDƏRƏ rayonu | | 17 iyun | 1993-cü il |
| AĞDAM rayonu | | 23 iyul | 1993-cü il |
| CƏBRAYIL rayonu | | 26 avqust | 1993-cü il |
| QUBADLI rayonu | | 31 avqust | 1993-cü il |
| FÜZULİ rayonu | | 23 avqust | 1993-cü il |
| ZƏNGİLAN rayonu | | 30 oktyabr | 1993-cü il |



**2008.** Ağdamın işğal edilmiş kəndləri

# BİR ÖMRÜN SƏHİFƏLƏRİ

## "Azərbaycan bayrağı" ordenli Şahid Həbibullayevin həyatından ştrixlər

*(sənəvdi povest)*

İnsan ömrü - ana bətnindən qəbr evinə qədər iki qaranlıq arasındakı zaman məsafəsidir. Nura, işığa çevrilmiş insan həyatı qaranlıqları parçalayaraq tarixə, yaddaşlara pozulmaz, şimşəkvari imza atır. Yalnız özü üçün yaşayanlar həyatda iz qoya, qaranlığı nura çevirə bilmir. Həyat yalnız yaşamaqdan - əyləncə və eyş-işrətdən ibarət deyildir? Yaşamaq eyni zamanda yaratmağı və yaşatmağı da özündə ehtiva edir...

**Qafqaz xalqlarına məxsus əfsanələrin birində deyilir ki, Əzrail yüz il ömür sürmüş bir qocanın qapısından girərək söyləyir:** "Ey qoca, bu dünyada bir əsrlik ömür yaşadın, artıq vaxtdır, axirət dünyasına hazırlaş!"

Qoca çağrılmamış qonağın qəfil gəlişindən sarsılaraq, onun qarşısında diz çökür: "Ey Allahın mələyi, Sizə əyandır ki, yüz il ömrümdən bir göz qırpımında gəlib keçdi, yaşamaqdan doymadım. Bu müddət ərzində heç kəsə ziyan vurmadım, pislik etmədim, heç kəsin malına, namusuna tamah salmadım, oruc tutdum, namaz qıldım, gündə üç dəfə yeyib, beş dəfə Allahıma şükr etdim. Allah xatirinə, bunları nəzərə alıb mənə bir ömür də bağışla..."

**Əzrail Qocaya üz tutaraq deyir:** "Ey Qoca, həyatda gördyün bu işlər, doğurdan da, gözəldir. Sən insan yox, lap mələk ömrü yaşamısan. Amma de görüm bu yüz ildə neçə yoxsulun, imkansızın əlindən tutmusan, neçə yetimi, kimsəsizi sevindirmisən, neçə xəstənin, yaralının dərdinə əlac etmisən, insanlar üçün hansı xeyirxah işləri görmüsən?"

Qocanın sifətini kədər bürüyür, fağırlaşıb yumağa dönür, zəif, xırıltılı səslə Əzrailə deyir: "Bunların heç birini etməmişəm, amma həyatda bir nəfər də olsun düşmənim yoxdur".

Əzrail buyurur: "Çox gözəl, elə isə sənin həyatda neçə dostun olubsa, onların hər birinin xatirinə bir il məndən möhlət al!"

Qocanın bütün varlığı titrəyir, nitqi tutulur, başının işarəsi ilə dostunun olmadığını bildirir.

Əzrail ona üz tutaraq: "Ey Qoca, bu həyatda insanlara xeyirxahlıq etməmisənsə, bir nəfər də olsun dostun və ya düşmənin yoxdursa, deməli, sən yüz ilin ölüsüsən! Bu dünyada qalmağının nə mənası var?!"

Doğurdan da, bu ibrətamiz hekayətdən göründüyü kimi, həyatın mənası yaşın çoxluğu, ömrün uzunluğu ilə deyil, onun məzmununun dolğunluğu, xalq üçün görülən işlərin əhəmiyyəti ilə ölçülür. Xeyirxah əməllər ömrün zinətidir. Tarixin şərəfli səhifələrinə yol milyonların ürəyindən, sevgisindən keçir. Heç bir dövlətin ucaltdığı abidə insanın öz əməli qədər uzunömürlü və əbədi ola bilməz. İnsanın həyatdakı yeri, onun həyat mövqeyi, mübarizə qüdrəti, millətinə və vətəninə xidmətləri ilə müəyyənləşir.

**O, halal zəhməti, qeyri-adi istedadı, peşəkarlığı, təşkilatçılıq qabiliyyəti, seçdiyi sahələrə sevgisi ilə çağdaş cəmiyyətimizdə yüksək mövqeyə ucalmış və böyük nüfuz qazanmışdır. O, yüksək zövqlü, geniş dünyagörüşlü, vətənpərvər bir ziyalı olmaqla bərabər, həm də yaradıcı insandır. Belə yüksək insani keyfiyyətlər Şahidin hələ gənc yaşlarından həyat idealına çevrilmişdir.**

**"Azərbaycan bayrağı" ordenli Şahid Həbibullayevin** də mənalı həyat yolunu, zəngin və dolğun ömür kitabını səhifələ-

dikcə müşahidə olunur ki, o, halal zəhməti, qeyri-adi istedadı, peşəkarlığı, təşkilatçılıq qabliyyəti, seçdiyi sahələrə sevgisi ilə çağdaş cəmiyyətimizdə yüksək mövqeyə ucalmış və böyük nüfuz qazanmışdır. O, yüksək zövqlü, geniş dünyagörüşlü, vətənpərvər bir ziyalı olmaqla bərabər, həm də yaradıcı insandır. Belə yüksək insani keyfiyyətlər Şahidin hələ gənc yaşlarından həyat idealına çevrilmişdir.

...O, bu gün vətənində geniş təbliğ olunur, xarici ölkələrdə yaxşı tanınır. İlk baxışdan, vəzifəsi, məşğuliyyət sahələri və təltifləri arasında cazibədar bir uyarsızlıq hiss olunur. Avtomobil mühəndisi, II qrup Qarabağ müharibəsi əlili, "Azərbaycan bayrağı" ordenli qəhrəman, istedadlı təşkilatçı, bacarıqlı kollektiv başçısı və ən nəhayət, qeyri-adi kolleksiyaya malik mədəniyyət vurğunu. Bu qədər uğuru bir araya necə gətirmək, bir ömrə necə sığışdırmaq olur?!

Doğrudur, o, həyatının uzun bir dövrünü avtomobil nəqliyyatı sahəsinə həsr etmiş, müxtəlif vəzifələrdə çalışmışdır. Ötən yüzilliyin texnika erası, avtomobil nəqliyyatının sürətlə inkişaf etdiyi əsr olduğunu xüsusi vurğulamaq istərdik. Hətta obrazlı şəkildə demək olar ki, XX əsr t ə k ə r l ə r üstündə mühitimizə, məişətimizə daxil oldu. Avtomobil mühəndisi ixtisası isə insanların daha çox təmasda olduğu, müraciət etdiyi, ehtiyac duyduğu peşə sahələrindən birinə çevrildi. Məhz Şahid Həbibullayevin bu ixtisasa könül verməsi, onun çətinliklərinə sinə gərməsi, peşəsindən nəhəng bir nəqliyyat təsərrüfatının baş direktoru vəzifəsinədək yüksəlməsi təsadüfi deyildir.

## MUXASDAN BAŞLANAN YOL

Muxas kəndi Oğuzun qədim yaşayış məskənlərindən olub rayon mərkəzindən 20 km. qərbdə, axarlı-baxarlı Daşağıl çayının sahilində, Baş Qafqaz sıra dağlarının ətəyində yerləşir. Muxas bürcü IX əsr Azərbaycan memarlığının nadir incilərindən biri, bu kəndin çoxəsrlik tarixinin ən mötəbər daş kitabəsidir. Arxeoloji qazıntılar zamanı bu abidənin ətrafından tapılmış şirli və şirsiz saxsı qablar, misgərlik nümunələri Muxasın tarixini daha qədim dövrlərə aparıb çıxarır. Bu kənd neçə-neçə görkəmli elm adamının, təhsil, mədəniyyət, iqtisadiyyat sahəsində, tanınmış insanların beşiyi olub.

**Muxas kəndində 1952-ci ilin 14 noyabrında əsilli-nəcabətli qulluqçu ailəsində dünyaya göz açmışdır. 1969-cu ildə Muxas kənd orta məktəbində 10 illik təhsil aldıqdan sonra Azərbaycan Politexnik İnstitutuna daxil olaraq, mühəndis-mexanik ixtisasına yiyələnmişdir. Əmək fəaliyyətinə 1969-cu ildən "Azdənizneftikinti" Birliyinin nəqliyyat idarəsində fəhləlikdən başlamışdır.**

Muxaslıların güvəndiyi, fəxr etdiyi, adını iftixar hissi ilə çəkdikləri şəxsiyyətlərdən biri də **Şahid Məməş oğlu Həbibullayevdir.**

Şahid Məməş oğlu qədim tarixə və özünəməxsus milli adət-ənənələrə malik Muxas kəndində 1952-ci ilin 14 noyabrında əsilli-nəcabətli qulluqçu ailəsində dünyaya göz açmışdır.1969-cu ildə Muxas kənd orta məktəbində 10 illik təhsil aldıqdan sonra Azərbay-

can Politexnik İnstitutuna daxil olaraq, mühəndis-mexanik ixtisasına yiyələnmişdir.

Əmək fəaliyyətinə 1969-cu ildən "Azdənizneftikinti" Birliyinin nəqliyyat idarəsində fəhləlikdən başlamışdır. 1974-1976-cı illərdə hərbi xidmətini başa vuraraq tərxis olunmuş Ş.Həbibullayev 1985-ci ildən 1997-ci ilə qədər müxtəlif vəzifələrdə çalışmaqla Şəhərlərarası və Beynəlxalq Daşımalar Birliyinin baş direktoru vəzifəsinə qədər yüksəlmişdir. Hazırda o, Şəhərlərarası və Beynəlxalq Daşımalar Birliyinin özəlləşdirilmiş baş idarəsinin bazasında yaradılmış "Magistral-Ekpress" Açıq Tipli Səhmdar Cəmiyyətinin prezidentidir.

Ş.Həbibullayev 1993-cü ildə vətən torpaqlarını düşmən tapdağından azad etmək məqsədilə Şəhərlərarası Sərnişin Daşınma Avtokombinatının baş direktoru vəzifəsini tərk edərək müharibəyə könüllü getmiş və “Azərbaycan Bayrağı” Ordeni ilə təltif olunmuş, ikinci qrup Qarabağ müharibəsi əlilidir.

Ş.Həbibullayev əlvan metaldan, xüsusən də misdən və qismən digər metallardan hazırlanmış 2463 Azərbaycan, Rusiya, Almaniya, İngiltərə, Polşa, Fransa istehsalı olan **(XVI-XIX əsrlərə aid)** əntiq sənət nümunələrini toplayıb bərpa etdirərək beynəlxalq miqyasda təbliğ etmiş ilk azərbaycanlı kolleksionerdir. Ailəlidir. İki oğlu, bir nəvəsi var.

Oğlu Şahin Həbibullayev Azərbaycan İqtisad Universitetinin mühəndis iqtisadiyyatı və idarəetmə ixtisası üzrə magistraturasını bitirmişdir. "Magistral-Ekspress" ATSC-nin vitse-prezidentidir.

Kiçik oğlu İlqar Həbibullayev Bakı Dövlət Universitetinin hüquq fakültəsini bitirmişdir. Hazırda Daxili İşlər orqanlarında çalışır.

Nəvəsi Şahid Həbibullayev babasının adını və soyadını daşıyır.

## DTK-NIN İSTİNTAQ TƏCRİDXANASINDA

Şahid Həbibullayev əslində keşməkeşli ömür yaşamış cəfakeş, eyni zamanda, xeyirxah bir insandır. Sovet İttifaqının dağılma prosesinin qarşısını hər vəchlə almağa çalışan SSRİ rəhbərliyi 1988-89-cu illərdə Özbəkistandan sonra SSRİ Prokurorluğu və DTK-nın məsul işçilərinin böyük bir dəstəsini Bakıya da göndərmişdi. Həmin dövrdə Azərbaycanda müxtəlif sahələrdə əsassız bəhanələrlə həbs edilən vəzifəli şəxslər arasında nəqliyyat sistemində çalışan Şahid Həbibullayev də vardı. O, bir ilə yaxın DTK-nın İstintaq təcridxanasında saxlanılır və bu müddət ərzində ardı-arası kəsilməyən böhtan və şantajlarla, növbənöv işgəncələrlə, təzyiqlərlə üz-üzə qalır.

SSRİ DTK İstintaq təcridxanasının 6 dekabr 1989-cu il, 019009 saylı arayışı və SSRİ Baş Prokurorluğunun 18-67801-89 saylı 85 cildlik və Şahid Həbibullayevin 3 cildlik, 18-67870-89 saylı cinayət işindən də görünür ki, iradəsi sındırılmış dünənki dostlar, həmkarlar yalan, böhtan xarakterli məlumatları təsdiqləmək üçün bir-birinin üzünə dururdular. Şahid Həbibullayev belələrindən olmadı, yalandan "şahidlik" etmir, yalnız həqiqəti müdafiə edərək öz təqsirsizliyini sübuta yetirməyə çalışırdı.

Şahid Həbibullayevin həyatının İstintaq təcridxanasında keçən ağır, dözülməz anlarının və tarixi məqamları-

nın araşdırılması, ətraflı işıqlandırılması və aydınlıq gətirilməsi üçün onunla görüşüb söhbətləşmək zərurəti yarandı. Çox ğüclü yaddaşa malik bu cəsur insan danışdıqca sənədlərə və faktlara istinad etməyi xoşlayırdı. Olub keçənləri xatırladıqca gah əsəbiləşir, səsinin tonunu qaldırır, insanlıq simasını itirmiş bəzi məmurların ünvanına layiq olduqları senzuradankənar sözlər işlədir, gah da bir qism insanları yaxşı tanımadığına, onlara etimad göstərdiyinə görə təəssüflənirdi...

**Ş.Həbibullayevin söhbətlərindən:**

- 1988-ci il sentyabr ayının 8-də SSRİ Daxili İşlər Nazirliyinin İqtisadi cinayətkarlığa qarşı Mübarizə idarəsi **("QUBXSS MVD SSSR")** Özbəkistandan sonra Azərbaycanda da məqsədyönlü yoxlamalara başlamışdı. Moskvadan Bakıya A.T.Morozovun rəhbərliyi altında böyük bir istintaq qrupu göndərilmişdi.

Bu qrup Özbəkistanda yüksək rütbəli məmurları həbs etməklə məşhurlaşmışdı. Onlar cəmiyyətdə güclü xof yaratmışdı. Məlum istintaq qrupunun rəhbəri erməni mənşəli, populist çıxışları ilə özünü İttifaq televiziyasında reklam edən, müsəlman respublikalarına dərin nifrəti və barışmaz, düşmən mövqeyi ilə tanınan Qıdılyan və onun köməkçisi İvanov idi.

Azərbaycana istintaq qrupu M.Qorbaçovun sərəncamı ilə, SSRİ-nin Baş Prokuroru tərəfindən göndərilmişdi. Məqsəd Azərbaycan Respublikasının keçmiş I katibi H.Ə. Əliyevi ləkələmək və nəyin bahasına olursa-olsun onun

həbsinə nail olmaq, dövlət xadimi kimi siyasi arenadan birdəfəlik uzaqlaşdırmaq idi. İstintaq prosesində H.Əliyev dönəmində işləmiş respublikamızdakı sovxoz-kolxozların, şərab zavodlarının, böyük sənaye kombinatlarının və fabriklərin rəhbərləri həbs edilərək istintaqa cəlb olunurdular. Qıdılyanın, İvanovun və Morozovun Azərbaycanda xüsusi istintaq sxemi var idi. Bu sxem mənə və mənimlə həbs olunanlara dəfələrlə göstərilmişdi.

Hətta hər dəfə izahat aldıqda, sxemi stolun üstünə qoyurdular və "vintiklərin" heç bir günahı olmadığını deyirdilər. Bizlərin icbari işlə qurtaracağımızı bildirirdilər. “Əsaslandırırdılar” ki, bu sistem kütləvi hal aldığı üçün bizim və sürücülərin günahı çox azdır.

Yəni, biz nazirləri, nazirlər isə H.Əliyevi korrupsiyada ittiham etməli, beləliklə müstəntiqlər birincini günahlandırmaq üçün əsaslı faktlar tapmalı idi. Qıdılyan, İvanov və Morozov M.Qorbaçovun gizli göstərişi ilə müsəlman ölkələrinə, xüsusən, Özbəkistana və Azərbaycana qarşı məqsədyönlü şəkildə repressiv əməliyyatlar aparırdılar. Onu da qeyd edək ki, Özbəkistanda da, Azərbaycanda olduğu kimi istintaq işi nəqliyyat sistemindən başlamış və nəticədə Özbəkistanın I katibi, yüksək vəzifəli məmurları həbs edilmişdi. Bəzi sürücülərin arasında əliəyrilik və tamahkarlıq geniş yayıldığı üçün satqınları və xüsusi xidmət orqanlarına işləməkdə meyilli olanları da, şübhəsiz ki, az deyildi. İki respublikanın eyni strukturunda aparılan cinayət işində də bu kriminal xüsusiyyət öz əksini tapmışdı.

***

İstintaq materiallarını vərəqləyərkən maraqlı bir məqam da diqqətimizi cəlb etdi. İstintaqın Azərbaycanda aparılmasına baxmayaraq, istintaq qrupu bir neçə nəfəri Moskvaya göndərərək onları məşhur "Butırka" həbsxanasında saxlayırdı. O, zaman Bakıdakı Şüvəlan türməsinin I korpusu da Rusiya istintaq qrupunun sərəncamına verilir.

**Ş.Həbibullayevin söhbətlərindən:**

-Mən digər müttəhimlərlə 12 gün çirkab və üfunət içərisində olan Şüvəlan həbsxanasının xüsusi kamerasında saxlanılmışam və yenidən DTK-nın istintaq təcridxanasına qaytarılmışam. Oradakı 24 saylı ölüm kamerasında,özü də 1 nömrəli xüsusi təyinatlı kamerada 15 gün karsda və dəniz səviyyəsindən aşağıda yerləşən xüsusi işgəncə kamerasında keçirdiyim 9 aylıq əzablı günlər indi də yadıma düşəndə ürəyim sızıldayır.

Məhkəmədən sonra mənim işimin tətqiqi yenidən istintaqa göndərildiyi üçün 2 ay müddətində istintaq təcridxanasında olan 24 kameradan ən “yaxşısında” saxlanıldım. Ən dəhşətlisi o idi ki, DTK-nın istintaq təcridxanasının rəhbəri respublika prokurorluğu nəzarət şöbəsinin rəisi erməni Barsadarov idi. O, ayda bir dəfə mənim yanıma gələrək deyirdi ki, yaxşı kameraya keçmək istəyirsənsə, iş yoldaşların kimi müstəntiqlərin iradəsinə tabe ol. Təcridxananın rəisi isə Şamaxının Xilmilli kəndindən olan malakan Qallaktionov idi. O, mənə qarşı qəddarlığı ilə Barsadarovdan heç də geri qalmırdı.

***

Müstəntiqlərin fiziki təzyiqlərinə baxmayaraq, Şahid Həbibyllayev onların iradəsinə tabe olmur. Haqqında açılan cinayət işi təkrar istintaqa qaytarılır. Üç cilddən ibarət olan bu cinayət işini oxuyarkən, Ş.Həbibullayevin bir sıra müsbət keyfiyyətləri üzə çıxır. O, ekstremal şəraitdə özünü çox ciddi aparır, müstəntiqin suallarına qısa, konkret və məntiqli cavab verir, öz sahəsini dərindən bildiyini, dövlətçilik mövqeyində dayandığını nümayiş etdirir, dözümlülük və mərdlik nümunəsi göstərir. Nəticədə Ş.Həbibullayevə 17-171-in 2-ci hissəsi və 167-nin 1-ci hissəsi ilə cinayət işi qaldırırlar.

Şahid Həbibullayevlə birlikdə on nəfər həmkarı Dövlət Təhlükəsizlik Komitəsinin İstintaq təcridxanasında saxlanılırdı. Olanlar aşağıdakı şəxslər idi.

**1.** İbrahimov Rəşid Bəhlul oğlu- **baş direktor**
**2.** Aslanov Mahir Məhəmmədəli oğlu- **baş mühəndis**
**3.** Bəşirov Nizami Sabir oğlu- **istismar şöbəsinin mühəndisi**
**4.** Nəbizadə Arif Nəbi oğlu- **avtodəstə rəisi**
**5.** Baxışov Qəzənfər Səməd oğlu- **avtodəstə rəisi**
**6.** Allahverdiyev Mehman Musa oğlu- **avtodəstə rəisi**
**7.** Yusifov Ramiz Mirzəbala oğlu- **avtodəstə rəisi**
**8.** Mustafayev Fuad Qədiməli oğlu- **avtodəstə rəisi**
**9.** Aslanov Fərman Tərlan oğlu **-istismar şöbəsinin baş mühəndisi**
**10.**İsmayılov Nurəddin Hümbət oğlu- **istismar şöbəsinin rəisi**

Adları çəkilən bu on nəfərə aid 18-67801-89 nömrəli 85 cildlik istintaq materiallarını nəzərdən keçirərkən məlum olur ki, İbrahimov Rəşid istisna olmaqla, qalanları

SSRİ prokorluğunun müstəntiqlərinin və yaradılmış istintaq qrupunun rəhbərləri Morozov, İvanov və Qıdılyanın iradəsinə uyğun olaraq Azərbaycan dövlətinə və dövlətçiliyinə qarşı böhtan və iftira dolu ifadələr vermişdilər. İstintaq materialları təsdiqləyir ki, hətta onlardan biri anadan olduğu tarixdən iki il əvvələ aid yalan ifadə vermişdi. O, respublika rəhbərlərinin şəxsiyyətinə kölgə salan elə riyakar ifadələr vermişdir ki,oxuyanda adamı təəccüb və heyrət bürüyür.

Qorbaçovun ən yaxın köməkçiləri olan Morozov, İvanov və Qıdılyan həmin doqquz nəfəri özlərinin çirkin məqsədlərinə müvafiq xidmətə məcbur etmişdi.

Morozovun istintaq dəstəsi Şəhərlərarası Sərnişin Daşınmalar Avtokombinatında işə başladıqları zaman Baş direktor dəyişdirilib, bu vəzifəyə rus millətindən olan Leonid Anatolyeviç Arxangelski təyin edildi. Bununla da yeni müdiriyyətə tapşırıldı ki, həbs olunan rəhbər işçilərin "cinayətlərini" sübuta yetirmək üçün istintaqa kömək edəcək yeni əməkdaşlar seçilib işə cəlb olunsun. Sürücülərin pul yığıb yuxarılara rüşvət vermələri barədə istintaqa etiraflarını aşağıda adları çəkilən rəhbər işçilər təşkil edirdi:

**Morozovun istintaq dəstəsi Şəhərlərarası Sərnişin Daşınmalar Avtokombinatında işə başladıqları zaman Baş direktor dəyişilərək bu vəzifəyə rus millətindən olan Leonid Anatolyeviç Arxangelski təyin edildi. Bununla da yeni müdiriyyətə tapşırıldı ki, həbs olunan rəhbər işçilərin "cinayətlərini" sübuta yetirmək üçün istintaqa kömək edəcək yeni əməkdaşlar seçilib işə cəlb olunsun.**

**1.Zaxarova Vera Vasilyevna** - plan şöbəsinin mühəndisi
**2.Verbitskaya Lyubov Aleksandrovna**- iqtisad şöbəsinin rəisi
**3. Babayeva Nina Vladimirovna** - təsərrüfat şöbəsinin rəisi
**4. Blaqova Raisa Dmitrievna** - iqtisad şöbəsinin mühəndisi
**5. Axundov Rafiq** - istismar şöbəsinin baş dispetçeri

## Ş.Həbibullayevin söhbətlərindən:

- Axundov Rafiq Arxangelskinin sağ əli idi. O, sürücülərlə mütəmadi təmasda olduğu üçün bu işin öhdəsindən çox məharətlə gəlmişdir. Onlara tapşırılmışdır ki, əsasən, sürücüləri öz xahişləri ilə istintaqa göndərsinlər və müstəntiqlərin tələblərinə uyğun izahatlar versinlər. Yuxarıda göstərilən rəhbər işçilər də, öz növbələrində, bu işə sürücü kontingentini cəlb etmişdilər. O dövrdə həmin sürücülərin plan göstəricilərinə baxsaq, görərik ki, onlar dövlət tapşırıqlarını 30%-dən aşağı yerinə yetirmişlər.

Halbuki, bizim dövrdə 98% plan ödəyən təsadüfi sürücüləri ya işdən çıxarırdıq, ya da yüngül cəza kimi 3 aylıq idarədə fəhlə vəzifəsinə keçirirdik. Morozovun tərəfindən sürücülərə istədikləri qədər biletsiz sərnişin daşımağa, rəhbər işçilərə isə istənilən qədər rüşvətin alınması üçün tam yaşıl işıq yandırılmışdır. Bu işə "azərbaycanlılar" və başqa millətlərin nümayəndələri də cəlb edilmişdi.

**Axundov Rafiq Arxangelskinin sağ əli idi. O, sürücülərlə mütəmadi təmasda olduğu üçün bu işin öhdəsindən çox məharətlə gəlmişdir. Onlara tapşırılmışdır ki, əsasən sürücüləri öz xahişləri ilə istintaqa göndərsinlər və müstəntiqlərin tələblərinə uyğun izahatlar versinlər.**

***

Dövlət Təhlükəsizlik Komitəsinin (**"DTK"-red**) istintaq təcridxanasında 9 ay məhbəs həyatı yaşamış Şahid Həbibullayev bütün işgəncələrə və təzyiqlərə baxmayaraq, müstəntiqlərin saxta ittihamlarının əksinə getmiş, qürur və ləyaqətinin alçaldılmasına yol verməmişdir.

Həmkarlarından on nəfərin işinin istintaq araşdırılmasına baxmayaraq, Ş.Həbibullayevə ayrıca açılmış 18-67870-89 nömrəli cinayət işini vaxtından əvvəl məhkəməyə göndərirlər.

Bakı Şəhər Məhkəməsində hakim Azər Orucovun sədrliyi ilə işə baxılır. Azər Orucov da əsl mərdlik və mübarizlik göstərərək öz qərarı ilə SSRİ prokurorluğunun qərarını alt-üst edir və işi təkrar istintaqa qaytarır. Sovet dövründə belə bir hərəkət etmək, həqiqətən, çox çətin məsələ idi. Axı Azər Orucov, ən azı, vəzifəsini itirə və həbs oluna bilərdi.

İki aydan sonra xalqımızın daha bir qeyrətli oğlu - Niyazi Asif oğlu Vəlixanovun ədalətli və qətiyyətli qərarı sayəsində Ş.Həbibullayev bəraət alır.

O zamanlar Niyazi Asif oğlu Vəlixanov həm də SSRİ prokurorluğunun istintaq qrupunun rəhbəri idi.

Ş.Həbibullayev indi də Azər Orucov və Niyazi Vəlixanovla yaxın münasibətdədir.

**Ş.Həbibullayevin söhbətlərindən** :

- İşə bərpa olunandan sonra o zamankı nəqliyyat naziri və nazirin birinci müavini Yaşar Həmidov mənə Baş direktorun müavini vəzifəsini təklif etdilər. Razılaşmadım. De-

dim ki, belə simasız kollektivlə işləmək mənim üçün çox çətindir, iş tapan kimi çıxıb gedəcəyəm. Onlar təkid etdi ki, istintaq altında olan on nəfərin sənin köməkliyinə ehtiyacı var. Bu sahədə sənin böyük təcrübən və nüfuzun var. Sürücülər arasında da xətir-hörmət sahibisən. Respublikanın nüfuzunu qoruduğun üçün məhkəmə və hüquq-mühafizə orqanlarında sənə rəğbət bəsləyirlər. Həmkarların səni daha yaxşı eşidir.

Kollektivin əməkdaşlarından istintaqa 686 şahid ifadə vermişdi. Vəziyyət, doğrudan da, mürəkkəb idi.

Həmkarlarımı yuvarlandıqları mənəvi-psixoloji uçurumdan qurtarmaq zəruri idi. Beləliklə, mən Baş direktorun müavini vəzifəsinidə işləmək təklifinə razılıq vermək məcburiyyətində qaldım.

***

Avtokombinatın rəhbər işçilərindən həbs olunmuş 10 nəfərin cinayət işinə Bakı şəhər məhkəməsinin hakimi Rəsul Səfərovun sədrliyi ilə baxılır. 2 aydan artıq davam edən məhkəmə prosesində şahidlərin böyük əksəriyyəti, 10-15 nəfər istisna olunmaqla, istintaqa verdikləri ifadələrindən imtina etdilər. Lakin bu 10-15 nəfəri fikirlərindən döndərmək asan deyildi.

Şahid Həbibullayev onlarla bu istiqamətdə izahedici iş apardı, çox çətinliklə məhkəməyə getməyə və verdikləri ifadələri dəyişməyə razı saldı. Ancaq onlara inamı çox az olduğu üçün məhkəmələrində özü də iştirak etdi.

**Ş.Həbibullayev o ağrılı-acılı günləri təəssüf hissi ilə yada salır:**

-Birinci gün məhkəmə zalına daxil olanda dəhşətə gəldim! Biabırçı ifadələrdən geninə-boluna işlədən müttəhimlərin məhkəməsində 15 nəfərə yaxın qadın **(onların anaları, bacıları, xanımları və s.)** oturmuşdu. On nəfərin içərisində Rəşid İbrahimov istisna olmaqla, qalanları müstəntiqin rəhbər işçilər üçün sürücülərdən pul yığılırdımı? - sualına onlar toplanan pulların olduğunu boyunlarına alaraq, yuxarılar üçün pul yığıldığını izahatları ilə də tam təsdiq edirdilər.

Sual qoyulduqda ki, Həbibullayev Şahid də bu işlə məşğul olurdumu?

Cavabında onlar demişdilər ki, əlbəttə, əgər məşğul olmasaydı, onu bir gün də işləməyə qoymazdılar (**hər iki cinayət işinə bax**). Həmin sual mənə verildikdə isə cavab verdim ki, belə bir iş olmamışdır və mən bu barədə hətta eşitməmişəm. 9 nəfərdən biri "aşağıdan" yığdığı pulla, "yuxarıya" verdiyi məbləğ arasında böyük fərq yarandığına görə sonradan cinayətinin ağırlığını anlayaraq, mənimsədiyi pulun küllü miqdarda olduğunu görüb, özünə düşən hissəsini parçalamağa başladı. O, gəzdiyi qadına nə qədər xərcləyib, onun üçün nələr aldığı barədə də izahat vermişdi.

Həmin qadın onunla eyni müəssisədə, plan şöbəsində işləyirdi. Müstəntiqlər rus millətindən olan bu qadını istintaqa çağırdıqdan sonra o, müəssisəyə ağlaya-ağlaya qayıtdı və vəziyyəti həmkarlarına danışdı. Sonra ərizə yazaraq işdən çıxdı.

Məhkəmə həmin epizod üzrə müqəssiri dindirərkən əsəbiləşdi.

Onun əxlaqsız hərəkətlərini ilə zaldakı həyat yoldaşı və bacısı da eşitdi. **Hakim onun ifadələrində ziddiyyət görərək dedi:**

- "Mən sənin yerinə xəcalət çəkirəm."

Mən isə məhkəmə zalını tərk etdim və bir daha o məhkməyə getmədim.

## İMPERİYANIN YAZILMAYAN QANUNLARI

**Bundan sonra Rəsul müəllim iclas zamanı zalda, arxa cərgədə əyləşmiş Həbibullayevi göstərərək deyir:** *"Namusu, qeyrəti, kişiliyi sizin yarınız boyda olan Şahiddən öyrənin, onun da məhkəməsi burada olmuşdur. Bütün məhkəmə işçiləri bilir ki, Şahidin məhkəməsi bir aya yaxın çəkdi. O, atasına, anasına, bacılarına məhkəməyə gəlməyi qadağan etdi. Şahid sizdən qat-qat çox incidilsə də, başqalarına qarşı heç bir ifadə verməmişdi. Sizin doqquzunuz da ona qarşı ifadə vermisiniz və təsdiqinə çalışmısınız...*

Sabiq həmkarlarının üzünə dayanan 10-15 nəfər şahidi isə ilkin ifadələrindən geri döndərmək müşkülə çevrildi. Onlar morozovların təsiri altına necə düşmüşdülərsə, real vəziyyəti qiymətləndirməkdə çətinlik çəkirdilər. İnadkar şahidlərin faktlara əsaslanmayan ifadələrinin üstündə möhkəm dayanması məhkəməni fövqəladə qərara sövq etdi.

Cinayət işi təkrar istintaqa göndərildi və şəhər prokrorunun müstəntiqi Nazim Allahverdiyevə ***(sonradan o Respublika prokrorunun müavini oldu)*** tapşırıldı.

N.Allahverdiyev 3 ay Ş.Həbibullayevin rəhbərlik etdiyi idarədə təkrar istintaq apardı. Nəhayət ki, yalançı şahidlər ifadələrini geri götürdülər. On nəfərin hamısına bəraət

verildi. Ş.Həbibullayev onları əvvəlki işlərinə bərpa etdirdi. Adları çəkilən doqquz nəfərin istintaq zamanı özlərini ləyaqətsiz aparması, iftira dolu ifadələri sonradan onların üzünə vurulmadı.

Lakin onlardan bəzilərinin sonrakı taleyi çox acınacaqlı sonluqla nəticələndi. Təəssüf ki, bu qrupa xidmət edən Baxşıyev Nizami Sabir oğlu istintaq təcridxanasında dəli olmuşdur. Allahverdiyev Mehman Musa oğlu isə Patamdar qəsəbəsində yaşayırdı. Sonralar o, yaşadığı doqquzmərtəbəli binanın yeddinci mərtəbəsindən özünü ataraq intihar etdi. Qrupun digər üzvü İbrahimov Rəşid Bəhlul oğlu ***(1951-ci il təvəllüdlü)*** 1994-cü ildə müəmmalı şəkildə dünyasını dəyişdi...

**İmperiyanın yazılmamış qanunları vardı:** çirkin məqsədləri üçün cəlb etdikləri insanlardan faydalandıqdan sonra onları "şahid" kimi təkrar görmək istəmirlər.

## NAXÇIVAN MÜHASİRƏDƏDİR

Həmin dövrdə Azərbaycanda milli-azadlıq hərəkatı başlamışdı. Bu zaman zəif məqamlardan məharətlə istifadə etməyi bacaran mənfur ermənilər məşhur Sumqayıt hadisələrini törətməyə nail olmaqla, soydaşlarımızı doğma torpaqlarından, Azərbaycanın qədim Zəngəzur və İrəvan mahalından qovdular. Sərnişin daşımaları kimi ağır olan bir sahənin işi müharibə dövründə daha da çətinləşmişdi. Hərbi çağırışçıların, əsgərlərin, qaçqınların və sair daşımaların bivaxt, təcili, fasiləsiz, istirahətsiz, funksional işdən ayrılmadan, gecəni gündüzə qatmaqla icrası nəqliyyatçıların adi iş normasına çevrilmişdi.

...Dağlıq Qarabağı zəbt etmək iddiası ilə yaşayan nankor qonşularımız suveren respublikamıza qarşı elan olunmamış müharibə aparırdı.

Respublikada iqtisadiyyatın tənəzzül etdiyi, əlaqələrin kəsildiyi, ictimai xaosun gücləndiyi ağır bir zamanda Ş.Həbibullayevi Şəhərlərarası Sərnişin Daşıma Avtokombinatının baş direktoru vəzifəsinə təyin edirlər. O zamanlar adı çəkilən kombinat Az.SSR-in Avtomobil Nəqliyyatı Nazirliyinin tabeçiliyində fəaliyyət göstərən, şəhərlərarası sərnişin daşıması ilə məşğul olan ən böyük və nüfuzlu bir müəssisə idi.

***

**Şahid Həbibullayev həmin dövrü yada salarkən həyəcanını gizlədə bilmir:**

-Rəhbəri olduğum Sərnişin Daşıma Avtokombinatı statusuna görə iri müəssisələrdən biri olduğu üçün respublikada baş vermiş hadisələrdən bilavasitə xəbərdar olurdum. Yadımdadır, 23 noyavr 1991-ci ildə, günün ikinci yarısında təcili olaraq respublika avtonəqliyyat nazirinin yanına çağırıldım.

Nazir Arif Aslanov ilk andan hiddətini gizlətmədən elan olunmamış qəsbkarlıq müharibəsi nəticəsində Naxçıvan MR ilə nəqliyyat əlaqələrinin kəsilməsini vurğulayaraq dedi ki, **"Bakı-Naxçıvan xətti ilə işləyən dəmiryol nəqliyyatı Ermənistan tərəfdən iflic vəziyyətinə salınmış və beləliklə Naxçıvan MR blokadaya alınmışdı. Minlərlə Naxçıvan əhalisi bir neçə gündür ki, Bakı dəmiryolu vağzalında gecələyirlər, öz evlərinə qayıda bilmirlər".**

Naxçıvan Sərnişin Daşıma müəsissəsi rəhbərliyinə sərnişinlərin daşınmasının təşkili üçün mövcud işin təşkili tapşırılsa da, müsbət irəliləyişə ümidim çox azdır. Birincisi, onların Bakıya gəlişi müəyyən vaxt tələb edir və ikincisi də, Sizin Birliyin işə daha məsuliyyətli münasibəti mənə bəllidir".

**Nazir sözünü tamamlayaraq qətiyyətlə bildirdi:**

*- Bilirəm çətindir, ancaq ümidim sizədir. Xahiş edirəm, Bakı Dəmiryolu Vağzalında ağır vəziyyətdə gecələyən Naxçıvan əhalisinin evlərinə daşınması işini təşkil edin, imkanlarımız daxilində tərəfimizdən müvafiq köməklik göstəriləcəkdir.*

## GÜNNÜT HARAYI

Şərur rayonunun Günnüt kəndi dağlıq zonada, Ermənistanın Çanaxlı kəndinin qonşuluğunda yerləşir. Kəndin aşağısındakı köhnə qəbiristanlıq, qəbirüstü yazılar bu kəndin qədim tarixə malik olduğunu göstərir. Geniş biçənək sahələrinə, otlu-sulu torpaqlara malikdir.

Kəndə gediş-gəliş olduqca çətindir. Bura abad yol çəkmək əvəzinə, xeyli aşağılarda Günnüt camaatının yaşaması üçün təzə yaşayış mərkəzi salınıb.

Günnütlülər tədricən yeni ünvanda məskunlaşmağa başlayıblar. Burada cəmi bir neçə ailə qalıb, insan əlinin hərarətinə möhtac əkin sahələri, otlaq yerləri isə ermənilərin ixtiyarındadır. Görünür, bu ermənilərə bəs etmir. Onlar hər vəchlə kəndi ələ keçirməyə çalışırlar.

Kiçik bir mühafizə dəstəsi kəndi qoruyur. Günnüt uğrunda gedən döyüşlərdə bir milis nəfəri həlak olub, neçə nəfər igidimiz yaralanıb.

Kənd uğrunda döyüşlər bir həftəyədək davam edib, Günnüt erməni mühasirəsindən tam azad olunub. Ancaq kənd etibarlı surətdə mühafizə olunmazsa, onu da Kərkinin aqibəti gözləyir.

Bu fikirlər Şərurun ucqar dağ kəndi, ermənilərin necə deyərlər, iki addımlığında yerləşən Havuş və Cağazur kəndlərinin də başının üstünü ala bilər.

**Ş.Həbibullayevin söhbətlərindən:**

- Nazir vağzalda gecələyən Naxçıvan əhalisinin daşınmasının təşkilini mənə tapşıranda, bu işin çox çətin olduğunu bir mütəxəssis, məsul rəhbər işçi kimi çox dərindən başa düşürdüm. Çünki şəhərlərarası sərnişin daşımaları ilə məşğul olduğumuz üçün bir neçə saat ərzində Beynəlxalq Sərnişin Daşımanın tələbinə cavab verən işləri görmək, hətta texniki baxımdan olduqca çətin idi.Yəni, vətəndaşlarımızı İran ərazisindən keçməklə Bakıdan Naxçıvana aparmaq üçün qısa vaxt ərzində yüksək texniki imkanlara malik olan, lazımi sayda avtobusu bir araya yığmalıydıq, sürücüləri şəxsi keyfiyyətləri nəzərə alınmaqla müəyyənləşdirməliydik. Sürücülərin yerli pasportunu xarici pasportla əvəzləməli, onlara viza açdırmalıydıq.

Nazir təkidlə işin icrasını mənə tapşırdıqdan sonra, biz birlikdə Xarici İşlər Nazirliyinə və oradan da Daxili İşlər Nazirliyinə gedərək sənədləşmə məsələlərini həll etdik.

**Beləliklə, 24 noyabr 1991-ci il** tarixində mənə və iyirmi sürücüyə 6 aylıq viza açıldı. Xidməti avtomobilim ilə bərabər, 20 ədəd "İkarus" markalı avtobusla Bakı Dəmiryol Vağzalına gəldik. Burada, deyərdim, normadan qat-qat çox sərnişin və onların yükləri vardı.

Bakı-Astara (İran)-Culfa-Naxçıvan marşrutu ilə yola çıxdıq. Onu da qeyd edim ki, bu beynəlxalq daşımalarda təcrübəmizin olmaması ilə yanaşı, 1000-ə yaxın sərnişinin də xaricə getmə səlahiyyətli pasportunun və müvafiq vizasının olmaması işimizi daha da çətinləşdirdi.

Ən başlıcası, İran-Culfa Sərhəd-Keçid məntəqəsində ciddi narahatçılıqların yaranmasına və gecikmələrə səbəb oldu.

İran sərhədini təzəcə keçmişdik ki, Astara yoxuşunda iki avtobusumuzun mühərriki yoxuşun sərtliyinə tab gətirməyib sıradan çıxdı. Belə olan halda iki avtobusun sərnişinlərini və yükünü digər avtobuslara bölüşdürərək yolumuza davam etməyə məcbur olduq.

Bütün çətinliklərə baxmayaraq, nəhayət, Naxçıvana daxil olduq və Naxçıvan Ali Sovetinin sədri ilə əlaqə yaradaraq vəziyyət haqqında müvafiq məlumatı ona çatdırdıq. Danışıq əsnasında Naxçıvan Ali Sovetinin sədri

**24 noyabr 1991-ci il tarixində mənə və iyirmi sürücüyə 6 aylıq viza açıldı.**

**Xidməti avtomobilim ilə bərabər, 20 ədəd "İkarus" markalı avtobusla Bakı Dəmiryol Vağzalına gəldik. Burada, deyərdim, normadan qat-qat çox sərnişin və onların yükləri vardı.**

**Bakı-Astara (İran)-Culfa-Naxçıvan marşrutu ilə yola çıxdıq.**

Azərbaycan-Astara Dəmiryolu Vağzalı ərazisində də ağır vəziyyətdə gecələyən Naxçıvan əhalisinin evlərinə daşınmasının təmin olunmasını bizə həvalə etdi.

Biz Astara Dəmiryolu Vağzalına gəldikdə ***(şaxtalı-sazaqlı qış vaxtı),*** həqiqətən də, hədsiz dərəcədə acınacaqlı vəziyyətdə yardım gözləyən əhalini gördük. Aralarında uşağı, qadını və qocası olan yüzlərlə insan dördüncü gün idi ki, Allaha pənah deyərək, dənizkənarı düzənlikdə yardım gözləyirdilər. Daşımanın təşkili ilə əlaqəli maddi və təchizatı çətinliklərin həlli, fasiləsiz-istirahətsiz sükan arxasında oturmaq, üzücü yorğunluq sürücüləri və məni narahat etməyə bilməzdi. Lakin bütün çətinliklərə baxmayaraq, yanacaq tələbatımızı həll edib əhalini avtobuslara mindirib, Naxçıvana doğru istiqamətlənərək onları evlərinə çatdırdıq. Bu minval ilə bizim birlik tərəfindən Bakı-İran-Naxçıvan marşrutu üzrə sərnişin daşımanın bünövrəsi qoyuldu.

Bakı-Naxçıvan sərnişin daşımalarının təşkilinin qızğın çağında, təxminən, daşımaların üçüncü ayında,

**Bütün çətinliklərə baxmayaraq, nəhayət, Naxçıvana daxil olduq və Naxçıvan Ali Sovetinin sədri ilə əlaqə yaradaraq vəziyyət haqqında müvafiq məlumatı ona çatdırdıq. Danışıq əsnasında Naxçıvan Ali Sovetinin sədri Azərbaycan-Astara Dəmiryolu Vağzalı ərazisində də ağır vəziyyətdə gecələyən Naxçıvan əhalisinin evlərinə daşınmasının təmin olunmasını bizə həvalə etdi.**

**Biz Astara Dəmiryolu Vağzalına gəldikdə (şaxtalı-sazaqlı qış vaxtı), həqiqətən də, hədsiz dərəcədə acınacaqlı vəziyyətdə yardım gözləyən əhalini gördük.**

**1992-ci ilin fevralın** axırlarında yenidən nəqliyyat nazirinin yanına çağırıldım. Nazir Arif Aslanov bildirdi ki, təcili 25 ədəd avtobusla Füzuli rayonunun Horadiz qəsəbəsinə gedərək orada Dəmiryolu Vağzalında qalmış Naxçıvan əhalisinin Horadiz-İran-Naxçıvan marşrutu ilə evlərinə çatdırılmasını təşkil edim. Bu dəfə də nazir tərəfindən Horadiz-İran-Naxçıvan marşrutu ilə əhalinin daşınmasının icrası yenidən mənə həvalə olundu. Bir anlığa Bakı, Astara Dəmiryolu Vağzallarında gördüyüm köhnə mənzərə, sərnişinlərin acınacaqlı vəziyyəti gözlərim önündə canlandı. Sadə insanların düşdüyü bu ağır vəziyyətə biganə qala bilməzdim. Odur ki, 25 ədəd "İkarus" markalı avtobusla Horadizə yollandıq və oradakı Naxçıvan əhalisinin köməyinə tələsdik.

Burada ilk gündən qeyri-adi hadisə ilə rastlaşdım. Sərnişinlərin İran ərazisində vaxt itirməməsi üçün iki ölkənin sərhəd rəhbərliyi ilə danışıqlar aparmalı olduq. İran sərhəd xidməti məmuruna təklif etdim ki, sizin ərazidə yoxlamalara vaxt itirməmək üçün yaxşı olardı ki, avtobuslar Azərbaycan ərazisində möhürlənsin və Culfada təhvil verilsin. Bu təkliflə hər iki tərəfin sərhəd xidməti məmurları razılaşdı. Beləliklə, Horadizdən Naxçıvana yola düşəcək ilk sərnişin avtobusunu yüksək çinli məmurların iştirakilə yoxlayarkən, hamımızı təəccübləndirən hadisə ilə rastlaşdıq. Avtobusun yük yerində iki ədəd əl qumbaraları üçün taxta sandıq da var idi. Sandıqların çox ağır olması hamını şübhəyə saldı. Sandıqların sahibi əslən naxçıvanlı olan 50-55 yaşlı çəlimsiz bir kişi idi. O, sandıqları yük yerindən endirib qapağını qaldırdı. Burada çoxlu sayda "siverdlo" (metal burğu)

aşkar edildi. Kişi bildirdi ki, bu sverdloları Türkiyədə satıb balaları üçün çörəkpulu qazanmaq niyyətindədir. Qumbara sandıqları bizi təəccübləndirsə də, içərisindən sverdlo çıxması hətta gülüşə də səbəb oldu. Kişinin siverdlo aparmasına heç kəs etiraz etmədi. O, ağır sverdlo yüklü sandıqları yük yerinə qaldırarkən qəfil ürəyini tutdu və hərəkətsiz qaldı.

Həkim çağırmaq gec idi. Kişi artıq dünyasını dəyişmişdi. Cənazəni Naxçıvana göndərməyin başqa variantı olmadığı üçün onu "İkarus-256" markalı, 82-75 dövlət nömrə



**Naxçıvan**

nişanlı avtobusunun arxa qapısının sağ tərəfindəki birnəfərlik oturacağında "oturtduq".

Avtobusun sürücüsü Nüsrət Xəlilov buna etiraz edərək dedi: "Şahid müəllim, mən avtobusla ölü daşıya bilmərəm, meyitdən qorxuram."

Onun sözünü kəsmək üçün dedim ki, biletsiz sərnişin daşımaqdan qorxmursan, biletli ölüdən qorxursan?!

Beləliklə, sərnişinləri Horadizdən Naxçıvana yola saldıq. Mənim tapşırığıma əsasən cənazə ölü sahiblərinə təhvil verildi.

## ƏSİR ALINMIŞ KƏND

Kərki kəndi Azərbaycanın xəritəsində Naxçıvanla quru yol əlaqəsi olmayan, ayrıca, Ermənistanın ərazisində kiçik bir dairədə göstərilən yaşayış məntəqəsidir. Sual edə bilərsiniz: əgər Kərki Naxçıvan torpağıdırsa, nəyə görə Ermənistan ərazisindədir?

Səbəbini açıqlamağa ehtiyac yoxdur. Başsız başbilənlərimizin hədsiz səxavəti ucbatından ermənilər neçə illər bundan qabaq Kərki ilə Sədərək arasındakı torpaqlarımıza yiyələniblər.

**Kərki** Azəri türklərinin qədim yaşayış məskənidir. Onun cənubunda eramızdan əvvəl 2-ci minilliyə aid müdafiə istehkamları var. Buradan arxeoloji qazıntılar zamanı daş qutu qəbirlər, üstü naxışlı gil qablar tapılmışdır. Qiymətli tapıntıların mədəniyyətimizin qədim dövrləri üçün səciyyəvi olduğu güman edilir və dövlət tərəfindən qorunub saxlanılır. Bu faktlar Kərkinin keçmişinə aiddir.

Qarabağ hadisələri ətrafında münaqişələr başlanan gündən kərkililər öz kəndlərinin müdafiəsinə qalxdılar. Günlər ötdükcə vəziyyət daha da gərginləşirdi. Naxçıvanla əlaqə, demək olar ki, kəsilmişdi.

Rus hərbçiləri Kərkiyə gedən maşınları müşayiət etməkdən imtina edirdilər. Belə olduqda Kərki ilə hava yolu - vertolyotlar vasitəsilə əlaqə saxlanmağa başlandı.

**Kərkidə yaşamaq** günü-gündən ağırlaşırdı. Ermənilər hər gün kəndə atəş yağdırırdılar. Kərkidə olan hərbçilər - mühafizə dəstəsi isə camaatı qorumaq əvəzinə, erməni quldurlarına güzəştə gedir, onların meydan sulamasına imkan yaradırdılar.

**...1990-cı il yanvarın 18-də** Kərkinin axırıncı sakinləri kənddən köçürüldü. Az sonra isə ora ermənilərin köçü başlandı. Azərbaycanın bu axar - baxarlı kəndi beləcə düşmən tərəfindən işğal edildi.

Artıq neçə illərdir ki, Kərki yağılar əlində əsirdir. Adı da dəyişdirilib olub "Tiqranavan".

Belə bir sual ortaya çıxır: adətən, əsir düşmüş adamları girovlarla dəyişirlər. Bəs, girov düşmüş bütöv bir kəndin taleyi necə olmalıdır?! Əsir edilmişsə?!..

**...1990-cı il yanvarın 18-də Kərkinin axırıncı sakinləri kənddən köçürüldü. Az sonra isə ora ermənilərin köçü başlandı. Azərbaycanın bu axar - baxarlı kəndi beləcə düşmən tərəfindən işğal edildi.**

**Artıq neçə illərdir ki, Kərki yağılar əlində əsirdir. Adı da dəyişdirilib olub "Tiqranavan".**

## TÜRKİYƏ NAXÇIVANIN ƏRAZİ TƏMİNATÇISIDIR

Xatırladaq ki, 1921-ci ildə RSFSR ilə bağlanmış və heç kim tərəfindən bu günədək ləğv olunmamış "Qars müqaviləsi"nə əsasən, Türkiyə Naxçıvanın ərazi bütövlüyünün təminatçısıdır. Bununla əlaqədar belə bir vəziyyət yaranır: Türkiyə ermənilərin cilovunu çəkməyə başlayan kimi, onlar bu yaxınlarda Daşkənddə imzalanmış sənədə MDB ölkələrinin müdafiə və qarşılıqlı yardım haqqında müqaviləsinə əsaslanaraq, ilk növbədə, Rusiyadan hərbi yardım tələb edəcəklər. Nəticədə, MDB ilə Türkiyə arasında hərbi qarşıdurma təhlükəsi yarana bilər.

Rusiyanın "Yeniliklər" və "Vesti" televiziya proqramlarının aparıcıları bu məsələyə diqqəti xüsusi olaraq cəlb edirlər. Tərəfləri bir-birinin üstünə saldırmaq erməni milli siyasətinin ənənəvi xüsusiyyətidir. Görəsən, Rusiya rəhbərliyində bunu başa düşürlərmi?! Axı Avropa Birliyinin üzvləri Ermənistanın Naxçıvana qarşı açıq təcavüzünə kəskin mənfi münasibət bəslədiklərini bildirmişlər.

**Onlar Ermənistanın hərəkətlərini belə qiymətləndirmişlər:** *"Biz Naxçıvana qarşı təcavüzkar hərəkətləri pisləməyə bilmərik və bunu qəti şəkildə bildirməyi zəruri hesab edirik ki, həmin hərəkətlər tamamilə yolverilməzdir".*

İran xarici işlər nazirinin müavini M.Vaizi Ermənistanın Naxçıvana müdaxiləsini "açıq təcavüz" adlandırmışdır.

**Hətta ABŞ dövlət departamentinin nümayəndəsi M.Tatualyer bildirmişdir ki,** "ABŞ hökuməti Dağlıq Qa-

rabağın, Naxçıvanın, yaxud hər hansı digər ərazinin statusunun zorakılıq və hərbi əməliyyatlar əsasında birtərəfli şəkildə hər hansı formada dəyişdirilməsi ilə razılaşmayacaqdır".

**Ş.Həbibullayevin söhbətlərindən:**

-Blokadaya alınmış Naxçıvan MR-nın müxtəlif səbəblərdən evlərindən uzaq düşmüş əhalisinin didərgin halından çıxarılması 6 aydan çox vaxt tələb etdi. Sadaladığım bu faktlar erməni terrorunun Naxçıvan əhalisinə etdikləri zülümlərin bariz nümunələrindən yalnız mən şahidi olduqlarımdan az bir qismidir. O zamankı ağır müharibə dövründə Şəhərlərarası Sərnişin Daşıma üzrə ixtisaslaşdırıldığımızdan, Birliyimiz fövqəladə hallar nəzərə alınaraq, bütün



**1992.** İşğal edilmiş Laçın şəhəri

məsul daşımaları icra edirdi. Odur ki, mən yalnız icra etdiklərimizdən ən əsaslarını qeyd etməyi özümə borc bilirəm. Bütün bu dövrlərə aid sənədlər və pasport qeydləri o çətin və ağır günlərin tarixi faktlarıdır...

## LAÇIN ƏTRAFINDA DÖYÜŞLƏR SƏNGİMİRDİ...

**Şahid Həbibullayev bu gün tarixə çevrilmiş o günlərin sənədlərini göstərərək sözünə davam edir:**

-1992-ci ilin may ayının əvvəlləri günün birinci yarısı Respublika Avtomobil Nəqliyyatı naziri təcili olaraq məni yanına çağıraraq bildirdi: - *"Laçın ətrafında döyüşlər səngimir. Bəzi məlumatlara görə Laçın ermənilər tərəfindən işğal olunub. Əhali öz dədə-baba yurdundan didərgin düşüb. Minlərlə əhali ölüm təhlükəsi ilə üz-üzə qalıb. Bu səbəbdən, 20-25 ədəd PAZ-672 markalı avtobusla təcili Laçına yola düşməlisiniz. Sabah səhər 10-11 radələrində orada olun, qocaları və uşaqları ölüm fəlakətindən xilas edin.*

Son aylar müharibə bölgələrindəki ağır hərbi vəziyyətə görə 5-6 gün idi ki, Bakı-Laçın marşurutu üzrə reyslər dövlət səviyyəsində bağlanmışdı. Elə bu səbəbdən də məsuliyyəti dərk edərək Laçından əhalinin sağ-salamat çıxarılması və işin etibarlı təşkili üçün mən də sürücülərin üzərində məsul şəxs qismində Laçına gedəcəyəm, - deyə fikrimi nazirə bildirdim. Onunla aramızda olan danışıqlarda Nazirliyin Xüsusi İdarəsinin rəisi, ehtiyatda olan polkovnik Ağatahir müəllim də iştirak edirdi və **o, hərbçi olduğundan söhbət əsnasında söylədi:** *"Laçına xidməti avtomobilində deyil, sərnişin kimi, avtobusda getməyin məsləhətdir".*

O vaxt müəssisəmizdə cəmi 51 ədəd PAZ-672 markalı avtobus var idi. Daşıma tələblərinə və istismar şəraitinə görə Laçın istiqamətində dağ yoluna dözümlü yalnız bu avtobuslarla sərnişin daşınması mümkün idi. Nazirlikdən idarəyə qayıdaraq şöbə müdirlərini və müavinləri çağırıb təcili olaraq marşrutdan qayıdan və səhər reysə çıxacaq “PAZ” markalı avtobusların sürücülərlə birlikdə cəmləşməsinin təmin olunmasını tapşırdım. Laçından əhalinin çıxarılmasının çox ağır və məsuliyyətli olduğunu onların nəzərinə çatdıraraq, sürücülər ilə bir nəfərin də rəhbər kimi getməsi vacibliyini vurğulayıb, kimin könüllü getmək istədiyini soruşdum.

Lakin könüllü Laçına heç kəs getmək istəmirdi.

**Bu məqamda ucadan elan etdim:** " Sizinlə özüm də gedirəm. İndi isə gedin tapşırığı icra edin", - deyə fikrimi tamamladım. Həmin gün gecə saat 23:30 radələrində 27 ədəd PAZ markalı avtobusu yanacaq və yol vərəqələri ilə təmin edərək sürücülərlə birlikdə Laçına yola düşdüm. Səhəri gün saat 6-7 radələrində Bəhramtəpəyə çatanda biz ilk qaçqın

**Bu məqamda ucadan elan etdim: " Sizinlə özüm də gedirəm. İndi isə gedin tapşırığı icra edin", - deyə fikrimi tamamladım.Həmin gün gecə saat 23:30 radələrində 27 ədəd PAZ markalı avtobusu yanacaq və yol vərəqələri ilə təmin edərək sürücülərlə birlikdə Laçına yola düşdüm. Səhəri gün saat 6-7 radələrində Bəhramtəpəyə çatanda biz ilk qaçqın axını ilə rastlaşdıq. Avtobusdan düşərək vəziyyət ilə maraqlandıqda, mənə "Geri qayıdın, Laçın artıq ermənilərin əlindədir", - dedilər.**

axını ilə rastlaşdıq. Avtobusdan düşərək vəziyyət ilə maraqlandıqda, mənə "Geri qayıdın, Laçın artıq ermənilərin əlindədir", - dedilər.

Mən sürücüləri bir araya toplayaraq vəziyyəti onlara bildirdim və sonda əhalini düşmən tapdağından çıxarmaq üçün Laçına qədər gedəcəyimizi onlarla razılaşdırıb yola düşdük.

Yolboyu tanklar, əsgərlər, ev əşyaları ilə doldurulmuş traktor və yük maşınları ilə rastlaşırdıq. Laçının "Qayğı" qəsəbəsinə çatanda gözətçi məntəqəsində rayonun ermənilər tərəfindən işğal olunduğunu bildirərək, geri qayıtmağımızı tələb etdilər. Yük maşınları və tanklar yüklə dolu dayanmışdılar. Lakin biz sahibsiz qalmış yerli əhalinin daşınması tapşırığının icrası məqsədilə gəldiyimizi bildirərək inadkarlıq göstərib rayon istiqamətində hərəkəti davam etdirdik.

Təxminən saat 12 radələrində 27 ədəd PAZ markalı avtobusla mən rayonun mərkəzində idim. Laçının tamamən boşaldılmasına baxmayaraq, orada heç bir erməni əsgərini görmədik. Laçın demək olar ki, salamat və

**Qərargahın həyətində sürücüləri gözlədiyim zaman çiyni avtomatlı bir nəfər şəxs mənə yaxınlaşaraq hal-əhval tutdu. Söhbət əsnasında məlum oldu ki, həmin şəxs Laçın Avtobazasının müdiri Tofiq Novruzovdur. O bildirdi ki, imkanı olan alamlar ev əşyalarını götürərək Laçını tərk ediblər. Şəhərdə qalan kasıb, imkansız insanlardır. Günorta saat 14-15 radələrində mən axırıncı insanlarla dolu avtobusla Laçını tərk etdim.**

yiyəsiz idi. Divarının az bir hissəsi "Qrad" qurğusu ilə uçurdulmuş "Mədəniyyət evi"ndə yaradılmış qərargah fəaliyyətdə idi. Mən qərargahdakıları məlumatlandırdıqdan sonra sürücülərə "Təcili olaraq rayonun müxtəlif istiqamətlərində hərəkət edib, ev əşyaları istisna olmaqla, getmək istəyən mülki adamları götürərək qərargaha qayıdın" tapşırığını verdim. Qərargahın həyətində sürücüləri gözlədiyim zaman çiyni avtomatlı bir nəfər şəxs mənə yaxınlaşaraq hal-əhval tutdu.

Söhbət əsnasında məlum oldu ki, həmin şəxs Laçın Avtobazasının müdiri Tofiq Novruzovdur. O bildirdi ki, imkanı olan adamlar ev əşyalarını götürərək Laçını tərk ediblər. Şəhərdə qalan kasıb, imkansız insanlardır. Günorta saat 14-15 radələrində mən axırıncı insanlarla dolu avtobusla Laçını tərk etdim.

Bizim Laçına gələrək köməksiz əhaliyə yardım göstərməyimiz yüzlərlə günahsız insanın erməni gülləsindən xilas edilməsi ilə nəticələnmişdi.

Son ayların, günlərin acınacaqlı vəziyyəti, cəbhə bölgəsindən sərnişin daşımalarının təşkilinin bilavasitə iştirakçısı olmağım, özüm də bilmədən, məni müharibənin dərinliklərinə aparırdı və düşünərək təhlil etməyə vadar edirdi. O zamanlar məni ən çox hakimiyyətin səriştəsizliyi, məmurların biganəliyi və bir çox hallarda kütlənin düşdüyü çarəsizlik girdabı sarsıdırdı. Yolboyu rastlaşdığım hərbi texnikadan və canlı qüvvədən istifadə taktikasını öz-özlüyümdə quraraq müdafiə və hücum strategiyasını işləyirdim. Nəticədə, çox çəkmədi ki, qəti qərarı özümdə formalaşdırdım.

## QARABAĞ MÜHARİBƏSİ

...Qarabağ müharibəsi zamanı Şəhərlərarası və Beynəlxalq Daşımalar Birliyinin baş direktoru olan Şahid Həbibullayev tutduğu vəzifə səlahiyyətlərinə görə xüsusi möhlətə malik və eyni zamanda orduya çağırış yaşı ötmüş olduğundan döyüşlərdən kənarda qala bilərdi. Lakin o, Azərbaycanın prezidenti H.Əliyevin çağırışı ilə Bakıda rəhbər işlədiyi müəssisənin yerləşdiyi Nərimanov rayonundan könüllülər taboru ilə bir sırada torpaqlarımızın azadlığı uğrunda müharibəyə gedərək, ön cəbhəyə yollanmışdı.



**1994-cü il.** 181-ci briqadanın 6-cı taborunun qəhrəman döyüşçüləri

Cəbhədə ilk günlər tabor komandirinin müavini oldu. Lakin az sonra əvvəlcə komandirin, ardınca isə qərargah rəisinin yaralanması ilə vəziyyət dəyişildi.

...Cəbhə xəttində atəşkəs elan edilən günə qədər bu üç vəzifəni şərəflə yerinə yetirmək Şahid Həbibullayevin öhdəsinə düşdü.

Bəlli olduğu kimi, Ermənistanın Azərbaycana qarşı başladığı ədalətsiz müharibənin tarixində 1993-1994-cü illər ordumuzun Beyləqan, Horadiz və Füzuli istiqamətində uğurlu əməliyyatları ilə yadda qaldı.



**AĞDƏRƏ.** Qədim Alban abidəsi

## XİDMƏTİ XASİYYƏTNAMƏ

181 saylı hərbi hissənin alay komandirinin şəxsi heyətlə işlər üzrə müavini, 1952-ci il təvəllüdlü, azərbaycanlı, ali təhsilli, 1983-cü ildə Azərbaycan Politexnik İnstitutunu bitirən, 1993-cü ildən Silahlı Qüvvələrdə xidmət edən kapitan Həbibullayev Şahid Məməş oğlu 181 saylı hərbi hissədə xidmət keçdiyi zaman özünü müsbət tərəfdən göstərmişdir. Hərbi sistemdə tutduğu vəzifəyə uyğun olaraq tam hazırlıqlıdır. Siyasi cəhətdən savadlıdır, mürəkkəb vəziyyətlərdə çox düzgün istiqamət tutur, qarşıya qoyulmuş məqsədə çatmaq üçün əsaslandırılmış qərarlar qəbul edir.

**07.01.1994-cü ildə** Ş.M.Həbibullayevin rəhbərliyi və iştirakı ilə hərbi qrup strateji əhəmiyyətli "Bəytəpə" yüksəkliyinin alınmasını uğurla həyata keçirmişdir. Bundan sonra **07.01.1994-cü ildən 27.01.1994-cü ilə** kimi alay komandirinin müavini, kapitan Həbibullayevin rəhbərliyi və iştirakı ilə hərbi bölmə erməni yaraqlıları tərəfindən zəbt edilmiş torpaqların azad olunmasına başlamış və 40 km-dən çox zəbt olunmuş ərazi azad edilmişdir. Döyüşlərdə rəqib tərəfin bir tankı vurulmuş və canlı qüvvəsi məhv edilmişdir.

**28.01.1994-cü ildə** düşmən 3 saatlıq artilleriya hazırlığından sonra saat 16.00-da tank bölüyünün və piyada qo-

şun dəstələrinin köməkliyi ilə strateji mövqeləri geri qaytarmaq üçün əks-hücuma keçmişdir.

Kapitan Ş.M.Həbibullayevin rəhbərliyi və iştirakı ilə düşmənin tank bölüyünün növbəti hücumunun qarşısı alınmışdır. Qanlı vuruşmada düşmən tərəfin 4 tankı vurulmuş və 40 nəfərdən çox canlı qüvvəsi məhv edilmişdir.

**1994-cü ilin mart ayında** kapitan Həbibullayevin sayıqlığı və öz xidməti borcuna vicdanla yanaşması nəticəsində erməni kəşfiyyatçısı aşkar olunmuş və zərərsizləşdirilmişdir.

Qeyd olunan işlərə görə kapitan Şahid Məməş oğlu Həbibullayev Müdafiə Nazirinin əmri ilə pul mükafatına layiq görülmüşdür.

Hərbi əməliyyatlara uğurla rəhbərlik etdiyinə görə, Azərbaycan Respublikasının Prezidenti cənab H.Ə.Əliyevin **09 oktyabr 1994-cü il** tarixli Sərəncamına əsasən

"Azərbaycan Bayrağı" ordeni ilə təltif edilmişdir.

Azərbaycan Ordusunun nizamnaməsini və rəhbər sənədlərini bilir və onlardan bacarıqla istifadə edir. Daim öz hərbi biliklərinin artırılması üzərində çalışır.

**Nəticə:** Tutduğu vəzifəyə müvafiqdir.

Xasiyyətnamə və nəticə ilə razıyam.

181 saylı hərbi hissənin komandiri

**Polkovnik C.Əliyev**



46

СЛУЖЕБНАЯ ХАРАКТЕРИСТИКА

на заместителя командира батальона по работе с личным составом войсковой части № 181 капитана ГАБИБУЛЛАЕВА Шахида Мамаш оглы

1952 года рождения, азербайджанец, образование высшее, в 1983г. окончил Азербайджанский политехнический институт, в Вооруженных Силах с 1993 г о д а.

За время прохождения службы в войсковой части № 181 зарекомендовал себя только с положительной стороны. В военном отношении, в объеме занимаемой должности подготовлен хорошо. Политически грамотен умело ориентируется в сложных условиях обстановки, принимает обоснованные решения при выполнении поставленных задач.

07.01.1994г. боевая группа под командованием ГАБИБУЛЛАЕВА успешно выполнила поставленную задачу по взятию и удержанию стратегически важную высоту "Бейтапа". После этого, с 07.01.1994г. по 27.01.1994г. подразделение под руководством заместителя командира батальона капитана ГАБИБУЛЛАЕВА Ш.М. приступило по освобождению захваченных армянскими бандформирования земель, и в результате нескольких боевых операций было освобождено более 40 км. захваченных территорий. В боях был сбит I танк и уничтожена живая сила противника.

В 28.01.1994 года враг после 3-х часовой артподготовки в $16^{00}$ дня с помощью танковой роты при поддержке пехота приступил контрнаступлению с целью вернуть стратегические потерии.

Под командованием капитана ГАБИБУЛЛАЕВА Ш.М. была отражена очередная атака танковой роты противника.
В кровопитном бою был сбит 4 танки противника и более 40 человек живой силы.

В марте месяце 1994 года в результате бдительности и добросовестного отношения к своим служебным обязанностям со стороны капитана ГАБИБУЛЛАЕВА Ш.М. был выявлен и обезврежен армянский разведчик.

За проделанную работу капитан ГАБИБУЛЛАЕВ Шахид Мамаш оглы приказом № 0 был поощрен денежной премией.

За умелое командование боевых операций, капитан ГАБИБУЛЛАЕВ Шахид Мамаш оглы 09 октября 1994 года Указом Президента Азербайджанской республики т.Алиева Г.А. награжден орденом "Азербайджан байрагы".

Уставы Азербайджанской Армии и руководящие документы знает, умело руководствуется ими. Постоянно работает над повышением своих военных з н а н и й.

ВЫВОД: ЗАНИМАЕМОЙ ДОЛЖНОСТИ СООТВЕТСТВУЕТ:

С характеристиком и выводом согласен:

КОМАНДИР ВОЙСКОВОЙ ЧАСТИ № 181
ПОЛКОВНИК (Д.АЛИЕВ)

**Xidməti xasiyyətnamənin surəti**

## UĞURLU DÖYÜŞ ƏMƏLİYYATLARI

Fasiləsiz ölüm-dirim savaşı nəticəsində düşmən qüvvələri məğlub olaraq 40 km geri çəkildi. Torpaqlarımızın bir qismi azad edildi. Bu döyüşlərdə Şahid Həbibullayevin başçılıq etdiyi 6-cı tabor atəşkəs elan edilən günə qədər 181-ci briqadanın tərkibində olmaqla daim öndə getmişdi.

**Bakıda isə həmin vaxt şayiə yayılmışdı ki, Bəytəpə yüksəkliyinin alınması zamanı Binəqədi taboru kimi bizim tabor da tam məhv edilmişdir.**

**Onu da deyim ki,Bəytəpə HARAMI düzündə ermənilərin nəzarəti altında olan, güclü texnika və çoxlu sayda əsgərlə qorunan alınmaz qalaya çevrilmişdi. Halbuki bizim tabordan əvvəl 181-ci briqadanın tərkibində olan iki tabor Bəytəpə yüksəkliyinin alınması uğrunda gedən döyüşdə çoxlu sayda itki verərək geri çəkilmişdi.**

**Ş.Həbibullayevin söhbətlərindən:**

- 1994-cü il yanvarın yeddisi idi. "Bəytəpə" əməliyyatına rəhbərlik edərkən taborumuz düşmənin 1 tankını və xeyli canlı qüvvəsini məhv etdi, yüksəkliyi alıb irəli hücuma keçdik. O, ağır günləri, qanlı döyüşləri bu gün həyəcansız xatırlamaq mümkün deyildir. Mərmilər partlayır, avtomatlar şaqqıldayır, döyüşçülərdən yaralanan kim, ölən kim, məqsəd və amal bir - hücum, hücum...

Bakıda isə həmin vaxt şayiə yayılmışdı ki, Bəytəpə yüksəkliyinin alınması zamanı Binəqədi taboru kimi bizim tabor da tam məhv edilmiş-

dir. Onu da deyim ki,Bəytəpə HARAMI düzündə ermənilərin nəzarəti altında olan, güclü texnika və çoxlu sayda əsgərlə qorunan alınmaz qalaya çevrilmişdi. Halbuki bizim tabordan əvvəl 181-ci briqadanın tərkibində olan iki tabor Bəytəpə yüksəkliyinin alınması uğrunda gedən döyüşdə çoxlu sayda itki verərək geri çəkilmişdi.

Bizim tərəfdən isə Bəytəpə yüksəkliyinin alınması uğrunda gedən döyüşdə 6-cı tabordan 12 nəfər şəhid oldu, 23 nəfər isə yaralandı. Hücum edən tərəf üçün isə bu nəticə böyük itki sayılmır.

Bəytəpə əməliyyatı zamanı məni dəhşətə gətirən bir hadisə baş verdi.

"Bəytəpə" yüksəkliyinin alınmasının ikinci günü bölük komandirlərini yanıma çağıraraq yaralıları hərbi hospitala, şəhidləri isə təyinatı üzrə yola saldıqdan sonra, mənə məlum oldu ki, əsgərlərimdən biri- Zərdab rayonunun Yuxarı Seyidlər kəndindən olan sıravi Məmmədov Haqverdi Fəxrəddin oğlu yoxdur.

Axtarışlar zamanı III bölüyün komandiri, mənim ən sevimli əsgərlərimdən biri olan, öz vətənpərvərliyi ilə tanınan, yaxşı ailə tərbiyəsi görən, yüksək təşkilatçılıq qabiliyyətinə malik, cəbhədə sağ əlim olan sıravi Baxşıyev Mübariz Hüseyn oğlu bir əsgərlə yanıma gəldi. Onu da qeyd edim ki, siravi M.Baxşıyev ali təhsilli mühəndisdir. Cəbhəyə gələnə qədər elektrik stansiyasında qazan-trubin sexinin rəisi işləmişdi. Onlar mənə bildirdi ki, əməliyyat zamanı itən əsgər bizdən 15-20 metr aralıda dayanmışdı. Güclü partlayış baş verəndən sonra Məmmədov Haqverdi Fəxrəddin oğlu toza-torpağa qarışaraq yox oldu.

Mübariz Baxşıyevə tapşırdım ki, o ərazini ətraflı axtarsınlar. Axtarışlar aparılsa da, heç nə tapılmadı və səhəri gün mən özüm də Mübarizlə birgə o əraziyə getdim. Günortaya yaxın əsgər Məmmədov Haqverdi Fəxrəddin oğluna məxsus avtomatın 18226305 nömrəli çaxmaq mexanizmini tapdıq. Məlum oldu ki, düşmən tərəfdən atılan tank mərmisinin partlaması nəticəsində əsgər parça-parça olmuş və ondan yalnız tapdığımız çaxmaq mexanizmi qalmışdır.

Haramı düzündə qızğın döyüşlər getdiyindən valideynlər cəbhə bölgəsinə axışırdılar. Polkovnik Cahangir Əliyev mənimlə əlaqəyə girərək bir əsgərin valideynlərinə kömək məqsədilə oraya maşın göndərməyimi xahiş etdi.

**Bu qeyri-bərabər döyüş əməliyyatında 6-cı tabor 4 nəfər yaralı, 13 şəhid verdi. Etiraf etməliyəm ki, 28 yanvar 1994-cü il tarixində bu tanklardan (bir tank istisna olmaqla), qalan üç tankın ekipajı, hər biri dörd nəfərdən ibarət olmaqla, çox cəsarətlə vuruşaraq qeyri-adi qəhrəmanlıq nümayiş etdirmişdilər.Psixoloji üstünlük bizim tərəfimizdə olduğu üçün onların məğlubiyyəti qaçılmaz idi.**

Yarım saatdan sonra bir kişi və bir qadını mənim yanıma gətirdilər. Məlum oldu ki, onlar parçalanaraq tikə-tikə olmuş Məmmədov Haqverdi Fəxrəddin oğlunun valideynləridir. Mən çox çətinliklə, bir təhər əsgərin atasına başa saldım ki, onun oğlu hansı şəraitdə şəhid olmuş və ondan yalnız avtomatın çaxmaq mexanizmi qalmışdır.

Şəhid atası məndən bu mexanizmin oğlunun əvəzinə basdırılmaq üçün ona verilməsini xahiş etdi. Mən ona çaxmaq mexanizmini verə

bilməyəcəyimi dedim. Axı əks-təqdirdə cinayət məsuliyyəti daşıyacağımı bildirdim. Onda şəhid atası oğlunun şəhid olduğu yerin torpağından bir əsgər çantası qədər torpaq götürməyi xahiş etdi. Bu şəhid torpağı ona oğlunun əvəzindən dəfn etmək üçün lazım idi. Şəhid atasının xahişinə əməl olundu.

Mübariz Baxşıyevlə birgə Fəxrəddin kişini maşınla həmin yerə göndərdim.

Şəhidin atası torpaq götürmək üçün getdiyi zaman mən bu xəbəri şəhidin anasına da danışmalı oldum. Ancaq çox həyəcan keçirdiyimdən bu xəbəri şəhidin anasına psixoloji hazırlıq görmədən, ani bir məqamda xəbər verdim.

Təbii ki, bu xəbəri eşidən ana fəryad qopardı. O, əl ataraq üz-gözünü cırmağa, saçlarını yolmağa başladı. Əri qayıdana qədər şəhidin anasına sakitləşdirici iynə vuraraq onu bir təhər sakitləşdirdik və sonra maşınla onları öz kəndlərinə yola saldım.

Hazırda Zərdab rayonunun Yuxarı Seyidlər kəndində şəhid məzarında Məmmədov Haqverdi Fəxrəddin oğlunun cəsədi deyil, yalnız onun şəhid olduğu torpaqdan götürülmüş bir hissə dəfn edilibdir.

***

Altıncı tabor Bəytəpə döyüşlərindən sonra dörd uğurlu hücum əməliyyatı həyata keçirərək 40 km irəliləmiş, **1994-cü il yanvarın 27-də** Füzulinin Aşağı Veysəlli kəndi yaxınlığındakı 276 saylı yüksəkliyi erməni işğalından azad etmişdir. Bu mürəkkəb əməliyyatı taborun zabit və əsgər heyəti üç nəfər şəhid və üç yaralı ilə həyata keçirdi. Bir gün sonra isə düşmən qüvvələr 3 saatlıq artille-

riya hazırlığından sonra saat 16.00-da tank bölüyünün və piyada qoşun dəstələrinin köməkliyi ilə strateji mövqeləri geri qaytarmaq üçün əks-hücuma keçdi.

Kapitan Ş.M.Həbibullayevin rəhbərliyi və iştirakı ilə düşmənin tank bölüyünün növbəti hücumunun qarşısı uğurla alınmışdır.

Qanlı vuruşmada düşmən tərəfin 4 tankı vurulmuş və 40 nəfərdən çox canlı qüvvəsi məhv edilmişdir. Azərbaycan Müdafiə Nazirliyi tərəfindən bu əməliyyat Beyləqan - Horadiz istiqamətində gedən döyüşlərdə ən uğurlusu hesab edilmiş, döyüşçülərimiz komandanlıq tərəfindən 4 milyon manat pulla mükafatlandırılmışdı.



**1994-cü il.** 181-ci briqadanın 6-cı tabor qəhrəman döyüşçüləri

Bu məbləğ 6-cı taborun zabit və əsgər heyətinin qərarı ilə döyüşlərdə qəhrəmanlıqla həlak olan şəhidlərimizin ailəsinə verilmişdir.

**Döyüşlər zamanı məhv edilmiş erməni tanklarının nömrəsi bunlardı.**

TO-3BT-9337,

BO-9BT-6794,

CO-5BT-7333,

TO-3BT-9327.

Bu qeyri-bərabər döyüş əməliyyatında 6-cı tabor 4 nəfər yaralı, 13 şəhid verdi.

**Ş.Həbibullayevin söhbətlərindən:**

-Etiraf etməliyəm ki, 28 yanvar 1994-cü il tarixində bu tanklardan **(bir tank istisna olmaqla),** qalan üç tankın ekipajı, hər biri dörd nəfərdən ibarət olmaqla, çox cəsarətlə vuruşaraq qeyri-adi qəhrəmanlıq nümayiş etdirmişdilər. Psixoloji üstünlük bizim tərəfimizdə olduğu üçün onların məğlubiyyəti qaçılmaz idi.

Döyüşdən sonra öz əsgərlərimin qarşısında çıxış etdim. Dedim ki, düşmən olsalar da, onların göstərdiyi igidlik əsil qəhrəmanlıqdır. Bütün üç tankın ekipajı təslim olmadan döyüşmüş, özlərini həlak etmişdilər. Onların cəsədləri idarə etdikləri tanklarla bərabər Haramı düzündə yanıb külə döndü. Onların valideynləri övladlarının aqibətini öncədən bilsələr də, insanlıq naminə torpağa gömüldüyü yeri də biz nişan veririk.

Yuxarıdakı hərbi xasiyyətnaməmdən göründüyü kimi keçirdiyim çoxsaylı hərbi əməliyyatlar zamanı mən bir erməni kəşfiyyatçısını tutmuşdum. Heç kəsə xəbər vermə-

dən bu əsirdən ermənilərə qarşı istifadə etmək istəyirdim. Sonradan öyrənmişdim ki, bu adam milliyyətcə tatardı. Bizə məlum olan adı Kazımov Əli Şirbala oğludur. Özünün mənə verdiyi məlumata görə, müharibədən əvvəl Ermənistanda hərbi hissələrdən birində baş gizir rütbəsində xidmət etmişdi. Mənim ilə birinci gündən könüllülər taboruna qatılmışdı və mənim taboruma yerləşdirilmişdi. Mən əvvəldən ona etibar etmədiyim üçün heç vaxt onu yaxın buraxmırdım. Çox şübhələndiyim üçün heç bir əməliyyatda ona nə isə tapşırmırdım.

Məndən 5-6 yaş böyük olmasına baxmayaraq, fiziki cəhətdən məndən güclü və qıvraq idi. Fikir vermişdim ki, taborda heç kəs onunla yaxınlıq etmir. Əvvəlki əməliyyatlarım zamanı ermənilərin hücumdan xəbər tutduqlarını bildiyim üçün geri çəkilməyə məcbur olmuşdum. Yanvarın 28-dən sonra ermənilərin tank hücumu zamanı mövqelərini tərk edərək geriyə qaçmış 3-cü taborun mövqeyi də mənə tapşırıldı. Az qüvvə ilə yarımmühasirədə olduğumdan, baş qərargahdan əlavə qüvvə tələb etdim. Çünki məndə olan qüvvə ilə 4 km-lik mövqeləri də müdafiə etmək qeyri-mümkün idi. Həm də biz yarımmühasirədə idik. Əsgəri baxımdan da taborda 450 əsgər əvəzinə, 230 əsgər qalmışdı. Bu da təhlükənin olduqca yaxında olduğunu göstərirdi...

**Gecə ilə Prezidentin Xüsusi İdarəsinin rəisi rəhmətlik Ş.Rəhimovun əks-kəşfiyyat üzrə müavini polkovnik Fuad Mahmudov 5-6 nəfər yüksək rütbəli zabitlə mənim yanıma gəldilər və izah etdilər ki, Ə.Ş.Kazımovu təhvil verməliyəm. Təhvil-təslim zamanı sabiq rabitəçimə münasibətdə özümü saxlaya bilməmişdim.**

**Ş.Həbibullayevin söhbətlərindən:**

-Yaxşı yadımdadır. Bu söhbət tam məxfi aparılmışdı. Söhbətdə briqada komandiri polkovnik Cahangir Əliyev, briqada komandirinin müavini mayor Hümbət Əliyev və mənim iştirakımla keçirilən iclasda qaçmış taborun əsgərlərindən etibar etdiyim əsgərləri və ağır silahlardan istədiyim qədər seçib, müdafiəni təşkil etmək mənə tapşırıldı. Axşam saat 5 radələrində həmin tapşırıq həyata keçirildi.

Tapşırığı yerinə yetirdikdən sonra öz qərargahıma gəldim. Tapşırığa əsasən götürdüyüm silahları və canlı qüvvəni 5-6 dəfə şişirdərək, iclasda Ə.Ş.Kazımovun və tabor komandirlərinin iştirakı ilə bu haqda məlumat verdim. Həqiqi rəqəmləri isə mən və Mübariz Baxşıyev bilirdik. Şişirtmə rəqəmlər Əli Kazımovun ermənilərə ötürməsi üçün verilirdi. Mən əlavə əmr verdim ki, bölük komandirləri yalnız mənimlə rabitə əlaqəsi saxlaya bilərlər. Mən şişirdilmiş rəqəmlər yazılmış vərəqi guya yadımdan çıxmış kimi ştabda qoyub getdim ki, Kazımov götürüb ermənilərə məlumat versin. Özüm isə səhər saat 8-ə qədər ön mövqelərdə oldum.

Səhəri gün briqada komandiri müavini Hümbət Əliyevi və məni yanına çağıraraq üçümüzdən birinin erməni kəşfiyyatçısı olduğumuzu bildirdi. Niyəsini soruşduqda dedi ki, gecə saat 3-də briqadanın rabitəçiləri tərəfindən ermənilərə ötürülən şişirdilmiş məlumatı bizə oxudular və bu məlumatın 181-ci briqadanın altı taborundan biri tərəfindən ermənilərə ötürüldüyünü dedilər.

Mən gülərək ermənini öz aranızda axtarın dedim və icazə alıb qərargahıma qayıtdım.

Geri dönərkən artıq hər şey mənə məlum idi. Məlumat üçün onu da bildirirəm ki, Ə.Ş.Kazımovun briqada rabitəçisi işləmək əmri briqada komandiri tərəfindən verilmişdir. Əmri icra etməməyə səlahiyyətim çatmırdı. Qərargaha qayıdan kimi Ə.Ş.Kazımovun çox çətinliklə əl-ayğını bağlayıb həbs etdim.

Əsirdən əsl həqiqətləri, satqınçılığının səbəblərini öyrənmək üçün mən fiziki və psixoloji təzyiq metodlarından istifadə edirdim.

Bu şəkildə ondan erməni tərəfdə olan bir qisim çox vacib hərbi sirləri də öyrənə bildim. Gecə vaxtı saat 12 radələrində mən onu dindirən zaman briqadanın kəşfiyyat bölüyünün komandiri mənim qərargahıma gəldi. Bu vaxt mən taburetkada oturub Ə.Ş.Kazımovla bəzi məlumatları dəqiqləşdirirdim. Maşının işığında bu səhnəni görən komandir mənim həbs etdiyim Ə.Ş.Kazımovu görərək, onu təcili briqadaya təhvil verməyimi tələb etdi. Mən Ə.Ş.Kazımovu vermək istəmədiyimi və bu sirri gizli saxlamağı ondan xahiş etdim. O, mənə heç kəsə bu haqda deməyəcəyinə, söz versə də, məlumatı məndən ayrılandan sonra dərhal briqada komandirinə çatdırmışdı.

**Gecə ilə Prezidentin Xüsusi İdarəsinin rəisi rəhmətlik Ş.Rəhimovun əks-kəşfiyyat üzrə müavini polkovnik Fuad Mahmudov 5-6 nəfər yüksək rütbəli zabitlə mənim yanıma gəldilər və izah etdilər ki, Ə.Ş.Kazımovu təhvil verməliyəm. Təhvil-təslim zamanı sabiq rabitəçimə münasibətdə özümü saxlaya bilməmişdim. Çörəyini yediyi vətənə xəyanət edən, erməni kəşfiyyatçısı, satqın Ə.Ş.Kazımovla son dəfə vidalaşanda onun üz-çözü qan içində idi. Layiq olduğu yüksək cəza hələ onu gözləyirdi.**

Briqada komandiri C.Əliyev mənimlə rabitə əlaqəsi saxlayaraq - Ə.Ş.Kazımovu ona təhvil verməyimi tələb etdi və əks-halda həbs olunacağım ilə məni hədələdi.

Mən komandir C.Əliyevin mənimlə danışdığı tonda Ə.Ş.Kazımovu briqadaya təhvil verməyəcəyimi bildirdim. Bu söhbətdən sonra onunla bizim münasibətlərimizdə dərin bir uçurum yarandı. Bilirdim ki, müharibə şəraiti üçün belə hərəkətlər nizamnamədənkənar və təhlükəlidir. Bununla belə, hadisələrin sonrakı inkişafı təsdiqlədi ki, mən qərarımda yanılmamışam.

Gecə ilə Prezidentin Xüsusi İdarəsinin rəisi rəhmətlik Ş.Rəhimovun əks-kəşfiyyat üzrə müavini polkovnik Fuad Mahmudov 5-6 nəfər yüksək rütbəli zabitlə mənim yanıma gəldilər və izah etdilər ki, Ə.Ş.Kazımovu təhvil verməliyəm. Təhvil-təslim zamanı sabiq rabitəçimə münasibətdə özümü saxlaya bilməmişdim.

Çörəyini yediyi vətənə xəyanət edən, erməni kəşfiyyatçısı, satqın Ə.Ş.Kazımovla son dəfə vidalaşanda onun üzçözü qan içində idi. Layiq olduğu yüksək cəza hələ onu gözləyirdi. Qəhrəman döyüşçülərimizi qanına qəltan etməklə, içəridən igid oğullarımıza arxadan zərbə endirməklə, o, bu haqqı qazanmışdı.

Ə.Ş.Kazımovun ifşasından 2 gün sonra ermənilər təkidlə öz əsirlərini geri qaytarmağımı istəyirdilər. Bunun müqabilində istənilən şərtə razı olduqlarını da bildirmişdilər. Vəziyyətimlə tanış olan Xüsusi İdarə mənim və yarım mühasirədə olan taborumun təhlükəsizliyini təmin etmək üçün adekvat tədbirlər görməyə başladılar.

Ə.Kazımovu təhvil verdikdən 2 həftə sonra Prezidentin Xüsusi İdarəsinə çağrıldım. Mənə Kazımov və onunla Yerevanda bir stol arxasında yeyib-içən 7-8 nəfərin şəklini

təqdim etdilər. Onların hal-hazırda Azərbaycanda kəşfiyyatla məşğul olduqlarını dedilər. Həmin adamları cəbhə bölgəsində və digər yerlərdə mənə rast gəldiyi təqdirdə həbs etməyimə icazə verdilər.



**1994-cü il.** 181-ci briqadanın 6-cı tabor qəhrəman döyüşçüləri

## SUİ-QƏSD

**Müharibə** - fövqəladə və ekstremal şəraitə malik hərbi proses, gözlənilməz hadisələrlə zəngin iş rejimidir. Bütün taktiki gedişlər öncə hərbi xəritə üzərində qurulur, təsdiqləndikdən sonra icra edilməyə viza alırdı.

Yerləşdiyimiz mövqeyə hərbi xəritədən baxanda göründüyü kimi, bizim briqadanın 5 taboru Surət Hüseynovun nəzarətində, 704-cü briqada isə Əlikram Hümbətovun tabeliyində idi. Əlikram Hümbətovun briqadası sağ cinahımda yerləşirdi. Sol cinahımda isə 777-ci alay mövqe tutmuşdu. Onun da komandiri polkovnik-leytenant Rövşən Əkbərov idi.

Hazırda Rövşən Əkbərov general-leytnat rütbəsindədir.

Bir gün mənə qismən yaxın olan tabor komandirlərindən biri xəbər vermişdi ki, yaxın günlərdə sənə sui-qəsd hazırlanır, ehtiyatlı ol. Soruşanda ki, informasiya hansı mənbədəndir. O, dedi ki, bu məlumatı mənə taborumun bir nəfər zabiti bildirmişdir.

Bir müddət əvvəl isə eyni məlumatı mənə yaralı əsgərim, tabor komandirimiz Saleh Həsənov da vermişdi. S.Həsənov 6-cı taborun komandiri

**Yanvarın 7-si, Bəytəpə əməliyyatından sonra olduğumuz mövqedə gündüz 3-4 radələrində, sol cinahda yerləşən III bölükdən başlayaraq yoxlama aparmağa başladım. II bölüyün arxasına çatdığım zaman 400-500 metrlik məsafədən rəhbərlik etdiyim taborun 3-cü bölüyü tərəfindən güllə-borana tutuldum. Təsadüfən mənə güllə dəymədi**

olub və I Bəytəpə əməliyyatında ağır yaralanaraq əlil olmuşdur.

Yanvarın 7-si, Bəytəpə əməliyyatından sonra olduğumuz mövqedə gündüz 3-4 radələrində, sol cinahda yerləşən III bölükdən başlayaraq yoxlama aparmağa başladım. II bölüyün arxasına çatdığım zaman 400-500 metrlik məsafədən rəhbərlik etdiyim taborun 3-cü bölüyü tərəfindən güllə-borana tutuldum. Təsadüfən mənə güllə dəymədi. Qaranlıq qovuşana qədər uzandığım çökəkdən tərpənmədim. İnanmasam da, deyilənə tam əmin oldum və mənə verilən məlumatlar öz təsdiqini tapdı.



**İşğal edilmiş Əsgəran qalası**



**1994-cü il.** 181-ci briqadanın 6-cı tabor qəhrəman döyüşçüləri

Bu məsələdə bir neçə məqama da aydınlıq gətirməliyəm. Həmin gün hava soyuq olduğuna görə əynimdə ermənilərdən götürdüyüm qara rəngli gödək tankçı kambinzonu var idi. Mən çox hərəkətdə olduğum üçün o kambinzonu nadir hallarda geyinirdim. Taborda məndən başqa heç kəsdə həmin kambinzondan yox idi. Bunu çoxları bilirdi və Bəytəpə əməliyyatında uğur qazanmağımız görünür, bəzilərinin ürəyincə deyilmiş.

Sui-qəsddən sonra həmin kombinzonu qərargaha atdım və digər yoldaşlarımızın da onu geyinməyini qadağan etdim. Çünki kambinzon geyinəni mənimlə səhv salıb öldürə bilərdillər.

Sui-qəsd barədə yalnız 3-cü bölüyün komandiri Mübariz Baxşıyevə məlumat verdim. Fiziki cəhətdən məni aradan götürmək planı örtülü oyunların gedişatından

xəbər verirdi. Görünür mən kiməsə güclü mane olurdum. Bu nigarançılıq özünü çox gözlətmədi. Orduda yüksək vəzifə tutan bir zabitin mənimlə görüşmək istədiyini xəbər verdilər.

Vəziyyəti nəzərə alaraq, həmin adamın mənimlə görüşməyinə razılıq verdim. O, mənə qonşu 704-cü briqada və 181-ci briqadanın 5 taborunda olan bütün döyüş sursatını və əsgərləri müharibə meydanından çıxardaraq, dövlət çevrilişi niyətilə Bakıya hücuma hazırlaşmağı təklif etdi. Onu da bildirdi ki, səni özümüzə ağsaqqal və komandir seçmək razılığına gəlmişik.

Vəzifəli zabitin bu barədə məhz mənə müraciət etməsi təəccübümə səbəb olsa da, bunu xüsusi xidmət orqanlarının məxfi yoxlanışı kimi də bir anlığa xəyalımdan keçirdim.

**Vəziyyəti nəzərə alaraq, həmin adamın mənimlə görüşməyinə razılıq verdim. O, mənə qonşu 704-cü briqada və 181-ci briqadanın 5 taborunda olan bütün döyüş sursatını və əsgərləri müharibə meydanından çıxardaraq, dövlət çevrilişi niyətilə Bakıya hücuma hazırlaşmağı təklif etdi.**

**Onu da bildirdi ki, səni özümüzə ağsaqqal və komandir seçmək razılığına gəlmişik.**

Digər tərəfdən, yüksək rütbəli hərbçilərin gizli təşkilatının mövcudluğu versiyasını da diqqətdən qaçırmaq olmazdı. Onlar nümayəndələrini göndərməklə mənim mövqeyimi bilmək istəyirdilər. Görünür, mənim mövqeyim onların gizli planları üçün vacib və həlledici idi.

Mövqeyim çox lakonik və sərt oldu. **Ona dedim:** *"Bu gün hakimiyyətdə Ə.Elçibəy deyil, H.Əliyevdir. Bu reallığı səni bura göndərənlər dərk etməlidir. Əgər bu fikirinizdən daşınmasanız, mən*

*özüm taborumla sizə qarşı vuruşacağam. Get bunu səni bura göndərənlərə də çatdır."*

Daxildən olan xəyanət erməni təcavüzündən də ağırdır. İtkilərimizdə daxili xəyanətin rolunu kiçiltmək, ört-basdır etmək gələcəyimiz üçün də təhlükəlidir.

**Böyük satirik şairimiz Sabir necə də uzaqgörənliklə söyləmişdir:** *"Çalxalandıqca, duruldaqca zaman nehrə kimi, yağı yağ üstə çıxar, ayranı ayranlıq olar."*

O ağır döyüşlərdə şəhidlərimiz də oldu, yaralananlarımız da. Bir sözlə, onu deyə bilərəm ki, müharibədə iştirak etdiyim andan şəxsi gündəliyim olub. Hər bir anı və hər bir döyüşçünün keçdiyi yolu orada tam dəqiqliyi ilə qeyd etmişəm...



**1994-cü il.** 181-ci briqadanın 6-cı taborun qəhrəman igidlərini uğurlu döyüşləri



**İşğal edilmiş ŞUŞA qalası**

Nə qədər  ağır olsa da, itkilərimiz barədə də məlumat verməyi zəruri hesab edirəm. O zaman mənimlə birlikdə döyüşən və canlarını vətən yolunda fəda etmiş, şəhid olmuş 43 döyüşçümüzün və yaralı əsgərlərimizin siyahısını sizə təqdim edirəm.

Bu igid oğullarımızın adları ilə hər bir Azərbaycan vətəndaşı, onların valideynləri və övladları fəxr edə, qürur hissi keçirə bilərlər."

# 1994-CÜ İL

## 181-Cİ BRİQADANIN 6-CI TABORUNUN QƏHRƏMAN DÖYÜŞÇÜLƏRİ





**1994-cü il.** 181-ci briqadanın 6-cı taborunun qəhrəman döyüşçüləri





**1994-cü il.** 181-ci briqadanın 6-cı taborunun qəhrəman döyüşçüləri





**1994-cü il.** 181-ci briqadanın 6-cı taborunun qəhrəman döyüşçüləri





**1994-cü il.** 181-ci briqadanın 6-cı taborunun qəhrəman döyüşçüləri





**1994-cü il.** 181-ci briqadanın 6-cı taborunun qəhrəman döyüşçüləri





**1994-cü il.** 181-ci briqadanın 6-cı taborunun qəhrəman döyüşçüləri





**1994-cü il.** 181-ci briqadanın 6-cı taborunun qəhrəman döyüşçüləri





**1994-cü il.** 181-ci briqadanın 6-cı taborunun qəhrəman döyüşçüləri





**1994-cü il.** 181-ci briqadanın 6-cı taborunun qəhrəman döyüşçüləri





**1994-cü il.** 181-ci briqadanın 6-cı taborunun qəhrəman döyüşçüləri





**1994-cü il.** 181-ci briqadanın 6-cı taborunun qəhrəman döyüşçüləri



**1994-cü il.** 181-ci briqadanın 6-cı taborunun qəhrəman döyüşçüləri





**1994-cü il.** 181-ci briqadanın 6-cı taborunun qəhrəman döyüşçüləri





**1994-cü il.** 181-ci briqadanın 6-cı taborunun qəhrəman döyüşçüləri






**181-ci briqadanın 6-cı taborunun qəhrəman oğullarının döyüş xəritəsi**

# 181-ci BRİQADA 6-CI BATALYONUN 1993-1994-CÜ İLLƏRDƏ ŞƏHİD ZABİT VƏ ƏSGƏR HEYƏTİNİN SİYASI

| | |
|---|---|
| **1.** Həsənov Yavər Murtuz oğlu | 07.01.1994 |
| **2.** Feyzullayev Tahir Əsəd oğlu | 07.01.1994 |
| **3.** Şıxaliyev Rahim Arif oğlu | 07.01.1994 |
| **4.** Cəfərov Bahadur Bulud oğlu | 07.01.1994 |
| **5.** Ağayev Arzuman Məhərrəm oğlu | 07.01.1994 |
| **6.** Ağayev Mehman Atabəy oğlu | 07.01.1994 |
| **7.** Dünyamalıyev Ələddin Müseyib oğlu | 07.01.1994 |
| **8.** Ərzicxanov Səfixan Sultan oğlu | 07.01.1994 |
| **9.** Səfərov Məhəbbət Xeti oğlu | 07.01.1994 |
| **10.**Qurbanov Elçin Çərkəz oğlu | 07.01.1994 |
| **11.**Azayev Caviddin Zöhrabbəy oğlu | 07.01.1994 |
| **12.**Məmmədov Haqverdi Fəxrəddin oğlu | 07.01.1994 |
| **13.**Qədirov Şahin Məmməd oğu | 08.01.1994 |
| **14.**Babayev Litvin Mamed oğlu | 09.01.1994 |
| **15.**Yusifov Etibar Nəriman oğlu | 12.01.1994 |
| **16.**Məmmədov Məmməd Mirzəli oğlu | 12.01.1994 |
| **17.**Həmidov Rovzi Ağaəli oğlu | 13.01.1994 |
| **18.**Əliyev Natiq Süleyman oğlu | 26.01.1994 |
| **19.**Həsənov Elxan Bədrəddin oğlu | 27.01.1994 |
| **20.**Nəcəfov Bəxtiyar Əjdər oğlu | 27.01.1994 |
| **21.**Bağırov Firdovsi Murad oğlu | 27.01.1994 |
| **22.**Məmmədov Baloğlan Əlövsət oğlu | 28.011994 |
| **23.**Əliyev Cəmaləddin Saleh oğlu | 28.01.1994 |
| **24.**Musayev Murman Həmzə oğlu | 28.01.1994 |
| **25.**İsmayılov Səməd İbrahim oğlu | 28.01.1994 |
| **26.**Vəliyev Heydər Babalı oğlu | 28.01.1994 |
| **27.**Sucayev Hikmət Şalı oğlu | 28.01.1994 |

| | |
|---|---|
| **28.**Abbasov Elşən Tamraz oğlu | 28.01.1994 |
| **29.**Əhmədov Nəsimi Əhməd oğlu | 28.01.1994 |
| **30.**Yusubov Altay Əlibala oğlu | 28.01.1994 |
| **31.**Ağayev Fikrət Səftər oğlu | 28.01.1994 |
| **32.**Qurbanov Bəhruz Kərəmət oğlu | 28.01.1994 |
| **33.**Həsənov Salman Rza oğlu | 28.01.1994 |
| **34.**Eyyub Vüqar Ələsgər oğlu | 28.01.1994 |
| **35.**Quliyev Ataş Həzioğlu | 06.02.1994 |
| **36.**Qasımov Ceyhun İsa oğlu | 08.02.1994 |
| **37.**Rəhimov Mehdi Namətdin oğlu | 04.03.1994 |
| **38.**Məmmədov Mövlud Yasin oğlu | 05.03.1994 |
| **39.**Nağıyev Telman Ağahüseyn oğlu | 19.03.1994 |
| **40.**Gülmməmədov Lətif Şəmistan oğlu | 23.03.1994 |
| **41.**Quliyev Ramiz İsmayıl oğlu | 16.04.1994 |
| **42.**Əhədov Elxan Yəhya oğlu | 16.09.1994 |
| **43.**Ağayev İslam Tapdıq oğlu | - |

## YARALANMIŞ ZABİT VƏ ƏSGƏRLƏRİMİZİN SİYAHISI

| | |
|---|---|
| **01.**Abıyev Səftər İxtiyar oğlu | 04.01.1994 |
| **02.**Adıgözəlov Şakir Kamandar oğlu | 04.01.1994 |
| **03.**Kazımov Duman Hətəm oğlu | 04.01.1994 |
| **04.**Bayramov Natiq İlyas oğlu | 04.01.1994 |
| **05.** Həsənov Saleh Hüseyn oğlu | 07. 01.1994 |
| **06.** Əliyev Mətləb Məmmədtahir oğlu | 07.01.1994 |
| **07.** Bünyadov Baxış Əlövsət oğlu | 07.01.1994 |
| **08.**Ələkbərov Ələkbər Bala oğlu | 07.01.1994 |
| **09.**Hacıyev Elburus Əhmədiyyə oğlu | 07.01.1994 |
| **10.**Yusifov Akif Camaləddin oğlu | 07.01.1994 |
| **11.**Rüstəmov Mahir Rüstəm oğlu | 07.01.1994 |

| | |
|---|---|
| **12.**Abbasov Firudin Mənsim oğlu | 07.01.1994 |
| **13.**Miriyev Xudayar Həmid oğlu | 07.01.1994 |
| **14.**Sultanov Lətif Kərəm oğlu | 07.01.1994 |
| **15.**Mailov Rəfael Məhərrəm oğlu | 07.01.1994 |
| **16.**Ələsgərov Azər Təhməz oğlu | 07.01.1994 |
| **17.**Əlibəyov Rəşid Abdulla oğlu | 07.01.1994 |
| **19.**Vəliyev Teymur Əmirxan oğlu | 07.01.1994 |
| **20.** Mayılov Saday Cəlil oğlu | 07.01.1994 |
| **21.**Əmirov Bəkir Doluxan oğlu | 07.01.1994 |
| **22.**Məmmədov Mustafa Mahmudağa oğlu | 07.01.1994 |
| **23.**Əliyev Nüsrət Mirzəli oğlu | 07.01.1994 |
| **24.**Zeynalov Güloğlan Abdulhüseyn oğlu | 07.01.1994 |
| **25.**Mixaylov Aleksandr İvanoviç | 07.01.1994 |
| **26.**Miniyev Sergey Anatolyeviç | 07.01.1994 |
| **27.**Novruzov Coşqun Nadir oğlu | 09.01.1994 |
| **28.**Tağıyev Mahmud İnşallah oğlu | 12.01.1994 |
| **29.**Qasımov Faiq Mirzə oğlu | 12.01.1994 |
| **30.** Zeynalov Musahib Nəriman oğlu | 12.01.1994 |
| **31.**Quliyev Mehdi Xanoğlan oğlu | 26.01.1994 |
| **32.** Səfərov Aslan Oruc oğlu | 27.01.1994 |
| **33.**Əmirov Malik Qaraş oğlu | 27.01.1994 |
| **34.**Quliyev Əfqan Musa oğlu | 27.01.1994 |
| **35.**Qurbanov İlqar Xosrov oğlu | 27.01.1994 |
| **36.**Hüseyov Ələkbər Oqtay oğlu | 28.01.1994 |
| **37.**Kərimov Feyzulla Abbas oğlu | 28.01.1994 |
| **38.**Məmmədov Cavad Nurməməd oğlu | 28.01.1994 |
| **39.**Əhmədov Rəşid Həsən oğlu | 28.01.1994 |
| **40.**Məmmədov Nəsimi Səftər oğlu | 01.02.1994 |
| **41.** Hacıyev Rauf Hacıbala oğlu | 08.02.1994 |
| **42.**Dəmirov Cabir Dəmirçi oğlu | 16.02.1994 |
| **43.**Mehrəliyev Sakit Nizam oğlu | 16.02.1994 |

**44.** Babayev Elçin Sabir oğlu 21.02.1994
**45.**Zülfüqarov Murad Müstəqim oğlu 25.02.1994
**46.**Abbasov İkram Cavatxan oğlu 01.03.1994
**47.** Süleymanov Yusif Musa oğlu 07.03.1994
**48.**Qaraxanov Seymur Kərim oğlu 07.03.1994
**49.**Əliyev Əliqismət Səfər oğlu 09.03.1994
**50.**Ağayev Saleh Xanlar oğlu 23.03.1994
**51.**Vəlicanov Şafayət Cəbrayıl oğlu 08.04.1994
**52.**Qaraxanov Nazim Kərim oğlu 10.04.1994
**53.**Kərimov Mehman Bayraməli oğlu 16.04.1994

Allah şəhidlərimizə rəhmət eləsin! Onların ruhu qarşısında baş əyirik! Şəhidlərimizin həyat və mübarizə yolu vətənpərvərlik yoludur. Müstəqil Azərbaycanımız yaşadıqca onların xatirəsi həmişə uca tutulacaqdır.



**1996.** Laçın şəhəri

## ORDUDAN TƏRXİS ETDİLƏR

### Ş.Həbibullayevin söhbətlərindən:

-Atəşkəsə bir ay qalmış mənə məlumat verdilər ki, taborumu hərbi texnika ilə tam təchiz edərək Gəncəyə göndərəcəklər.

Atəşkəsdən 3 gün sonra tənəffüs orqanlarımda problem yarandığına görə Bakıya getmək üçün icazə aldım. Rentgen müayinəsi nəticəsində məlum oldu ki, qabırğalarımın arasından keçən qəlpə ağciyərimin bir hissəsini zədələmişdir.

Haşiyə çıxaraq bildirmək istəyirəm ki, bundan 2-3 ay əvvəl isə Beyləqanda hospitalında yatmadan qabırğalarıma ilişib qalmış iki qəlpə cərrahiyyə yolu ilə çıxarılmışdı.

Düzü, yatmağa vaxt da yox idi. Çünki taborun bütün ağırlığı mənim üzərimə düşürdü. İndi isə üçüncü qəlpə ilə bağlı həkimlərin qərarı qəti oldu. Bununla da məni təcili hospitala götürdülər və ağır cərrahi əməliyyat keçirdim.

Müalicəmi tam başa çatdırdıqdan sonra məni II qrup müharibə əlili kimi ordudan tərxis etdilər.

Təəssüf ki, öncədən planlaşdırılmış Gəncə şəhərinə göndərişim baş tutmadı.

**Düzü, yatmağa vaxt da yox idi. Çünki taborun bütün ağırlığı mənim üzərimə düşürdü. İndi isə üçüncü qəlpə ilə bağlı həkimlərin qərarı qəti oldu. Bununla da məni təcili hospitala götürdülər və ağır cərrahi əməliyyat keçirdim.**

**Müalicəmi tam başa çatdırdıqdan sonra məni II qrup müharibə əlili kimi ordudan tərxis etdilər.**

## "AZƏRBAYCAN BAYRAĞI" ORDENİNƏ LAYİQ GÖRÜLDÜ"

Öncə qeyd etdiyimiz kimi, 1994-cü ilin mart ayında onun sayıqlığı və xidməti vəzifəsini məsuliyyətlə yerinə yetirməsi nəticəsində bir düşmən kəşfiyyatçısı tutularaq zərərsizləşdirilmişdi. Buna görə də o, Müdafiə Nazirliyinin pul mükafatına layiq görülmüş, hərbi rütbəsi vaxtından əvvəl artırılmışdı.

Döyüş əməliyyatlarında göstərdiyi şücaət və igidliyə görə **Ş.Həbibullayev 1994-cü il oktyabrın 9-da Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin fərmanı ilə "Azərbaycan bayrağı" ordeninə** layiq görülmüşdür.

Ş.Həbibullayev istedadlı təşkilatçı, bacarıqlı kollektiv rəhbəri olduğu kimi, həm də nümunəvi ailə başçısıdır. İki övladını - Şahin və İlqarı vətənpərvərlik ruhunda böyüdüb tərbiyə etmişdir.

Övladlarını müharibənin qızğın vaxtında cəbhə bölgəsinə aparmışdır. İndi də söz düşəndə Şahidin azyaşlı oğullarını döyüş bölgəsinə necə aparması, döyüşçülərlə, müharibə şəraiti ilə necə tanış etməsi fərəh hissi ilə xatırlanır. Sözdən çox əmələ üstünlük verən vətənpərvər atanın bu hərəkəti ibrətamiz və təkrarsız tərbiyə metodu idi. O, oğullarına cəbhədən xatirələr danışmadı. Cəbhəni olduğu kimi onlara göstərdi.

## MÜQƏDDƏS TORPAĞIMIZI XİLAS ETMƏLİYİK

Təbiətin min bir fəlakətini, yağı düşmənlərin ingəncə və zülmünü, nankor adamların əzab və möhnətini görüb **QARABAĞ!**

Ancaq sarsılmayıb, qəddini, qamətini əyməyib, başını dik tutub **QARABAĞ**! Ülvi niyyətlərlə, xoş amallarla gələcək səadətinə nikbinliklə baxıb.

İndi **QARABAĞ** düşmənin amansız qəddarlığının qurbanı olmaqla, həmişə süfrəmizin artıqları ilə qidalanan nankor və hiyləgər qonşularımızın işgəncələri və murdar tapdağı altındadır. Bəs Ağaməhəmməd şah Qacar kimi əzəmətli bir sərkərdənin qabağında sarsılmayan Qarabağın bir qrup mənfur ermənilərin tapdağına çevrilməsi necə izah olunur?..

Bu isə hər şeydən əvvəl Şahid Həbibullayevin ifadəsi ilə desək, başsız başçılarımızın xəyanəti idi.

Yiyəsiz qalan evlərin hər biri ilahi haray qoparır, imdad diləyir, öz sakinlərini, torpağının əzəli və əbədi yurddaşlarını gözləyir. Meşəliklərin dərinliklərindən, dağların zirvəsindən qalxaraq, səmanın ənginliklərinə doğru yüksələn, şərəf və ləyaqət simvolumuz olan **QARABAĞI**- müqəddəs torpağımızı xilas etməliyik.

**Qarabağın bir qrup mənfur ermənilərin tapdağına çevrilməsi necə izah olunur?.. Bu isə hər şeydən əvvəl Şahid Həbibullayevin ifadəsi ilə desək, başsız başçılarımızın xəyanəti idi.Yiyəsiz qalan evlərin hər biri ilahı haray qoparır, imdad diləyir, öz sakinlərini, torpağının əzəli və əbədi yurddaşlarını gözləyir.**



**181-ci briqadanın 6-cı taborun qəhrəman döyüşçüləri "Şəhidlər xiyabanı"nda**



## SON DÖYÜŞƏ AZ QALIB



**Şahid Həbibullayevlə son görüşümüzdə o dedi:**

-Ürəyimizdə təpər tapıb, sülh yolu ilə olmasa, tezliklə QARABAĞ uğrunda vuruşa qalxmalıyıq!

**Qurani-Kərimin ayələrinin birində deyilir:** *"Kafirlərə və torpaqlarını işğal edən düşmənlərə qarşı cihada qalxan və cihad zamanı şəhid olanların sorğu-sualsız yerləri cənnətdir"*.

**Digər ayədə isə deyilir:** *"Onlara ölü deməyin, onlar əbədi diridirlər."*

Cihad zamanı əlil olan əsgərlərimə Rəbbimdən səbr, qalan əsgərlərimə can-sağlığı və xoşbəxtlik arzu edirəm. Özümə gəldikdə, Allahın mənə bəxş etdiyi xasiyyətimə görə mənim dərdlərim nə qədər böyük olsa da, Ulu Tanrıma yaxın olduğum zaman heç vaxt ona deməmişəm ki, böyük dərdlərim var, dərdlərimə demişəm ki, Allahım var.

Atəşkəsi pozmalıyıq. Yoxsa gələcək nəsillər bizi bağışlamayacaqdır.



181-ci briqadanın 6-cı taborunun qəhrəman döyüşçüləri "Şəhidlər xiyabanı"nda



**181-ci briqadanın 6-cı taborunun qəhrəman döyüşçüləri Mədəniyyət və Turizm naziri Əbülfəs Qarayevlə cəbhə bölgəsində**

## BAŞ DİREKTOR VƏZİFƏSİNDƏ

Ş.Həbibullayev 1994-cü ildə yaralanıb, II qrup Qarabağ əlili olduğuna görə hərbi xidmətdən tərxis edildi.

Əvvəllər işlədiyi "Şəhərlərarası və Beynəlxalq Daşımalar Birliyi"nə baş direktor vəzifəsinə bərpa olundu.

Şəhərlərarası Sərnişin Daşıma Avtokombinatı yenidən 8 iri nəqliyyat müəssisəsi ilə birləşdirilərək işçilərinin sayı 12 mindən artıq olan Şəhərlərarası və Beynəlxalq Daşımalar Birliyi yaradıldı.

Müharibədən, döyüşlərdən uzaqlaşan Ş.Həbibullayev əslində mübarizə strategiyasını dəyişdi. O, mədəni cəbhəyə, milli dəyərlərimizin müdafiəsinə qoşuldu.

Ş.Həbibullayev mənfur ermənilərin bir çox hallarda mədəniyyətimizə, milli dəyərlərimizə, tariximizə, adət-ənənələrimizə müdaxilə edərək, onları özününküləşdirmə siyasətinə qarşı çıxaraq əməli tədbirlər həyata keçirməyə başlayır.

Milli dəyərlərimizin, məişət və mətbəx mədəniyyətimizin, cismani və **mənəvi paklığımızın yüksəkliyini əyani sübuta yetirən misgərlik sənət nümunələri kolleksiyasını yaratmağa başlamaqla,** Ş.Həbibullayev bu işi vətən və xalq qarşısında bir övladlıq borcu sayır. O, hesab edir ki, hər bir Azərbaycan vətəndaşı öz xalqının zəngin mədəni keçmişini bilməli, bu işə qayğı ilə yanaşmalıdır.



**1995.** 181-ci briqadanın 6-cı taborunun qəhrəman döyüşçüləri Mədəniyyət və Turizm naziri Əbülfəs Qarayevlə cəbhə bölgəsində



## Ş.HƏBİBULLAYEVİN ŞƏXSİ KOLLEKSİYASI

**Şahid Həbibullayev kolleksiyasına baxmağa gələnlərə deyir:** *"Biz necə zəngin mədəniyyətə malik yaradıcı xalq olduğumuzu ölkəmizin qonaqlarına, dünyanın digər xalqlarına da təqdim etməyi bacarmalıyıq".*

Bu gün Azərbaycanda milli-mənəvi dəyərlərimizin qorunub saxlanması və onların dünya səviyyəsində təbliq edilməsi məqsədilə Ş.Həbibullayevə məxsus kolleksiyanın eksponatları aşağıdakı nüfuzlu beynəlxalq sərgilərdə nümayiş etdirilmiş və böyük uğur qazanmışdır.



**BAKI.** NOBEL irsi fondunun sədri Toğrul Bağırov,Toğrul Nərimanbəyov, Rəssamlar ittifaqının sədri Fərhad Xəlilov, Rusiyanın Azərbaycandakı səfiri Dorokin Vladimir Dmitriyeviç, ŞahidHəbibullayev, Azərbaycan Yazıçılar ittifaqının sədr müavivini Çingiz Abdullayev



**Xarici qonaqlar da Ş.Həbibullayevin kolleksiyasına baxmağa gəlirlər**.İngilis yazıçısı Ben İlls



1. **14-21 oktyabr 2006-cı il** - Parisdə YUNESKO qərargahında Azərbaycan Günü "Azərbaycan sivilizasiyasının və mədəniyyətin kəsişmə nöqtəsi" adlı tədbirdə;

2. **3-5 mart 2008-ci il** - Mərakeş krallığında İSESKO-nun iqamətgahında maddi-mədəniyyət nümunələrinə həsr olunmuş "Azərbaycan Günü" tədbirində;

3. **19 mart 2008-ci il.** "Şirvanşahlar Saray-Kompleksi" Dövlət tarixi-memarlıq qoruq muzeyində təşkil edilən "Ulu keçmişimizdən bu günümüzə yadigar qalan tətbiqi-sənət nümunələri" sərgisi;

4. **2 oktyabr 2008-ci il.** "Qala" Dövlət Tarixi-Etnoqrafiya qoruğu ərazisində təşkil olunmuş tədbirdə;

5. **9-12 noyabr 2008-ci il.** Tacikistan Respublikasında Azərbaycan Mədəniyyəti Günlərində təşkil edilmiş sərgi;

6. **2-3 dekabr 2008-ci il.** "Gülüstan" sarayında Avropa Şurasına üzv dövlətlərin mədəniyyət nazirlərinin görüşündə maddi-mədəniyyət nümunələrinin sərgisində;

7. **19 mart 2009-cu il.** "Novruz bayramı" ərəfəsində İçərişəhərdə genişmiqyaslı bayram tədbirlərinin keçirilməsi ilə əlaqədar əntiq əşyaların nümayişi;



**Ş.Həbibullayevin kolleksiyasına baxmağa gələn xarici qonaqlar**

**8. 13-22 sentyabr 2009-cu il**. "Əsrin müqaviləsi"nin 15-ci ildönümü və Nobel qardaşlarının Azərbaycanda fəaliyyətinin 130 illiyi ilə əlaqədar Muzey Mərkəzi binasında təşkil olunan sərgi;

**9. 13-15 oktyabr 2009-cu il.** "Gülüstan" sarayında İslam konfransı Təşkilatına üzv olan dövlətlərin Mədəniyyət Nazirlərinin 6-cı konfransı, Türksoyun Mədəniyyət Nazirləri şurasının 26-cı konfransı zamanı keçirilən sərgi;

**10. 28-30 oktyabr 2009-cu il.** Misir Ərəb Respublikasında Azərbaycan Mədəniyyəti Günləri tədbirində keçirilən sərgi...

***

Ş.Həbibullayev bu tədbirin təşkilatçılarına, YUNESKO və İSESKO-nun Xoşməramlı Səfiri, H.Əliyev Fondunun prezidenti, Milli məclisin deputatı, hörmətli Mehriban xanım Əliyevaya və Mədəniyyət və Turizm naziri Əbülfəs Qarayevə minnətdarlığını bildirir.

Ş.Həbibullayevin kolleksiyasına Azərbaycanın sənət dünyası ilə bağlı, bizim e.ə. V-VII və eramızın XV-XIX əsrlərinə aid bərpa olunmuş 800-dən artıq mis məişət və bəzək əşyaları,

**Rusiya, Polşa, Almaniya istehsalı olan XVII-XIX əsrə aid bərpa olunmuş 999 ədəd samovar,**

İngiltərə, Almaniya, Rusiya, Polşa istehsalı olan



**Ş.Həbibullayev, Lüdviq Nobelin nəticəsi Günnaz Lilikvist və Almaniya Neft-Qaz sənayesinin MDB üzrə koordinatoru Maykl Josef Nosiadek**



**XVII-XIX əsrə aid stolüstü, asma və yaylı tərəzilər,**
Almaniya istehsalı olan **XVIII-XIX əsrə aid qəndillər və stolüstü lampalar,**
Fransa istehsalı olan **XIX əsrə aid stolüstü saat,**
**XIX əsrə aid çarx oxunda "Sankt-Peterburq L.Nobel" sözləri həkk olunmuş fayton**
və başqa əntiq əşyalar daxildir.

Ş.Həbibullayev çiyinlərini müəyyən zaman kəsiyində buraxılmış ağır tarixi səhvlərin altına verməklə ulu tariximizin yenidən "emalı" ilə deyil, "bərpası" ilə məşğul olur. Yenidən nəyisə qurmaq, yaratmaq daha asandır, nəinki köhnənin bərpası... Bu isə, əslində, öz tariximizin bərpası, bir az da dərindən düşünsək, xalqın keçmiş həyat tərzinin, yaşayışının və mədəniyyət səviyyəsinin bərpası deməkdir.

Gördüyü işə bütün varlığı ilə yanaşan kolleksiya sahibi hər bir qab nümunəsinin üzərində keçmiş nəsillərin zəkasını, mənəviyyatını və sənətə böyük məsuliyyətlə yanaşdıqlarını görür.

Misgərin polad ucluqlu qələmi ilə həkk olunmuş nəbati və

**.Həbibullayev çiyinlərini müəyyən zaman kəsiyində buraxılmış ağır tarixi səhvlərin altına verməklə ulu tariximizin yenidən "emalı" ilə deyil, "bərpası" ilə məşğul olur. Yenidən nəyisə qurmaq, yaratmaq daha asandır, nəinki köhnənin bərpası...**

**Bu isə, əslində, öz tariximizin bərpası, bir az da dərindən düşünsək, xalqın keçmiş həyat tərzinin, yaşayışının və mədəniyyət səviyyəsinin bərpası deməkdir.**



Lüdviq Nobelin nəticəsi Günnaz Lilikvist və Ş.Həbibullayev



Ş.Həbibullayev və Alfred Nobelin nəticəsi Maykl Nobel

həndəsi naxışlarda aydın görünən Qurani-Kərimdən ayələr, Allah, Peyğəmbər və digər müqəddəslərin adları, didaktik kəlamlar, döyüş və ov səhnələri, sevgililərin vüsal süjetləri ilə tanış olduqca, insan bu qədim sənətin sehri ilə yeni bir aləmə düşür. Təkcə bu inciləri yaratmış ustaların deyil, bütövlükdə xalqın böyük bir zaman ərzində mənəviyyat dünyasını asanlıqla dərk edir.

Bu gözoxşayan nadir eksponatlara baxdıqca-baxır, onlardan göz çəkə bilmirsən. Heç şübhəsiz ki, **bu eksponatların hər biri orijinal sənət əsəridir.**

Başladığı işin milli incəsənətimizin şöhrətlənməsində müstəsna əhəmiyyətini yaxşı dərk edən Ş.Həbibullayev eksponatların bərpasına peşəkar misgərləri, bərpaçıları, sənətşünasları, tarixçiləri, alimləri cəlb etmişdir.

Eksponatlarla tanış olarkən iftixar hissi keçirirsən ki, Azərbaycanın misgərlik sənəti təkcə sənətkarlıq baxımından deyil, həm də məzmun, məna, həyata fəlsəfi baxış sarıdan da güclü və üstündür. Kolleksiyada belə nümunələr çoxsaylıdır və onların hər birinin məna tutumunu təhlil etməkdən ötrü illər gərəkdir.

İnanırıq ki, kolleksiya yeni elmi araşdırmaların önündə "yaşıl işıq" yandıraraq, Azərbaycan məişət və mətbəx mədəniyyətinin əyani şahidi olan misgərlik peşə sənətinin qaranlıq səhifələrinə işıq salmaqla əvəzsiz rol oynayacaqdır.

Son dərəcə müqəddəs, şərəfli və ağır yaradıcılıq axtarışlarında Şahid Həbibullayevə uğurlar arzulayırıq.

Xalqımızın sevimli şairi İlyas Tapdığın ona həsr etdiyi lirik duyğular selindən bir parçanı Qarabağımızı və onun uğrunda döyüşmüş ərənlərimizi sevən bütün oxuculara ünvanlayırıq:

**AY ŞAHİD**

Başın üstdən ölüm ötdü nə qədər,
Saçlarına daraq çəkdi güllələr...
Öz oğlundur, övladındır hər əsgər,
O səngərlər ziyarətdir, ay Şahid!

Keçdi ömür, dərd ürəyə saldı dən,
Kaş,çəkilsin başımızdan duman, çən...
Sənin kimi oğlu xalqa sevdirən -
Göstərdiyi şücaətdir, ay Şahid!

Şahid Həbubullayevin mübarizələrlə zəngin həyatından, mənalı və qeyri-adi ömür yolundan ictimai həyatından neçə-neçə kitablar yazmaq, sənədli filmlər çəkmək olar. Onun coşğun vətənpərvərliyi, yorulmaz zəhmətsevərliliyi, xeyirxahlığı, milli-mənəvi dəyərlərimizə sevgisi və qayğısı, insanlara xoş məramı, həssas münasibəti bu qənaətə gəlməyə kifayət qədər əsas verir.

## SÖZ ARDI

**Möhtərəm oxucu!**

Dolğun, mənalı, şərəfli, eyni zamanda təlatümlü, qabarmalar və çəkilmələrlə zəngin ömür yolu keçən, həyatını müqəddəs saydığı idealına - millətinə və vətəninə həsr edən, dünya şöhrətli kolleksiyaçı Şahid Həbibullayevin tale salnaməsini Sizinlə bərabər səhifələdik. Burada sadə və işgüzar həyat tərzi, azad, inadkar və xeyirxah xüsusiyyətləri ilə tanınan bir ailədə dünyaya gələn, kənd mühitinin saflığı, duruluğu və acı həqiqətləri içərisində böyüyən, formalaşan Şahidin təhsil illəri, əmək fəaliyyəti, çətinliklərə doğru ilk addımları, vəzifə pillələri ilə irəliləməsi, mövcud rejimin yaratdığı haqsızlığa və ədalətsizliyə qarşı mübarizəsi, məşəqqətli həbsxana həyatı, Qarabağ müharibəsinin yaratdığı fəsadların aradan qaldırılması yolunda əzablı aylar və yuxusuz gecələri, qanlı döyüşlərə atılması, qəhrəmanlıq epizodları, nəhayət, müharibədən sonra Azərbaycanın mədəniyyət incilərinin, tətbiqi incəsənət nümunələrinin, qədim el sənəti örnəklərinin toplanması, bərpası və dünya miqyasında təbliğ edilməsi sahəsindəki xidmətləri ilə tanış oldunuz.

Doğrudur, cəsarətli və fəal mövqeyə dayalı, həyat fırtınalarından qalib çıxmağı ənənəyə çevirən bir şəxsiyyət haqqında yazılmış bu kitabın toxunulmamış mövzuları, ağ buraxılmış səhifələri yazılanlardan daha çox, geniş və əhatəlidir. Bununla belə bu yığcam əsərdə qəhrəmanımızın yaşam tərzinin, həyat və həqiqət uğrunda mücadiləsinin başlıca qayəsini, amalını vurğulamağa, nişan verməyə

cəhdlər göstərdik. Çalışdıq ki, yaxından tanış olduğunuz hadisələrin həyəcanlandırıcı və təsəlliverici, qüssələndirici və qürurlandırıcı, təəccübləndirici və heyrətləndirici, sevindirici və kövrəldici məqamları az olmasın.

Şahid Həbibullayev ilə bağlı ictimai əhəmiyyət kəsb edən hadisələrin sıxlığı, faktların bolluğu bəzən əlavə izah və şərhlərə möhtac qalsa da, bu missiyanın eyni mövzuda yazılacaq növbəti kitabların şərəf və ləyaqətlə daşıyacağına əminliyimizi bildirməklə yanaşı, bu fədakar insanın titanik əməyinə müxtəlif kütləvi informasiya vasitələri, təşkilatlar, cəmiyyətlər və şəxsiyyətlər tərəfindən bildirilən təvazökar münasibət və verilən tutumlu dəyərlər haqqında söz açmaq yerinə düşərdi.

Ş.Həbibullayevin mükafat və təltiflərindən danışanda, onları üç sahə üzrə qruplaşdırmaq olar. **Birincisi,** respublikanın ən iri nəqliyyat təsərrüfatı sahələrindən birinə rəhbərlik etdiyi illərdə qazandığı uğurlara görə; **ikincisi**, Qarabağ müharibəsində göstərdiyi misilsiz şücaətə görə və **sonuncu qrupa** qədim xalq

Şahid Həbibullayev və onun rəhbərlik etdiyi idarə **Azərbaycan Respublikası Prezidentinin Fərmanına** (23 iyun 1996-cı il), **Nazirlər Kabinetinin** (5 yanvar 1993, 11 iyun 1994, 7 noyabr 1996, 25 fevral 1997), **Respublika Hərbi Komissarlığının** (26 yanvar 1994), **Bakı Şəhər İcra Hakimiyyətinin** (11 avqust 1995), **Qaçqınlar və Məcburi Köçkünlər üzrə Dövlət Komitəsinin** (31 avqust 1995), Təhsil Nazirliyinin (29 iyul 1997) və Nərimanov Rayon İcra Hakimiyyətinin (26 dekabr 1996-cı il tarixli) məktublarına əsasən mükafatlara layiq görülmüşdür.

sənəti nümunələrindən yaratdığı qeyri-adi və ən zəngin kolleksiyaya görə müxtəlif səviyyələrdə verilmiş mükafatlar və təltiflər aiddir.

Kitabda qeyd edildiyi kimi, Ş.Həbibullayev 25 ildən çox Şəhərlərarası və Beynəlxalq Daşımalar Birliyinin baş direktoru işləmişdir. Onun fəaliyyətinin ən qızğın illəri isə Azərbaycanın dövlət müstəqilliyini bərpa etdikdən sonrakı dövrə təsadüf edir. Müharibənin, ictimai-siyasi sistemin dəyişməsinin, keçid dövrünün gətirdiyi fəlakətlərin ağırlığının böyük bir qismi nəqliyyat təsərrüfatının üzərinə düşmüşdür. Zamanın tələbindən irəli gələn, iritutumlu sərnişin avtobusları təyinatını dəyişərək çağrışçıların hərbi hissələrə daşınması, qaçqınların və məcburi köçkünlərin döyüş bölgələrindən xilas edilməsi, dövlət səviyyəli mülki müdafiə və mədəni kütləvi tədbirlərin həyata keçirilməsi işində insanlara nümunəvi xidmətlər göstərmişdir. Məhz bu sahədəki vətəndaşlıq mövqeyinə və yüksək xidmətlərinə görə Şahid Həbibullayev və onun rəhbərlik etdiyi idarə **Azərbaycan Respublikası Prezidentinin Fərmanına** (23 iyun 1996-cı il),

**Nazirlər Kabinetinin** (5 yanvar 1993, 11 iyun 1994, 7 noyabr 1996, 25 fevral 1997),

**Respublika Hərbi Komissarlığının** (26 yanvar 1994),

**Bakı Şəhər İcra Hakimiyyətinin** (11 avqust 1995),

**Qaçqınlar və Məcburi Köçkünlər üzrə Dövlət Komitəsinin** (31 avqust 1995),

**Təhsil Nazirliyinin (29 iyul 1997)** və

**Nərimanov Rayon İcra Hakimiyyətinin** (26 dekabr 1996-cı il tarixli) məktublarına əsasən mükafatlara layiq görülmüşdür.

Şəhərlərarası və Beynəlxalq Daşımalar Birliyi "Magistral Ekspress" Açıq Tipli Səhmdar Cəmiyyətinə çevrildikdən sonra bu nəqliyyat müəssisəsinin sorağı xarici ölkələrdən gəlməyə başlamışdır.

**2001-ci ildə** Paris şəhərində keçirilən müsabiqədə "Magistral Ekspress" ATSC Respublikamızdan "**Dünya keyfiyyətinə sədaqət üzrə Beynəlxalq Qızıl Ulduz"** ilə təltif edilən ilk və yeganə nəqliyyat müəsissəsidir.

Bu müəssisə və onun rəhbəri sonralar dəfələrlə ölkənin nəqliyyat sisteminin təkmilləşdirilməsi, iqtisadi qüdrətinin möhkəmləndirilməsi sahəsində əvəzsiz töhfələrinə görə **Azərbaycan Həmkarlar İttifaqları**

**Konfederasiyasının (2002),**

**"Uşaq Fondu"** jurnalının,

**"Region media",**

**"Media-rəy",**

**"İlkin-press",**

**"Avropa Şurası",**

**"Azərbaycan müjdələri"** qəzetlərinin diplom və mükafatlarına layiq görülmüşdür.

Şahid Həbibullayevin Azərbaycan ərazilərinin bərpası uğrunda, Qarabağ döyüşlərdə göstərdiyi mərdlik, mübarizlik, igidlik xüsusilə dövlətimiz tərəfindən yüksək qiymətləndirilmişdir. O, Respublika Prezidenti Heydər Əli-

yevin Fərmanı ilə **1994-cü ilin 9 oktyabrında ölkənin ali ordeni - "Azərbaycan bayrağı" ilə təltif edilmişdir.**

**Son on ildə Ş.Həbibullayevin kolleksiyaçılıq fəaliyyəti** elmi, ədəbi-mədəni ictimaiyyətin diqqətini daha çox cəlb etmişdir. O, misgərlik nümunələrinin toplanması, bərpası, tədqiqi və təbliği sahəsində respublikamızın ilk ən zəngin kolleksiyaçısıdır.

**Eksponatlarının əksəriyyəti Azərbaycan xalqına mənsub olmaqla,** 6 ölkənin mədəniyyət incilərini əhatə edir və ümumi sayı 3000 ədədə yaxındır. Onlardan 999 ədədi XV111-X1X əsrlərdə istehsal edilmiş 141 firmaya aid müxtəlif çeşidli samovarlardır.

**Ş.Həbibullayev zəngin və dəyərli kolleksiyası** ilə dünya şöhrəti qazanmışdır. Ona məxsus eksponatların Fransada, Mərakeşdə, Tacikistanda, Misirdə keçirilən sərgiləri böyük maraqla qarşılanmış, vətəninə və millətinə başucalığı gətirmişdir.

**Ş.Həbibullayevin zəngin şəxsi kolleksiyası** barədə Rusiya Federasiyasının "Mir" telekanalı, Tomski Televiziyası, Azərbaycanın İctimai Televiziyası sənədli filmlər çəkmiş, kataloq və açıqca dəsti buraxılmış, respublikanın ən nüfuzlu qəzet və jurnallarında elmi, publisistik məqalələr dərc olunmuş, tanınmış şairlər tərəfindən onlarla şeirlər həsr edilmiş, mahnılar bəstələnmiş, qiraət ustalarının ifasında bu şeirlərin audio-diski buraxılmışdır.

Ş.Həbibullayev Azərbaycan mədəniyyətini, incəsənətini dünyada tanıtdığına, ləyaqətlə təbliq etdiyinə görə, misgərlik incilərimizin toplanması, bərpası və tədqiqi sahəsindəki şəxsi xidmətlərinə görə beynəlxalq **"Avropa Nəşr-Mətbu Evi"nin** diplom və Qızıl medalına **(2008),** Azərbaycan Kütləvi İnformasiya Vasitələri İşçiləri Həmkarlar İttifaqı Rəyasət Heyətinin "Qızıl Qələm" (2009), C.Cabbarlı adına Elm, Təhsil və Mədəniyyətə dəstək İctimai Birliyinin "Cəfər Cabbarlı Mükafatı" (2010) və "Məlhəm" Hümanist Qadınlar İctimai Birliyinin "Altun Ləyaqət" beynəlxalq mükafatı və Qızıl Ulduz medalı (2010) ilə təltif edilmişdir.

Dünya şöhrətli kolleksiyaçı, "Azərbaycan bayrağı" ordenli Şahid Həbibullayev zəmanəmizin nadir, bənzərsiz şəxsiyyətidir.

Onun şeirləşən, nəğmələşən ömür yolu, həyat eşqi, vətənpərvərlik duyğuları milli-mənəvi dəyərlərimizin gələcək nəsillərə sevdirilməsi istiqamətində ən nümunəvi örnək olaraq əsrlərlə yaşayacaqdır.

Ş.Həbibullayev misgərlik incilərimizin toplanması, bərpası və tədqiqi sahəsindəki şəxsi xidmətlərinə görə beynəlxalq **"Avropa Nəşr-Mətbu Evi"nin** diplom və Qızıl medalına **(2008),** Azərbaycan Kütləvi İnformasiya Vasitələri İşçiləri Həmkarlar İttifaqı Rəyasət Heyətinin "Qızıl Qələm" (2009), C.Cabbarlı adına Elm, Təhsil və Mədəniyyətə dəstək İctimai Birliyinin "Cəfər Cabbarlı Mükafatı" (2010) və "Məlhəm" Hümanist Qadınlar İctimai Birliyinin **"Altun Ləyaqət" beynəlxalq mükafatı və Qızıl Ulduz medalı** (2010) ilə təltif edilmişdir.

# ŞAHİD HƏBİBULLAYEVİN ŞƏXSİ KOLLEKSİYASI





**Ş.Həbibullayevin şəxsi kolleksiyası.**







**Ş.Həbibullayevin şəxsi kolleksiyası.**







**Ş.Həbibullayevin şəxsi kolleksiyası.**









**Ş.Həbibullayevin şəxsi kolleksiyası.**













**Ş.Həbibullayevin şəxsi kolleksiyası.**















**Ş.Həbibullayevin şəxsi kolleksiyası.**
Əsrlərin yadigarı, Azərbaycanın canlı tarixi olan mis qablar




**Ş.Həbibullayevin şəxsi kolleksiyası.** Nobel qardaşlarına məxsus fayton

# ŞAHİD HƏBİBULLAYEVƏ HƏSR OLUNMUŞ ŞEİRLƏR

# AY ŞAHİD

**Bəytəpə uğrunda döyüşlərdə igidliyinə görə "Azərbaycan Bayrağı" ordeni ilə təltif edilmiş, II qrup Qarabağ əlili Şahid Həbibullayevə**

Söhbətinə qulaq asıb kövrəldim,
Bu nə dərddir, nə möhnətdir, ay Şahid!
Kim sevməsə torpağını canı tək,
Bu Vətənə xəyanətdir, ay Şahid!

Bəytəpədən gəldi bir vaxt sorağın,
Daş-qayalar oldu yerin, yatağın,
Zirvələrdə qanad açan bayrağın,
Bu gün yenə bir şöhrətdir, ay Şahid!

Başın üstdən ölüm ötdü nə qədər,
Saçlarına daraq çəkdi güllələr...
Öz oğlundur, övladındır hər əsgər,
O səngərlər ziyarətdir, ay Şahid!

Keçdi ömür, dərd ürəyə saldı dən,
Kaş çəkilsin başımızdan duman, çən...
Sənin kimi oğlu xalqa sevdirən -
Göstərdiyin şücaətdir, ay Şahid!

İlyas Tapdıq daim olub xoşniyyət,
Öz şerində saldı səndən bir söhbət,
Sənə olan bu məhəbbət, bu hörmət,
Öz xalqına məhəbbətdir, ay Şahid!

**İlyas TAPDIQ**

# MİS ÜZƏRİNDƏ İMZA

**Torpaqlarımızın bütövlüyü uğrunda işğalçı ermənilərə qarşı döyüşlərdə göstərdiyi şücaətə görə ulu öndər Heydər Əliyev tərəfindən "Azərbaycan Bayrağı" ordeni ilə təltif olunmuş, II qrup Qarabağ əlili Şahid Həbibullayev topladığı 3000-ə yaxın nadir sənət əsərlərini, misgərlik nümunələrini müntəzəm olaraq xarici ölkələrdə nümayiş etdirir, milli sənətimizi dünyaya tanıdır.**

Yolun dərə keçib, dağ aşa bilsə,
Ulu mənzil sənin, səfər sənindir.
Sənətin düşmənlə vuruşa bilsə,
Qələbə sənindir, zəfər sənindir.

Sınaq meydanıdır qış yazdan qabaq,
Ümman çalxananda dünya qopubdur.
İzim də, imzam da kağızdan qabaq,
Misə yazılıbdır, daşa hopubdur.

Səhəngim yəhərdə yaylağa qalxıb,
At üstdə getmişəm səsin üstünə.
Bəşər daşdan tutub ayağa qalxıb,
Min illər yol gedib misin üstünə.

Bağrıma basdığım sənətə alqış!
Bağrıma basdığım bala kimidir.
Zəkanın mis üstə yazdığı naxış,
Zəhmətlə ucalan qala kimidir.

Zərgərdə ləl olmur hər barmaq üçün,
Yurda yaraq kimi yaramalısan.
Milləti sənətdə tanıtmaq üçün,
Vətəni səngərdə qorumalısan.

Düşmənin tələsi, təmənnası var,
Cibindən həmişə tiyə çıxıbdır.
Torpağın altında tarixi yoxlar,
Torpağın üstünə yiyə çıxıbdır.

Ulasaq, dünyanın bağrı uğuldar,
Uduzsaq, quruca günahlıq deyil.
Ciyər paralansa, cərrah sağaldar,
Torpaq paralansa, Allahlıq deyil.

Şər-böhtan şərbətlə içilmir daha,
Qollarım dolanmır qara kollara.
Doğulduğu gündən hələ əjdaha,
Məğlub olmayıbdır koramallara.

Yurdumun qazisi, Şəhidi varsa,
Mənimdir Murovu, Kürü əbədi.
Oğuz ellərinin Şahidi varsa,
Oğuz torpağının ömrü əbədi.

**Ələmdar QULUZADƏ**

## SƏNİ DÖYÜŞLƏRƏ SƏSLƏDİ VƏTƏN

**"Azərbaycan Bayrağı" ordenli Şahid Həbibullayevə**

Adi bir insandın doğulanda sən,
Oğuzda böyüyüb, yaşa dolmusan.
Səni döyüşlərə səslədi vətən,
Yağıya basılmaz aslan olmusan.

"Əgər vətən yoxsa, millətə eyib",
Sən bunu düşündün, sən bunu andın.
"Düşmən məzarlara gömülsün" - deyib,
Püskürdün, od oldun, alışdın, yandın.

Şahid, müqəddəsdir amalın, qardaş,
Bu yurdun, bu elin sorağındasan.
Üstündə gəzdiyin bu torpaq, bu daş,
Deyir ki, öz ulu torpağındasan.

Mənim tariximdə dərindir qatlar,
Bu tarix varlığım, həm kimliyimdir.
Sənin topladığın eksponatlar
Bu torpaq üstündə qədimliyimdir.

Gəzdir yaddaşında hayana getsən,
Unutma verdiyin o qurbanları.
Sən ki döyüşlərdə ərsən, igidsən,
Sən göstər tarixə göz yumanları.

De ki, dönəcəyik öz Şuşamıza,
Zəfərli nəğmələr ötəcəyik biz.
Xarıbülbül kimi üz tutub yaza,
Şuşa dağlarında bitəcəyik biz.

**Rahil MƏMMƏD**

# MİLLƏTİN ŞƏRƏFİ, NAMUSU TORPAQ

**"Azərbaycan Bayrağı" ordenli Şahid Həbibullayevə ithaf edirəm**

Döyüş səngərləri - ərən meydanı,
İrəli birinci çıxdı, ər oğul!
Ayağı altına alıb düşməni -
Bayrağı köksünə sıxdı, ər oğul!

Yeridi kişi tək, qorxunu boğub,
Geriyə baxmadan qəhrəman Şahid
Onun ürəyində bir arzu doğub -
Dünyada ən uca zirvədir şəhid!

Barıt qoxuları ciyərlərində,
Döyüş səhnələri göz önündədir.
Əsgərin ən böyük rəşadətisə -
Onun ilk atəşə dözümündədir!

Hər günü, hər anı silinməz tarix,
O hünər dastanı yazıb qanıyla.
Gülləsi bitəndə, xain düşməni -
Çaşdırıb qəfləti qərarlarıyla.

İndi məğrur gəzir, amma baxışı
Hələ də qəmlidi, - acısı torpaq!
Bircə amalı var, bir də alqışı -
Qurtulsun anası, bacısı torpaq!
Millətin şərəfi, namusu torpaq!

**Əbülfət MƏDƏTOĞLU**

# SƏNİN KİMİ İGİD VARMI

**Torpaqlarımızın bütövlüyü uğrunda sücaət göstərmiş, "Azərbaycan bayrağı" ordenli qəhrəman Şahid Həbibullayevə ithaf!**

Vətənə and içib gəldin,
Od-alovdan keçib gəldin,
Sən ölümü seçib gəldin,
Sənin kimi igid varmı?!

Səngər oldu isti yuvan,
Erməniyə uddurdun qan,
Qayalardan qalxan tərlan,
Sənin kimi igid varmı?!

Gecə-gündüz çəkdin nərə,
Titrədi yer, bu dağ-dərə,
Dağ çəkirdin namərdlərə,
Sənin kimi igid varmı?!

Satqınları susdururdun,
Namərdin boynun vururdun,
Dağlar kimi şax dururdun,
Sənin kimi igid varmı?!

Hər döyüşdə od olurdun,
Hünərinlə ad alırdın.
Düşməndən qisas alırdın,
Sənin kimi igid varmı?!

Tutanda namərd yağını,
Göstərdin ciyər dağını.
Sordun qiyamət çağını,
Sənin kimi igid varmı?!

Sən ki qorxu bilməz idin,
Az danışan, dinməz idin.
-"Qürurumuz vətən!" - dedin,
Sənin kimi igid varmı?!

Dedin igid ərlər hanı?
Yerdə qalmaz şəhid qanı,
Qoruyurdun el-obanı,
Sənin kimi igid varmı?!
Şahid kimi igid varmı?!

**Qələndər XAÇINÇAYLI**

# QÜRUR DUYACAQ

**"Azərbaycan bayrağı" ordenli, İkinci qrup Qarabağ əlili Şahid Həbibullayevə həsr olunur.**

Əyilməz qamətin, bükülməz dizin,
Torpağın üstündən silinməz izin.
Məğrur sahilisən sonsuz dənizin,
Şeirin ünvanıdır Şahid tək qoçaq,
Bu Vətən onunla qürur duyacaq!

Könlün vətən eşqi, məhəbbət dolu,
Tutduğun haqq yolu, ədalət yolu.
Ömrün sevgi dolu, düz ülfət dolu,
Bu paydan qəlbinə sevinc dolacaq,
Bu Vətən səninlə qürur duyacaq!

Gələcək ömrünün yazı, baharı,
Qeyrətlə qorudun namusu, arı.
Vətən övladıdır Vətənin varı,
Qalanıb yandıqca Vətəndə ocaq
Bu Vətən Şahidlə qürur duyacaq!

Bulud çəkiləcək Vətən üzündən,
Çoxları dərs alar sənin sözündən.
O gün qalacaqsan razı özündən,
Qarabağ tezliklə bizim olacaq,
Bu Vətən səninlə qürur duyacaq!

**Qara Tülpan AĞCALI**
*(Pərvin İsmayılova)*

# BƏYTƏPƏDƏ TARİX YAZDIN

**Azərbaycan torpaqlarının erməni işğalçılarından azad edilməsində misilsiz şücaət göstərən və eləcə də dünyada bərabəri olmayan Muzey yaradan "Azərbaycan Bayrağ" ordenli Şahid Həbibullayevə ithaf**

Ulu Tanrı seçim edir hər kəsi,
Qəhrəmanı döyüşlərdə sınayır.
Kiminə o verir Vətən sevgisi,
Kimini də qorxaqlıqda qınayır.

Qarabağ da belə sınaq meydanı,
Kimi qaçdı, kimi getdi irəli.
Döyüşlərdə Şahid kimi ər hanı?
Düşmən qaçdı, o, döyüşə girəli.

Şığıdıqca göz qırpmadan yürüşə,
Ürəyində bir ocaqmı çatıldı?!
Ön sırada özü girib döyüşə,
Səngərlərdən - səngərlərə atıldı.

Yağdırırdı düşmən üstə güllələr,
Güllələrdən sanki tonqal qalandı.
Haramıda baş verirdi bir gör nələr?!
Düşmən meyidindən təpə yarandı...

Dildən - dilə düşdü sənin savaşın.
Döyüşlərdə zəfər çaldın, ay Şahid!
"Bəytəpə"də qanlı tarix - yaddaşın,
"Qızıl Bayraq" - orden aldın, ay Şahid!

**Ziyəddin SƏLİM**

# ANAM AZƏRBAYCANA

**Azərbaycan torpaqlarının erməni işğalçılarından azad edilməsində əsl qəhrəmanlıq göstərmiş və bu gün dünyada analoqu olmayan şəxsi kolleksiya yaratmış "Azərbaycan bayrağı" ordenli, İkinci qrup Qarabağ əlili Şahid Həbibullayevə həsr olunur. Arzu edirik Şahid müəllim özünün bu zəngin xəzinəsini Qələbə Bayramı Günü Şuşada nümayiş etdirsin!**

Vətən dara düşəndə ayağa qalxdın ər tək,
Yüz min ana-bacıya sən qardaş oldun, Şahid!
Babam Xətai təki atıldın səngərlərə,
Anam Azərbaycana vətəndaş oldun, Şahid!

Sən Tomris övladısan, qalalar qalasısan,
Qədim Türk dünyasının ən əziz balasısan,
Sən düşmənlər üstündə zəfərlər çalasısan,
Vətən igidlərinə sən yoldaş oldun, Şahid!

Dərbəndin, Borçalının, Qarabağın özüsən,
Düşməni yandırmağa ocağımın közüsən,
Sən tarix muzeyisən, şairlərin sözüsən,
Oğuz el-obasına sən çağdaş oldun, Şahid!

Şuşa yad əllərdədir, baxıb dözə bilmirəm,
Başıma papaq qoyub, inan, gəzə bilmirəm.
Əl uzadıb bir dənə çiçək üzə bilmirəm,
Şirin arzularıma sən sirdaş oldun, Şahid!

Gedib görə bilmirəm Göyçə adlı anamı,
"Sevan" çağırır dığa, belə gözəl sonamı.
Əllərimi bulayım yenə murdar qanamı?!.
Bütün arzularıma sən yaddaş oldun, Şahid!

**Əyyub Şuşalı ŞİRLANLI,**

şair-publisist, AYB-nın üzvü, "Qızıl qələm"
mükafatı laureatı. Qarabag
müharibəsinin veteranı.

# ŞÜCAƏT

**Məğrur və kəşməkeşli tale yaşayan, əsl ziyalı, xeyirxah əməllər sahibi, "Azərbaycan bayrağı ordenli", II qrup Qarabağ əlili, cəsur zabit, vətənpərvər eloğlumuz, antik qablar kolleksioneri Şahid Həbibullayevə həsr edirəm.**

Füzuli-Beyləqan-Ağdam arası,
Ergi düzü od-alovun içində
Bu döyüşə kim komandir olası?!
Baş komandan qalıb çətin seçimdə.

Yüksək çinlilərlə Şahid bərabər,
Yanına çağırır o kapitanı.
Vətən vuruşuna millət səfərbər,
Bəytəpə cinahı - sınaq meydanı.

-Sənin qətiyyətin, sənin cürətin
Bu döyüşdə bizə uğur gətirər.
Düşmən qarşısında dursanız mətin,
Kapitan, əminəm, çalarsız zəfər.

Yığıb ətrafına əsgərlərini,
Şahid qətiyyətlə verdi əmrini:

-Düşmən cəbnəsinə, düşmən canına,
İgidlər, vəlvələ salmalıyıq biz!
Şuşanın, Laçının, həm Xocalının,
Yağıdan qisasın almalıyıq biz.

Bir də təkrarlayıb döyüş sirrini,
Qartal tək şığıdı düşmən üstünə.
Yağıya göstərdi o, öz yerini,
Qatillər dursa da onun qəsdinə.

Geriyə baxmadan irəlilədi,
Yoluna çıxanlar boyandı qana.
Düşməni qanına qəltan eylədi,
Sorağı yayıldı Azərbaycana!

**Qəşəm İLQAR**

## MƏNİ

Ömrümün, günümün qəmgin çağında,
Dinlədin səbrlə, dözümlə məni,
Quş tək çırpınarkən öz budağımda,
Ovutdun bir kəlmə sözünlə məni.

Məğrursan, mətinsən müdrik yaşında,
Sirli bir aləm var hər baxışında,
Qalibsən həyatın sərt savaşında,
Mat qoydun yolunla, izinlə məni.

Vətən məhəbbəti ən böyük andın,
Çətin sinaqlarda keçdi həyatın,
Əyilməz vüqarın, yenilməz adın,
Kövrəltdin əzminlə, özünlə məni.

Böyük əməllərin bir möhtəşəm dağ,
Daim yaşayacaq, daim duracaq,
Könlün alov saçan bir od, bir ocaq,
İsitdin odunla, közünlə məni.

Dəli Kür çağlayır sanki qanında,
Qalib sərkərdəsən sınaq anında,
Ömrün sərt yoxuşlu imtahanında,
Tale tanış etdi sizinlə məni.

Ey məğrur yurdumun, məğrur əsgəri,
Işıqlı sabahı, aydın səhəri,
Bürüsün hər yanı zəfər xəbəri,
Sevindir o nurlu üzünlə məni!
Mat qoydun əzminlə, özünlə məni.

**Narıngül SADİQ**
Neftçala rayonu.

# ATA

**Milli təəssübkeş, böyük vətənpərvər, Qarabağ müharibəsinin qeyrətli sərkərdələrindən biri,"Azərbaycan Bayrağı" ordenli,II qrup Qarabağ əlili,"Magistral-Ekspress" Açıq Tipli Səhmdar Cəmiyyətinin prezidenti,"Dünya keyfiyyətinə sədaqət üzrə Beynəlxalq Qızıl Ulduz" mükafatçısı, mənə və saysız-hesabsız insanlara əl tutan, təmənnasız qayğı göstərən xeyriyyəçi Şahid Həbibullayevə həsr edirəm.**

Hüzünə büründün kədər görəndə,
Gözümdə göz yaşı, qəhər görəndə.
Ömrümdən illəri hədər görəndə,
Haqqını-sayını halal et, ata.

Çətin anlarımda gərəyim oldun,
Ümidlə döyünən ürəyim oldun,
Kədərə güc gələn biləyim oldun,
Haqqını-sayını halal et, ata.

Mən sənə sığındım dara düşəndə,
Bəxtimdə çovğuna, qara düşəndə,
Ömrümün karvanı yola düşəndə,
Haqqını-sayını halal et, ata.

Bu vətən uğrunda min dərdə dözdün,
Yolunda xainə, namərdə dözdün,
Qeyrətə çəkilən sərhədə dözdün,
Haqqını-sayını halal et, ata.

Sızladım bəxtinə ələm düşəndə,
Bir sevinc payına min qəm düşəndə,
Qara saçlarına ağ dən düşəndə,
Haqqını-sayını halal et, ata.

Qarşımda dayanıb ömrün sınağı,
Bu sirli dünyanın qarası, ağı,
Mən sənin yanında tale qonağı,
Haqqını-sayını halal et, ata.

Gözləri sübhədək oyaq olanım,
Ömür yollarıma çıraq olanım,
Arxamda hər zaman dayaq olanım,
Haqqını-sayını halal et, ata.

**Günel SALMANLI**

# DEYİRLƏR

**"Azərbaycan bayrağı" ordenli Şahid Həbibullayevə ithaf**

Torpağa bağlılıq qeyrət işidir,
"Sığal çəkməmisən telə" - deyirlər.
"Şahid eloğlumuz əsl kişidir!" -
Səni tanıyanlar belə deyirlər.

Sərt savaş yolunu özün seçmisən,
Nə qədər çətindən, dardan keçmisən,
İgidlik şərbətin alıb içmisən,
"Qurmusan yağıya tələ", - deyirlər.

Qalıb hər birinin dərdi-sərinə,
Doğma qardaş oldun əsgərlərinə,
"Elə ki, çatardın savaş yerinə,
Dönərdin kükrəyən selə", - deyirlər.

Kəsilən döyüşlər versə də ara,
Sinəndən hələ də qan verir yara...
Savaşmaq öyrətdin mərd oğullara,
"Vurğunsan obaya-elə", - deyirlər.

Yurdsevər oğlusan torpağın, daşın,
Odur ki, azalmır ağrın, təlaşın,
Nə olsun 50-ni keçibdir yaşın,
"Döyüş şövqündəsən hələ", - deyirlər.

**Salam CAVADLI**

# HANSINI DEYİM

**Şahid Həbibullayevə ithaf edirəm**

Tərəzi gözüdür tarixin gözü,
Hər kəsin qiymətin özü düz verər.
Günahın, savabın ağırlığını,
Doğru çəkisiylə, gözü düz verər.

Qazanmaq istəsən məhəbbət, sevgi,
Xalqın qarşısında ödə borcunu.
Adını tarixdə yaşatmaq üçün,
Qoy qaytarsın sənə, o da borcunu.

Bir şəxs tanıyıram hər kəlməsində,
Şirin ədası var, zarafatı var.
Xalqın arasında, xalqın içində,
Hörməti, izzəti, şərafəti var.

Qazancı hörmətdir, xalqından gələn,
Bu qazanc ömrünə səadət verir.
Şahiddir, düzdüyü naxışlarına
Qızıl əlləriylə şəhadət verir.

Barmaq izləri var "müjdə qabı"nda,
"Çıraq"la sabaha o, çıraq tutur.
"Kəşkül"ə vurduğu naxışlarıyla,
Tarixə yazılmış bir varaq tutur.

"Dolça"ya, "Kasa"ya, "Cam"a vurduğu,
Naxışlar millətin dəyərləridir.
"Sərpuş"da, "Sini"də, "Nimçə"də deyim,
Şahidin şəhadət əməlləridir.

Deyim mən hansını, bəs hansı qalsın?
Onun "Məcməyi"si, "Badyası" da var.
Duzlu zarafatı, məzəli sözü,
Könül camında var, badyasında var.

Sənin mis kəfgirin, mis süzgəcin var,
Demə ki, geriyə qalmışam səndən.
Xədicə Muradam, bu sözlərimi,
Mən də keçirmişəm öz süzgəcimdən.

**Xədicə MURAD**

# BİZƏ ANA OLAN VƏTƏN-QİBLƏGAH...

**"Azərbaycan Bayrağı" ordenli Qəhrəman Şahid Həbibullayevə**

Dünəndən bu günə doğulur sabah,
Sabahdan o yana sabahlar gəlir...
Bizə Ana olan Vətən - qibləgah,
Sevgisi bayraq tək qalxır, yüksəlir.

Şahid, savaşlara ucalıq verən,
Şahid mərmilərin qaynadığı yer.
Mərdliyi vüqarla dağa döndərən,
Qürur zirvəsini qəhramana ver!

Sözün qartal kimi uçur havada,
Özün canlı şahid cənab kapitan.
Gözlərin açılıb qanda-qadada,
Dözümün adlayıb gör neçə qatdan.

Ana torpağımın şərəfi oğul!
Şərafət adında Vətən dastanım...
Nəcib duyğulardan insanlıq doğur,
Cəsarət rəmzidir Azərbaycanım.

Şahid! O günlərin uzun yoluna...
Hələ qurtarmayıb həyəcan səsi.
Geri qayıdanda üç telli durna,
Özünə qayıdar Şəhid nəfəsi.

**Ədalət ƏSGƏROĞLU**

# CƏSARƏT RƏMZİSƏN, ŞAHİD

**(nəğmə)**

**Oğuz elimin igid-ərən oğlu, qəhrəman döyüşçü,vüqarım Şahid Həbibullayevə ithaf edirəm.**

**Musiqisi:** Məlahət Həmidqızınındı

Oğuz ellim, Qazan boylum,
Qorqud köklüm, Ozan soylum,
Yurd haraylım, Domrul hoylum,
Cəsarət rəmzisən, Şahid!

İftixarım, yaraşığım,
Qara gündə gur işığım,
Qəhrəmanım, haqq aşığım,
Sədaqət rəmzisən, Şahid!

Məşəqqətlər görənimsən,
Sadə ömür sürənimsən,
Sən igidim, ərənimsən,
Dəyanət rəmzisən, Şahid!

Qarabağ yağı oylağı,
Qan ağlayır hər bulağı,
Elimin ümid çırağı,
Ləyaqət rəmzisən, Şahid!

Oğuz elin qoyma darda,
Nəcibəni intizarda...
Əsir qalan torpaqlarda,
Sən qeyrət rəmzisən, Şahid!

**Nəcibə İLKİN**

# ÜRƏYİMİZDƏ

**Qarabağ uğrunda böyük qəhrəmanlıqlar göstərmiş, Oğuzun qəhrəman oğlu Şahid Həbibullayevə həsr edirəm.**

Böyük ehtiram var bu məşhur ada,
Gah çıxıb tufandan, gah girib oda,
Mərdliklə döyüşüb Qarabağda da,
Yaşar arzumuzda, diləyimizdə!
Şahid sevgisi var ürəyimizdə!

O, canlı, möhtəşəm qalaya döndü,
Qələbə naminə qəlbi döyündü,
"Vətən, vətən" deyib kimlər öyündü?!
Silahdır kəsərli nəğmə də, söz də,
Şahid sevgisi var ürəyimizdə!

Həzinin, Mehdinin davamçısıdır,
Yaradan gəncliyin ilhamçısıdır,
Yaxşını qoruyub, pisi sarsıdır,
İstəyir nur olsun baxışda, üzdə,
Şahid sevgisi var ürəyimizdə!

Düşmənə zərbələr endirdi Şahid,
Xaini yoxluğa göndərdi Şahid.
Qeyrət bağçasından gül dərdi Şahid,
Gah qarlı dağdadır, gah barlı düzdə,
Şahid sevgisi var ürəyimizdə!

Qədim tapıntılar gəldikcə "can"a,
Yayılır şöhrəti bütün cahana,
Ömürlük bağlıdır Azərbaycana!
Çoxdur xoş arzular diləyimizdə,
Şahid sevgisi var ürəyimizdə!

**Nəcibə İLKİN**

# ÖMÜR YOLU

**Bəytəpə uğrunda döyüşlərdə göstərdiyi igidliyə görə "Azərbaycan bayrağı" ordeni ilə təltif olunmuş Şahid Həbibullayevə**

Ömür yolu hekayətin insanlığa nümunədir.
İgidliyin, şücaətin, kim deyir ki, əfsanədir?!

Yağı düşmən yurdumuza göz dikəndə,
Qanlı döyüş savaşına girdin sən də.
Axı, Vətən məhəbbəti var sinəndə,
Bu sevgi də, məhəbbət də qanındadır,
Torpağına bağlı olan canındadır.

Öndə olmaq həkk olunub taleyinə,
O paqonlar yaraşmayır hər çiyinə,
Vətən eşqi elə hopub iliyinə,
Hər qarışda qanlar axıb, izin qalıb,
Deyilməmiş son qələbə sözün qalıb.

Bəytəpədə sən susdurdun düşmənləri,
Taborunla qan qusdurdun düşmənləri,
Elə vurdun, elə vurdun düşmənləri...
Qalacaqdır yaddaşlarda zaman-zaman,
İgidliyin, şücaətin, ey qəhrəman.

Elə başsız başçıların xəyanəti,
Ocağından qaçqın saldı bu milləti.
Fəqət igid oğlanların şücaəti,

Qaytaracaq hər köçkünü obasına!
Torpağına, öz yurduna, yuvasına!

O dağların zirvəsində qartala bax,
Qanad çalır doğmaları axtararaq,
İgidləri soraqlayır qıy vuraraq,
Unudarmı hər bəndini, bərəsini,
Həyat dolu hər dağını, dərəsini.

Ormanlarda kimlər çıxır seyrangaha,
Xarı bülbül qəribsəyib, bəsdir daha!
Öz dərdini deməsən də sən Allaha,
Millət dərdi ürəyində yurd salıbdır,
Hünəriylə bax beləcə ucalıbdır.

Döyüş vaxtı yanındaydı oğulları,
Azyaşlıydı, uşaq idi "noğulları",
Beləsindən ibrət alın siz də barı,
Alnı açıq, hünərlidir, gözü toxdur,
Düşmənlərin kor gözünə batan oxdur.

Qarabağım, qoy qamətin əyilməsin!
Qarı düşmən bu günüylə öyünməsin.
Şahid, sənin ucalacaq nərə səsin!
"Cəngi" ilə zəfər marşı çalınacaq!
Yağılardan Qarabağım alınacaq!

**Sabir Baba EYVAZLI**

# VƏTƏN BASILMAZDIR

**"Azərbaycan bayrağı" ordenli qardaşım Şahid Həbibullayevə ithaf edirəm**

Bu yurdun üstünü düman alanda,
Oğullar şineli geyib getdilər.
Düşmən torpağımı ayaqlayanda,
Vətən basılmazdır, - deyib getdilər.

Hər oddan-alovdan keçib qardaşım,
Həmin oğullardan sən idin biri.
Çətində silahım, darda sirdaşım,
Tağım komandiri, ön komandiri.

Nə fərqi Füzuli, Ağdam, Zəngilan,
Vətəni bölməzlər, torpaqlar bizim.
Düşmən ayağının altında qalan,
Saralıb tökülən yarpaqlar bizim.

Şahid, igidliyin yaddan çıxmadı,
Yağıdan güclüymüş haqlı olanlar.
Döyüşdə gülləddən, topdan qorxmadı,
Xalqına sənin tək bağlı olanlar.

**Mahmud VƏLİ**

# ƏSİRGƏMƏ GÜC

**Azərbaycan torpaqlarının erməni işğalçılarından azad edilməsində əsl qəhrəmanlıq göstərmiş və bu gün dünyada analoqu olmayan bir muzey yaratmış "Azərbaycan bayrağı" ordenli Şahid Həbibullayevə həsr olunur.**

Ulu Tanrı savab yazar ağır döyüşdə,
Hifz eyləyər duasıyla qəhrəmanları.
Ürəyində yurd sevgisi, Vətən sevgisi,
Şahid kimi ərlər yaşar gözəl anları.

Qüruruna qoy baş əysin Vətən övladı,
Axı mərdlər cəsarətlə çıxar sınaqdan.
Zirvələrə həkk olunar onların adı,
Taleyinə bu hünərlər yazılıb haqdan.

Dik dağların saf havası sənə beşikdə,
Dağ çayları layla çalıb, əzəmət verib.
Ən layiqli övlad kimi durdun keşikdə,
Vətən eşqi ürəyinə məhəbbət verib.

Bəytəpədə yardın bağrın nankor düşmənin,
Səsləndikcə atəşlərin çilənirdi qan.
Döyüşlərdə soyumazdı qəzəbin sənin,
Düşmənlərə bol nifrətin qəlbində vulkan.

Müharibə bir əngəldir zaman çarxına,
Haqq gələcək zülmə qarşı əlində ülgüc.
Dolu yağıb, su yönəlsə, düşmən arxına,
Tanrım, bizə çətin yolda əsirgəmə güc.

**Surxay Hatəm MÖVLAMVERDİ**

# LƏYAQƏTİN SINAĞI

**"Azərbaycan Bayrağı" ordenli Şahid Həbibullayevin şəninə ithaf**

İgid oğuz oğlunun fəxr etməyə haqqı var,
Sinəsini bəzəyir "Azərbaycan bayrağı".
Şahid düşmən üstünə şığıdı  şahin təki,
Qorxu nədi bilmədi, nifrət idi yarağı.

Qaytaranda geriyə o, Harami düzünü,
Çevirmişdi silaha ürəyinin közünü.
Hamı qanlı döyüşə hazırlasın özünü,
Qaralmasın heç zaman məmləkətin çırağı.

Tarix sübut eyləyib sülhü silahlar yazıb,
Göstər onun dadını kim ki: yolunu azıb.
Türkə qənim erməni haqqın təməlin qazıb,
Neçə dəfə olubdur, zaman verir sorağı.

Qurtuluşu gözləyir Şuşa, Laçın, Əsgəran,
Döyüşə atılacaq hər bir oğul qəhrəman.
Yurdu səfərbər edib, əmr elə, ey komandan,
Əsarət qəfəsindən çıxaraq Qarabağı.

Kökünü kəsmək üçün məkr çəkilsin dara,
Açılsın Göyçə ilə, Zəngəzur ilə ara.
Atəşkəsdən kar aşmaz, qanlı döyüşdən sonra,
Olsun zəfər meydanı Turşsu, İsa bulağı.

Bölünmüş Vətən kimi sinəmdə ürək yarı,
Xəzan görmüş çiçəyəm, gözləyirəm baharı.
Musiqi beşiyidi, incəsənət diyarı,
Cənnət məkan sayılan Qarabağın torpağı.

Haqq yolunu gedirsən ulun Həbibullanın,
Ana Vətən önündə olmayıbdır günahın.
Ürəyində xofu var mərhəmətli Allahın,
Qeyrət möhürü olub kişilərin papağı.

Yüz illərdir erməni durub Türkün qəsdinə,
Layiqli divan tutaq topasına, dəstinə.
Durub çiyin-çiyinə gedək yağı üstünə,
Yolumuzu gözləyir ərənlərin oylağı.

Cənab kapitan, sənə Tanrı olsun havadar,
Həm bu günün, sabahın olacaqdır bəxtiyar.
Şöhrət kitablarında babaların adı var,
Zəfər döyüşü olur ləyaqətin sınağı.

**Bəydadaş CƏFƏRLİ,**
AYB-nin üzvü

# QƏLƏBƏ SEVDALI BİR ZAMAN GƏLƏR

**"Azərbaycan Bayrağı" ordenli Şahid Həbibullayevə ithaf**

Daşnak Andranikin nəvələrinə,
Yamanca dərs verdin, qəhrəman Şahid.
Yığdın igidləri başına yenə,
Tutdun Haramidə sən divan, Şahid.

Dedin, çiçəyinin ətiri olmaz,
Torpağı işğalda qalan Vətənin.
Dedin, Zəngəzurun qisası qalmaz,
Bizim tək igidi olan Vətənin.

Dedin ki, alnıma döyüş yazılıb,
Döyüş Xocalıdan keçəcək bir gün.
Torpağa, çörəyə nankor yağının,
Nəfsi öz qanını içəcək bir gün.

Torpaq yad nəfəsi götürə bilməz,
Gözləyir bizləri neçə od-ocaq.
Vətən savaşına könül verənlər,
Elə Vətən boyda vətən olacaq.

Döyüş yollarında şəhid ruhları,
Dolanıb ünvana nigaran gələr.
Meydana axışsa yurd oğulları,
Qələbə sevdalı bir zaman gələr.

**Əli TOXLUCALI**

# ŞAHİDİM

**Vətənin qəhrəman oğlu, Qarabağ uğrunda gedən döyüşlərdə fədakarlıq göstərmiş Şahid Həbibullayevə ithaf edirəm**

El-oba öyünür əməllərinlə,
Zirvələr fəth etdin alın tərinlə,
Vətən tarixinə öz hünərinlə,
Sən yeni səhifə yazdın, Şahidim.

Müdrik kalamları çıraq eylədin,
Andını, eşqini yaraq eylədin,
Zəfər nəğməsini bayraq eylədin,
Düşmənin səddini pozdun, Şahidim.

Oğullar tanınır əməldə, işdə,
Ağır sınaqlarda, çətin gərdişdə,
Bəytəpə uğrunda gedən döyüşdə,
Hayların qəbrini qazdın, Şahidim.

Səndə Cavad xanın var nişanəsi,
Köksündən kükrəyir haqqın gur səsi.
Oğuz bahadırı, Babək nəvəsi,
Sevildin, dillərdə gəzdin, Şahidim!

**İdris SÜRÜKLÜ,**
"Lerik" qəzetinin və "Pərvanə" jurnalının
baş redaktoru, AYB-nın üzvü

# BƏYTƏPƏDƏ BƏY İGİDLƏR

**Azərbaycan ordusunun ən uğurlu döyüşü Füzuli-Horadiz istiqamətində olmuş, erməni ordusu həmin döyüşlərdə ən ağır məğlubiyyətə uğramış, ordumuz həmin döyüşdə 40 km irəliləmişdi. Bunu erməni mətbuatı da etiraf etmişdi. Həmin döyüşlərdə öndə getmiş komandir qəhrəman Şahid Həbibullayevə**

Bir mərdanə tarix yazdı,
Bəytəpədə bəy igidlər.
Düşmənlərə qəbir qazdı,
Bəytəpədə bəy igidlər.

Pələngtək döyüşə girdi,
Yağıları yerə sərdi,
Neçə-neçə şəhid verdi,
Bəytəpədə bəy igidlər.

Başlarına od ələdi,
Qanına qəltan elədi,
Səngərlərdə gecələdi,
Bəytəpədə bəy igidlər.

Azğın düşməni ram etdin,
Haramini haram etdin,
Qələbəni bayram etdin,
Bəytəpədə bəy igidlər.

Şuşanın dağların aşın,
Xocalının sil göz yaşın,
Sonuncu kərə yığışın,
Bəytəpədə bəy igidlər.

**Səməd MƏFTUN**

# HAYDI, MƏRD İGİDLƏR

**"Azərbaycan bayrağı" ordenli Şahid Həbibullayevə**

Dözüm də, səbr də dəmirdən deyil,
Bu qədər dərd ilə yaşamaq olmur.
İl-ilə qovuşur, dəyişir nəsil,
Bu yalan vədləri daşımaq olmur.

Bizləri çağırır cığırlar, yollar,
Ağrısı, harayı qulağa çatmır.
Vətən savaşında qazi oğullar,
Gündüzlər dincəlmir, gecələr yatmır.

Şəhid anaları batmasın yasa,
Qisasa hazırdır igid oğullar.
Qəlbində yurd-yuva sevgisi varsa,
Düşmən sədlərini keçməyə nə var.

Haydı, mərd igidlər, vədlər vaxt yeyir,
Şəhidə tay olmaz kimlər, kimsələr...
Torpaq da, zaman da dikəl, qalx deyir,
Qoy sussun biryolluq "lazım gəlsə"lər...

**Süleyman OSMANOĞLU**
"Tərəqqi" medallı

# VƏTƏN İGİD ŞAHİDLƏRLƏ ÖYÜNÜR

**Qarabağ uğrunda gedən döyüşlərdə igidliklər göstərmiş cəsur komandir Şahid Həbibullayevə**

İgidləri tarix yazan bu torpaq
Sinəsində dağ boyda dərd inləyir.
Üzeyirlər yetişdirən Qarabağ,
Yad əllərdə ocaq-ocaq göynəyir.

Şuşa, Laçın, Kəlbəcərin dağları,
Yay ayları tamaşaydı, tamaşa.
Xəzan vurdu bağçaları, bağları,
Bu torpaqlar tamarzıdı savaşa.

Qəddar düşmən bağlayıbdı yolları,
Füzulimiz, Qubadlımız dardadı.
Uzalıdı anaların qolları,
Babəkimiz, Koroğlumuz hardadır?!

Nərə çəkib yaraqlanın igidlər,
Babaların ruhu burda uyuyur.
İntiqama hazır olsun hər əsgər,
Şəhidlərin səngər yeri soyuyur...

Bizə öyüd qoy verməsin hər duran,
Ürəyimiz qələbəylə döyünür!!.
Bəytəpədə düşmənə qan udduran,
Vətən, igid Şahidlərlə öyünür.

**Çingiz Teymur ZƏKULLA**

# HƏYAT SAVAŞ MEYDANIDIR

**Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda qəhrəmanlıqla vuruşmuş, Bəytəpə döyüşündə xüsusi sücaət göstərmiş, gözəl insan Şahid Həbibullayevə həsr edirəm**

Haraya hay vermir, köməyə yetmir,
Ölümlə üz-üzə durmayan insan!
Vətən, yurd uğrunda döyüşə getmir,
El üçün yaradıb qurmayan insan!

Hər bağban payızdan bəhərlə çıxmaz,
Hər adam döyüşdən zəfərlə çıxmaz,
Qaranlıq gecədən səhərlə çıxmaz,
Haqqın keşiyində durmayan insan!

Ürəkdən yanmasan gözdə yaş olmaz,
Qorxaqdan general, ərən, baş olmaz,
Saf, təmiz vicdanlı vətəndaş olmaz,
Ömrün mənasına varmayan insan!

Həyat bir savaşdır, deyil boş həvəs,
Sonuncu ümiddir - sonuncu nəfəs,
Fərhadlıq eşqinə düşməsin əbəs,
Külüngü qayları yarmayan insan.

Namiq, ötən günlər geriyə dönməz,
Didərgin dərd çəkər, gülüb-sevinməz.
Zirvəyə ucalmaz, dərinə enməz,
Özündən - özünü sormayan insan!

**Namiq ATABƏYLİ**

# İGİDLƏR SƏNGƏRƏ QAYITMALIDIR

**Qarabağ müharibə veteranı, "Azərbaycan bayrağı" ordenli Şahid Həbibullayevə ithaf edirəm**

Vətəni qorudun - aranlı, dağlı,
Qorxmaz qəhrəmansan - bu yurda bağlı.
Azərbaycanın hər ər, igid oğlu -
Qəzəb qılıncını oynatmalıdır -
İgidlər səngərə qayıtmalıdır!

Yad əllərdə qalıb torpağım, daşım,
Qoyma xəcalətdən əyilsin başım.
Götür silahını Şahid qardaşım -
Qəlbimizdə qeyrət boy atmalıdır.
İgidlər səngərə qayıtmalıdır!

Şeytan yuvasında boğulsun deyə,
Düşmənin qalası dağılsın deyə,
Millət öz yurduna yığılsın deyə,
Oğullar döyüşə can atmalıdır!
İgidlər səngərə qayıtmalıdır!

Qələbə marşını çalmaqdan ötrü,
Yağıdan qisası almaqdan ötrü.
Torpağın sahibi olmaqdan ötrü,
Vuruşan qorxunu unutmalıdır.
İgidlər səngərə qayıtmalıdır!

Vətəndir hər şeydən ulu, müqəddəs,
Vətəndaş Vətəni unudarmı bəs?!
Əlinə silahı götürən hər kəs -
Düşmənin bağrını qanatmalıdır,
İgidlər səngərə qayıtmalıdır!

Süngüylə düşmənin qəbrini qazın,
Payı ölüm olsun qoy insafsızın!
Döyüş başlanan gün igid Şahidlə-
Gileyli Bəyləri döyüşə yazın!
Kişilər kişitək vuruşmalıdır,
Silah hazırlayın veteranlara-
İgidlər səngərə qayıtmalıdır!

**Gileyli BƏYLƏR**

# SƏNİN QƏDƏR

**Azərbaycan torpaqlarının bütövlüyü uğrunda sinəsini mənfur fikirli ermənilərin aftomatının gülləsinə sipər verən, xalqımızın qeyrətli oğlu, Şahid Həbibullayevə ən böyük sevgi və sayğılarla!**

Ay Şahid, bu xalqın dərdi-sərini,
Çəkəmməz çiynində fil, sənin qədər.
Hay-haray qoparıb kükrəyə bilməz,
Daşqın sənin qədər, sel sənin qədər!

Tanrı yaranmışlar içindən seçib,
Sənin varlığını hikmətdən biçib,
Söyləsin həyatda, desin kim keçib,
Bu qədər əzablı yol, sənin qədər!

Elə bir atəşsən, odun sönməyib,
Amalın, əqidən haqdan dönməyib,
Hörmətə, qiymətə qardaş, minməyib,
Gövhər sənin qədər, ləl sənin qədər!

Bu xalq indiki tək bar dərməyibdi,
Sənin tək ər, soltan, xan görməyibdi,
Susuz səhralara can verməyibdi,
Misirdə zəhimli Nil sənin qədər!

Mərhəmsən Allahın duası kimi,
Məğrursan ərənlər qalası kimi,
Ən əziz, hörmətli balası kimi,
Heç kəsi sevməyib el, sənin qədər!

Nadan səni duyub anlaya bilməz,
Könlünün səsini dinləyə bilməz,
Min fəryad qoparıb, inləyə bilməz,
Nə tarda, kamanda tel, sənin qədər!

Eldar Həsənliyəm, selə baxmayıb,
İldırım göylərdə belə çaxmayıb,
Heç bir ürəklərdə iz buraxmayıb,
Həftə sənin qədər, il sənin qədər!

**Eldar HƏSƏNLİ**

# BU AD PLANETİ DOLAŞIB GƏZİR

**"Azərbaycan bayrağı" ordenli Şahid Həbibullayevə**

Şahid Həbibulla - sənətkar, ustad!
Görüb sərgisini Mərakeş, Misir.
Parisə, Londona tanışdır bu ad,
Bu ad planeti dolaşıb gəzir!

Heyranam Oğuzun Muxas kəndinə,
İgidlər, dühalar doğulub burda.
Yenə vəsf eləyib deyim indi nə?
Mənlik məhəbbətdən yoğulub burda!

Şahid, şəlalənin gurultusunu,
Dinləyib özünü xoşbəxt sanarmış.
Daşağıl çayının şırıltısını,
Nəğməyə bənzədib duyğulanarmış.

Fəsillər arxada, fəsillər öndə,
Təzadla doludur ömrü, həyatı.
Həzin səhifədir hərb tarixində,
Horadiz-Bəytəpə əməliyyatı!

Qarabağ uğrunda gedən döyüşdən,
Qayıdıb yaralı veteran kimi.
Qalır xatirələr neçə görüşdən,
Düzülüb ötən ay, il karvan kimi.

Atılıb qumbara, partlayıb mərmi,
O, isə bərkiyib atəş içində.
Asif Rüstəmlinin dostu, həmdəmi,
Örnək-nümunədir gənclik üçün də.

Mis qab, mis tərəzi, mis çıraq səf-səf,
İtmiş sərvətidir uzaq keçmişin.
Tapıb - təzələmək ucalıq, şərəf!
Şahid sahibidir bənzərsiz işin.

Qabarlı əlləri oynayır pasla,
Elə sadədir ki, sevir fəhləsi.
Yersiz, şit tərifi xoşlamır əsla,
Yaltaq adamlardan gedir zəhləsi.

İncilər içində qurar şahlığın,
Halal zəhmət ilə ömür sürəndir.
Şahid vurğunudur xeyirxahlığın
Dosta təmənnasız çörək böləndir.

Mühəndis atanın iki oğlu var:
Böyüyü Şahindir, kiçyi İlqar.
Şahidlə cəbhədən keçiblər, hətta-
Azyaşlı məktəbli olanda onlar.

Şirindir müqəddəs əməyin barı,
Gec-tez çiçəklənər saf niyyət, güman.
Şahid əsərimin baş səbəbkarı!
O, həm istedaddır, həm də qəhrəman!

Yayılıb şad xəbər sorağı bu gün,
Zirvədən-zirvəyə doğru yol gedir.
Şanlı "Azərbaycan bayrağı" bu gün,
Döşündə parlayan inam rəmzidir!

Şahid Həbibulla - sənətkar, ustad!
Görüb sərgisini Mərakeş, Misir.
Parisə, Londona tanışdır bu ad,
Bu ad planeti dolaşıb gəzir!

**Oqtay RZA**

# AY ŞAHİD QARDAŞ

**"Azərbaycan bayrağı" ordenli Şahid Həbibullayevə ithaf**

Kükrəyən dənizdir ürəyin sənin,
Nadana, yağıya sən əymədin baş.
İlk gündən kəsildin düşmənə qənim,
Susmayır dil açır o qanlı yaddaş,
Ay Şahid qardaş!

Dedin Qarabağı azad etməli,
İrəli, irəli, ancaq irəli.
Hər şeydən sən üstün tutdun səngəri,
Coşub, çağlayırdı od qəlbin qardaş,
Ay Şahid qardaş!

Döyüş meydanları meydanın oldu,
Torpağa bələnən al qanın oldu.
Vətənə can deyən öz canın oldu,
Qələbə gününü biz görəydik kaş,
Ay Şahid qardaş!

Sanki yer titrədir ayağın sənin,
O uca dağlardır dayağın sənin,
Sabaha boylanır bayrağın sənin,
İnamla addım at qabağa bir baş,
Ay Şahid qardaş!

Sübhün dan yerində tutmusan qərar,
Ey vətən övladı, böyük xilaskar!
Qarşıda ən çətin, ağır döyüş var,
Şahid, Şahid deyir hər qaya, hər daş,
Ay Şahid qardaş!

**Balayar SADİQ**

# SANCAQ İRƏVANA BAYRAĞI, ŞAHİD

**Xalqımızın qeyrətli oğlu Şahid Həbibullayevə ithaf edirəm**

Oğuz ellərindən gedib cəbhəyə,
Kişi tək dayandın sözündə, Şahid.
Öncə ana Vətən, xalq deyə-deyə,
Ucaldın hamının gözündə, Şahid.
Kişi tək dayandın sözündə, Şahid.

Bilirlər hər işə gərəkliyini,
Polad inamını, dağ bərkliyini,
Sən alıb Bəytəpə yüksəkliyini,
Düşmən sinəsini dağladın, Şahid.
Arana yolunu bağladın, Şahid.

Alqışla söylənir təpər, qeyrətin,
Vətən məhəbbətin, yurd məhəbbətin,
Soyun tək özün də mənimsən, mənim,
Aslanlar bənzəyir aslana, Şahid.
Hünərin layiqdir dastana, Şahid.

Vurdunuz dörd tankın qarı düşmənin,
Doldurduz canına qoru düşmənin,
İtibdir qeyrəti, arı düşmənin,
Gəlsə, yenə azman olarsan, Şahid.
Sən “Milli qəhrəman“olarsan, Şahid.

Bütün döyüşlərdə zəfər çalmısan,
Qazi doğulmusan, Qazi qalmısan.
"Azərbaycan bayrağı" nı almısan,
Örnəksən gör neçə əsgərə, Şahid.

Bu gün Qarabağın yoldadır gözü,
Dolaşıq düşübdür gecə-gündüzü.
İntiqam istəyir hər dağı-düzü,
Yerisək düşmənin üstünə, Şahid.
Vətən hünərlərə olacaq şahid.

Savaş qurtarmayıb, son savaş durur,
Durur o əzəlki əzəmət, qürur.
Nəsibəm, ürəyim savaşla vurur,
Sancaq İrəvana bayrağı, Şahid.
Qurtaraq əbədi torpağı, Şahid.

**Nəsib QARAMANLI**

## БОЕВОЙ ОФИЦЕР

***Посвящается Шахиду Габибуллаеву, кавалеру ордена “Знамя Азербайджана”***

Пули свистели над головой
Слева и справа,
Но офицер вернулся домой
С битвы кровавой.
Страх перед смертью преодолев,
Храбро сражался.
Он Карабах защищал, словно лев,
И не сдавался.
Да, получил офицер ордена,
Честь не теряя.
Но продолжается эта война,
Снова стреляют!
Вновь орошает кровью поля
Враг наш заклятый!
Сколько ещё шехидов земля
Примет в объятья?
К миру соседи захлопнули дверь,
Лгут, не стесняясь.
Часто не спит боевой офицер,
С прошлым встречаясь.
Видит он лица погибших друзей
Верных, отважных.
Слышит рыдание вдов, матерей-
Как это страшно!

**Александр Родионов**

# ŞAHİD HƏBİBULLAYEVƏ HƏSR OLUNMUŞ POEMA

# ŞAHİD

*(lirik-fəlsəfi poema)*

**"Azərbaycan bayrağı" ordenli kavaler Şahid Həbibullayevin odisseyası**

## PROLOQ

Bir kərə yüksələn bayraq,
Hürriyyətlər doğdu səni.
Bir kərə yüksələn bayraq,
Əsarətlər boğdu səni.

Qılınc vuran qolumuzsan,
Sən azadlıq yolumuzsan.
Simurq kimi doğulmusan,
Bir kərə yüksələn bayraq.

Topla yenə gücümüzü,
Yenilməyən əzmimizi.
Nəsil-nəsil qaldır bizi
Bir kərə yüksələn bayraq.

# I HİSSƏ:

## 1. YOL

Qafqazdan çağlayan
Daşağıl kimi,
Azadlıq eşqilə
yaşayır Muxas.
Bu günü, sabahı,
əsli, qədimi
Şərəflə çiynində
daşıyır Muxas.

Dağlar ətəyində
cənnət Oğuzun
Hər daşı, kəsəyi
"Oğuznamə"dir.
Nigardır, Həcərdir
gəlini, qızı,
Hər Oğuz əəni
bir Şahnamədir.

Zirvəsi qartallı
uca dağların
Hər məğrur igidi
bir sal qayadır.
Yurda halal etmək
öz haqqın, varın.
Dədədən-babadan
qızıl qaydadır.

Sərin bulaqların
  ayna üzündə
İsmətli qızların
  əksi parlayır.
Daşağıl boyunca
  lilpar ətrində
Gözəllik dünyaya
  məhəbbət yayır.

Oğuz dara düşsə,
  topdan, tüfəngdən
Öncə bayatılar,
  laylalar dinər.
Ərənlər dərs alıb
    şirdən, pələngdən;

***ƏDALƏT SUSANDA,***
  ***QAYALAR DİNƏR...***

Hər qadın ürəyi -
  öz halal əri
Hər kişi sevgisi -
  öncə yurdadır.
Oğuzda soruşsan
  bəy ərənləri
Hər qapı səslənər:
  "Burda, burdadır!.."

Bəyaz qar örtülüb
ağ örpək kimi

İsmətli dağların
gəlin başına.
Beşikdə körpənin
bir örnək kimi
Müridlər köçüblər
qan yaddaşına.

Daşağıl boyunca
atlı keçiblər
Mürid Şeyx Şamil,
Şeyx Məhəmməd...
Burda igidlərin
atası-Hünər!
Burda şəhidlərin
anası-Cənnət!

Coşqun sularında
dağ çaylarının
Müdrik Şeyxlərin
səbiri daşar.
Dağlar ölkəsinin
dolaylarında
Mərd Hacı Muradın
harayı yaşar.

Burda hər bulağın
könül nəğməsi,
Hər daşın məhəbbət
nağılları var.

Hər Oğuz elinin
  öz əfsanəsi,
Hər evin Şahid tək
  oğulları var.

Millətin misilsiz
  sərvət-varıdır,
Qoruyan oğullar,
  quran oğullar.
Allahın yerdəki
  sütunlarıdır -
Sözünün üstündə
  duran oğullar.

Gəl əziz oxucum, birlikdə çıxaq
Şahidin ömrünün səyahətinə.
"Oğuz" dastanından incilər yığaq -
Qoşulaq Xan Qazan şücaətinə.

Arzular ürəyi yollara çəkər,
O, yol mühəndisi olmaq istədi.
Həyat bir uzun yol, tale bir təkər,
Məqsəd finişəcən getməkdir! - dedi.

***RİCƏT***

Bu qartal atlaslı Azərbaycanın
Qartal qanadını gərdiyi yoldur.
Azadlıq bayrağın başının üstdə
Günəştək tarixə sərdiyi yoldur.

Xəzərin ən dərin qatlarındadır
Bir millət, xalq kimi bizim təkimiz.
Biz qədim dünyayıq - "Əhdi-cədiddən",
Altaydan, Şumerdən gəlir kökümüz.

Böyüklük ummadıq, böyük doğulduq
Öz doğma yurdumuz, öz elimizlə.
Tarixlər yarandı əməlimizdən,
Biz tarix yazmadıq öz əlimizlə.

Yollar uzandıqca arzu böyüyər -
Fəhləlikdən gələn bir rəhbər oldu.
Ağac bar verdikcə başını əyər
Ona dağlar qədər hörmət qoyuldu.

Şahidim bu çətin həyat yolunda
Tanındı pak adı, əməli ilə.
Dünyanın gücünü duyub qolunda
Yaratdı taleyin öz əli ilə.

...Birdən çərxi-fələk döndü geriyə -
Aydın fəzaları buludlar aldı.
Kreml uyduqca şər erməniyə -
Qızıl imperiya rəsmən dağıldı.

Çox qısa dönəmdə ara qarışdı,
Süd ağla ən zülmət  qara qarışdı.
Hər  bir fərd, hər millət üz-üzə durdu -
Kimisi vuruldu, kimisi vurdu...

## *OYUN*

Cəllad qurbanına qonaqlıq verir,
Kabab oyundadır, köz oyundadır.
Vədəbaz kürsüyə sinəsin gərir--
Söhbət oyundadır, söz oyundadır.

Xalqa loğman olub hər ruhi xəstə,
Məsciddə oturub şeytanlar bəstə.
Siyasət qurulub vədlərin üstə--
Hamam oyundadır, qoz oyundadır.

Matəm dəli üçün əsl toy-düyün,
Başsızlar qatırlar başın millətin.
Vətən ruletkada fırlanır hər gün:
Əyri oyundadır, düz oyundadır.

Əğyar cəzb eləyir hər ülkər yarı,
Doğruluq üz tutur hiyləyə sarı.
Şouya başlayıb el sənətkarı --
Kaman oyundadır, saz oyundadır.

Başsızlar baş olur "başçı" işində
Qarğa büsat qurur qartal leşində.
Ər qürbət ellərdə “çörək peşində”--
Arvad oyundadır, qız oyundadır.

Həqiqətin yeri xülyalarındır,
Qardaşdan irəli yenə qarındır.
Meydanlar siyasi “peşkalarındır” -
Butulka oyunda, paz oyundadır.

QIRMIZI mafiya görür işini--
Məhkəmə qururlar Azərbaycana.
Qıcardıb Qıdılyan köpək dişini
Bakı, Naxçıvan, Qax, Gəncə, Şirvana...

Qanuna sığışmaz, hüquqa gəlməz
Bu məlum oyunlar, məchul oyunlar.
Kremlə zəfərlər gətirə bilməz
Balayan beyinli cahil oyunlar.

**2**

1988-89-cu illər Şahid Həbibullayevə qarşı saxta cinayət işləri - №019009 ***(SSRİ DTQ-sı), №18 67870-89 və №18-67801-89 (SSRİ Baş prokurorluğu)*** açılır. O, DTK istintaq təcridxanasına salınır.

***DÜŞÜNCƏLƏR***

Nədən tale qovur bir qaçqın kimi
Özümdən, dünyadan, zamandan məni?
Sevincə yetməyə atıb dərd, qəmi
Həyat məhrum edir imkandan məni?

Tutubdur zalımlar sağla solumu,
Zəncirlər sarıbdır əjdər qolumu.
Çəkib uçuruma həyat yolumu
Tale təcrid edib sükandan məni.

Cəlladlar zülmdən keflərə uyur
Nə şərdən usanır, nə qandan doyur.
Hakimlər vicdanın hərraca qoyur,
Çıxarın bu murdar dükandan məni.

Yolumda minlərcə köpəklər hürür,
Xəyanət dövrəmə tələlər hörür.
Sinəmdən iblisə nifrət püskürür
Tanıyın bu sönməz vulkandan məni.

Üz-üzə qoyulur
        bu "məhkəmə"də
Qardaş qardaş ilə,
        dost da dost ilə.
Qarışıq zamanda,
        məhkum ölkədə
Böhtanlar qiyamdır,
        Vicdan -Bastillə.

Vətənin tarixi ahu-zarıdır,
Millətin inamın qıran oğullar.
Tanrının Yerdəki sütunlarıdır,
Sözünün üstündə duran oğullar.

Evlər alışanda, ciyər yananda
Qurunun odları tez yaşa keçir.
Zamanə doğrunu ayaqlayanda
Qorxaqlar, yaltaqlar tez başa keçir.

***RİCƏT:***

Hərdən soruşuram mən öz-özümdən:
Taleyin yolları haradan keçir?
Aslanlar, pələnglər niyə güllədən,
Çaqqallar, tülkülər aradan keçir?!

Ümid bağlamaram quru minnətə,
Bilet aramaram hazır cənnətə.
Tarixə yazılan şana-şöhrətə,
İsgəndərin yolu Daradan keçir.

Həyat çox gözəldir:
baxsan uzaqdan.
Qorun yaxındakı şərdən,
nahaqdan!
Həqiqət yolunu küncdən, bucaqdan,
Yalanlar meydanı
paraddan keçir.

Hərdən bir, oxucum, soruş özündən:
Nələr gizlətmisən sən öz gözündən?
Şairin incimə acı sözündən -
Tarix ac kağıza qaradan keçir.

...Cənab Morozovun qədəmlərilə
Şimaldan ayazlar, şaxtalar gəlir...
Qıdılyan-İvanov birgə şərilə
Qandallar, medallar, noxtalar gəlir.

Tfu, məntiqə, mahiyyətinə,
A saxta "qardaşlıq", a "dostluq" sənin.
O kündə başına, mis sifətinə,
Yazılıb əbədi quduzluq sənin.

Qeyrət azalanda, ar tükənəndə
Torpağı çayırtək xəyanət basır.
Hünər meydanında ər təklənəndə
Dünyanı, ölkəni cinayət basır.

Qızıl imperiya xas oğulları,
Qanun pərdəsilə salır məhbəsə.
Həmzələr uydurub boş nağılları,
Qoç Koroğluları alırlar həbsə.

Məmləkət bölünüb iki hissəyə:
Acı yeyənlərə, bal yeyənlərə.
Nəmər paylanılır tülkü hissəyə -
Qıdılyan oynunda xal yeyənlərə.

Tarixin gözləri kor olub daha,
Haqqı tapdalanmış insanı görmür.
Bu gündən bir körpü yoxdur sabaha -
Gözlər işıqucu imkanı görmür?

167-nin birinci qismi
Bax, budur - Şahidin cinayət işi.
Qumara qoyulub hər kəsin ismi:
Üz-üzə durubdur 10 nəfər kişi.

DTK. Bir saylı Ölüm kamera -
Doqquz ay işgəncə, əzab, iztirab.
Budur texnotron Qorbaçov era:
85 cildlik bir ittiham-kitab.

Budur "Azadlığın" ilk səhifəsi -
Erməni-azərtürk durub üz-üzə.
Bürüyüb dünyanı haqqın naləsi -
Yalan hökm oxuyur doğruya, düzə.

## *RİCƏT*

Hər diktator doğuran ölkədən, xalqdan
Tarix istibdadla intiqam alır.
Böyük yalanların üstə uzaqdan
Qranit heykəllər kölgəsin salır.

Hökm edir Xeyirə hər yerdə Yaman,
Bahadır taxıldan çürümüş saman.
Məchul bir nöqtədə dayanıb zaman
Müstəbid gəncləşir, millət qocalır...

Xalqın hər hüququ, haqqı boğulur,
Hətta mələklərdən İblis doğulur.
Ucalıq yıxılıb yerlə bir olur,
Alçaqlar Günəşə, Aya ucalır.

Həmzə Koroğlunu qovur meydanda,
Dağdan təpə qalır cəmi bir anda.
Ağıl sürgün olur, hünər-zindanda,
Zöhhak başlar yeyib qüvvə, güc alır.

85 cildlik bu İttiham-Şərin
Hər sözü, kəlməsi iftira saçır.
Üstü açılmayan "cinayətlərin"
Üstünü yalanlar, böhtanlar "açır".

Həqiqət heç zaman yarımçıq olmur,
Haqqın əzəməti bütövlüyüdür.
Yalanlar heç zaman iri doğulmur:
Böhtana uyanlar onu böyüdür.

Kəpənək tək, yarpaq tək
küləklə bir əsənlər,
Ömrunün günlərini
bir təsbehə düzənlər
Azadlıqdan uzaqdır.

Onun-bunun fikrinə
quşqusuz "hə!" deyənlər,
Əqidəyə, məsləkə
uniforma geyənlər,
Həyat acılarını
çörək kimi yeyənlər
Azadlıqdan uzaqdır.

Dalğaların cəngindən
dibə qaçan balıqlar,
İstibdadın zəhmindən
qorxan kölə - yazıqlar,
Avaralıq eləyən bütün
başıpozuqlar
Azadlıqdan uzaqdır.

Dovşan tək qorxaqlığı
düzənliyə yayanlar,
Özünü düşmənindən
aşağıda sayanlar,
Azadlığı uğrunda
hər an vuruşmayanlar
Azadlıqdan uzaqdır.

Səadəti özgənin
əlindən pay alanlar,

Cəlladın qarşısında
rəhmə möhtac qalanlar,
Ümidini özündən başqasına
salanlar
Azadlıqdan uzaqdır.

85 cildlik bu İttiham-Şərin
Hər sözü, cümləsi iftira saçır.
Üstü açılmayan "cinayətlərin"
Üstünü yalanlar, böhtanlar “açır”?!.

Gizli məramı var Baş müstəntiqin
O, türkün məhvinə yollar arayır.
Salıb tank gücüylə işə məntiqin
"Böyük Hayastana" dollar arayır.

Aldanır oyunda məhkəmə əhli,
Gərdundan xəbərsiz məzhəkə əhli.
Baxır məzhəkəyə qəzəblə Şahid,
Bu qanlı tarixə o canlı şahid.

Baxır ər sözündə dil qıranlara,
Yalanın önündə mil duranlara.
Baxır satqınlara, nakişilərə,
Nifrəti, qəzəbi dönür şeirə.

Təpədən dırnağa qəlpsən, saxtasan,
Yoxdur prinsipin, ər sözün sənin.
Sabun köpüyüdür, kül tüstüsüdür,
"Kişi"tək verdiyin hər sözün sənin.

Çoxmuş yabanılıq insan "sortunda"
Gör kim lövbər salıb "Bakı portunda"?!
Bir kişi oğlusan öz pasportunda -
Bir arvad oğludur tərs üzün sənin.

Çaqqallar tac qoyub,
şir palanlıdır.
Zatın itirmişlər
adlı-sanlıdır.
Dəhrin hər gecəsi
ikicanlıdır -
Bilinməz nə doğar
gündüzün sənin.

Bilmədiyin yola göz yumub getmə,
Hər ovun üstünə tez cumub getmə,
Tam dəvə cinsisən, aslanlıq etmə -
Hazırdır belində hürgücün sənin.

Tazı yaxşı bilir ovun iyini,
Çobana gülabdır atın peyini.
Burax bilmədiyin dəlləkliyini -
Özünü kəsəcək ülgücün sənin.

Dədələr: "Dişə-diş! Qan, -deyib, - qana!"
Yetirər mərdləri ölümlər şana.
Həyat bir savaşdır,
girmə meydana -
Həm ağılın yoxdur,
həm gücün sənin.

Qırılıb qeyrətin qanadı, dizi
Boğur alovları ocağın hisi.
Sənin qaranquşun xəzan elçisi -
Ayaz, qar gətirir nərgizin sənin.

Qlobal fırıldaq təzə başlayır
"Qıdılyan-İvanov, Morozov"-gediş.
Qorbaçov dünyaya iblislik yayır,
Çərxi-fələk edir tərsinə gərdiş.

...Şahid öz əlilə açıb qapını
Qayıdır vəzifə başına təkrar.
“Meşəni məhv edən balta sapını
Özündən düzəldər mahir ustalar”.

Qayıdır üzünə durmuş kəslərin
Gözünün içinə yenidən baxa.
Allah da kərimdir: quyusu dərin.
İnsan ümid ilə gedər sabaha.

Qlobal fırıldaq - Qorbaçov Mişa...
Qoyulur üz-üzə hər fərd, hər millət.
Yenidənqurma əsl "komik" tamaşa:
Pərdə arxasında qanlı cinayət.

Çıxıb məcrasından dəli sel kimi,
Yurddan qürbətlərə axır adamlar.
Ölkə "Titanik"tək batan bir gəmi -
Ölür fəlakətlə fağır adamlar.

Qaçqını, köçkünü eşidən yoxdur,
Alınıb torpağı, evi özündən.
SSRİ deyilən müqəvva budur?!
Xalq batır nadanın "səhvi" üzündən.

Bizdə quş tüfəngin tutub alıblar,
Həm göy qan ağlayır, həm də yer yanır.
Burda vəlvələyə xalqı salıblar,
Yerevan anbaan hey silahlanır.

Dığalar arxalı -əli silahlı,
Qorbaçov önündə büsbütün haqlı.
Öz qətliamında bizik günahlı
Gündüz haqq gəzirik əli çıraqlı.

Gedir "demontajı" vicdanın, əqlin,
Gedir həqiqəti pozan oyunlar.
Gedir "uğurunda vətənin, xəlqin"?!-
Fərdin məzarını qazan oyunlar.

Qaldırıb kürsüyə alçaq kəsləri,
Çevirib mandata saxta "səsləri".
Bütün bəlaları, faciələri,
Keçmişin adına yazan oyunlar.

Hər şəhər, hər oba, ev batıb qana,
Divanlar tutulur Azərbaycana.
Milləti çevirib gur mikrafona
Oyunun ardında susan oyunlar.

Yatmayıb gecələr səhərə kimi
Şahid vəziyyəti təhlil eləyir.
Dünya çalxalanır bir nehrə kimi
O, qorxan hər gözə çöp düşər, - deyir.

### *AĞIL*

Ağılsız kəllələr bütə enərlər
Dünyanın başında duran - ağıldır.
Ağıllı canlılar şirə dönərlər
Cəsarət - ağıldır, meydan - ağıldır.

Ər evin dağıdar çənə arvadlar,
İgidə nə gərək yüyənsiz atlar?!
Axmağın davası başında çatlar,
Savaşı aparan, vuran - ağıldır.

Dəlidir - külək tək dörd yana əsən,
Atadan, anadan, qardaşdan küsən.
Düşmənin önünü sədd kimi kəsən,
Dostun arxasında duran - ağıldır.

Səbrlə tükənməz çəkilən çilə,
Sirrini yad yerdə gətirmə dilə.
Qəvi düşməninə yamanlıq elə
Təxribat ağıldır, taran - ağıldır.

Qurar puç ümidlər, cəfəng xəyallar,
Oyuncaq krala boz kardinallar...
Gic başdan əksilməz boş qeylü-qallar.
Dağlar--sonsuz gücdür, aran--ağıldır.

Mәna bulağından arif su içәr.
Ağıllı yüz ölçüb, bir sonda biçәr.
Zәfәrin yolları şüurdan keçәr
Cahad bir ağıldır, Quran - ağıldır.

## 3. HӘR KӘSİN ÖMRÜNDӘN BİR QATAR KEÇİR

Qırmızı imperiyanın süqutu әrәfәsindә qlobal ermәni avantürası - Qorbaçov yenidәnqurması nәticәsindә Azәrbaycan fasilәsiz şәkildә ağır faciәlәrlә üzlәşir. Naxçıvanın blokadası, 20 Yanvar, Qarabağın işğalı vә i.a. Bütün bunlar millәtin tarixi qan yaddaşına çevrilir.

Astara vağzalı. Soyuq qış çağı,
Ana son ümidә bükür qundağı.
Kәsir şaxta, boran nәfәsi burda,
Mәhv olur yaşamaq hәvәsi burda...

Naxçıvan blokada şәraitindә
Qalıbdır yollarda naxçıvanlılar
“Millәt-millәt olur: darda, çәtindә
Dünyanın bu üzü, bir - o üzü var!”

Hansı yollar ilә bu camaatı
Mәnzilә yetirmәk: belәdir soru.
Yaşayır әsrtәk anı, saatı
Avtokombinatın baş direktoru.

Yolda qoca da var, körpə də vardır.
Yolu açıq olan tək intizardır.
Qırılır gözlərdə qızıl inamlar,
Tüpürür Leninə ”köhnə” kişilər.

İki-üç yaşında uşaq nə anlar
Qatarın yolunu kəsibdi "yan"lar?!
Mixail Qorbaçov - Yenidənqurma:
Təkrar-37, Yenidənqırma.

***DİKTATURA***

Boşuna səadət gəzmə burada:
İstibdadda kefi gəda eləyir.
Nə bəndə yetişir, nə Tanrı dada:
Müstəbid hər şeyi əta eləyir.

Hara göz qoyursan hey söküntüdür,
Əməllər - fırıldaq, söz-sürüntüdür.
Ölkədə hökumət boş görüntüdür -
Yurdda hökmləri “çete” eləyir.

Tarixi "uğurlar" - alqış, çəpikdir,
Qanunlar ağızdan axan köpükdür.
İnsanın qiyməti bircə qəpikdir.
Dövran hər hörməti itə eləyir.

Məclisin sükanı verilir səyə,
Malını oğrudan alammır yiyə.
Haram imarətlər baş vurur göyə
Amillər vergini lütə eləyir.

İstibdad zülmətdir heç sabahı yox,
Məzlumun, kasıbın heç pənahı yox.
Bəlkə, müstəbidin heç günahı yox -
Xalqa nə eləyir Xuda eləyir?!.

...Əyarı dəyişməz xalis insanın,
Dərin düşüncələr üzür Şahidi.
Bu alçaq rejimin, qanlı dövranın
O bir Şahididir, mən bir şahidi.

Nazirə söz verib o - kişi sözü,
İki sutkadır ki, yumulmur gözü.
Onun nə gecəsi, nə gündüzü var,
İranla aparır sərt danışıqlar.

Nəhayət, razılıq alınır şərtlə:
Bütün "İkarus"lar möhürlənməli;
Keçib İran üstdən böyük sürətlə
Cəmi bir sutkaya geri dönməli.

Narahat Bakıda rəhbərlik bu an,
Qəti əmr eləyir: "Sərhədi keçin!
Yazın marşruta "Bakı-Naxçıvan"
İranda ən qısa yolları seçin!"

Dözməyib taleyin ağrılarına
Bitirdi ömrünü yolda bir qoca.
Bu gündən suallar yağır yarına:
Kimlərdir günahkar bir belə suça?..

## *RİCƏT*

Bir ömür qıl üstə yeriyir insan
Tale hamı üçün Bərxət kimidir.
Əcəl bir gün artıq verməz heç imkan.
Ömür ələ düşən fürsət kimidir.

Mühit məhbəsində boğulur həvəs,
Ehtiyac cəngində kəsilir nəfəs.
Sabaha üz tutub yaşayır hər kəs:
Ümid doyurmayan işrət kimidir.

Göy üzü buludsuz, aysız ötüşməz,
Günəşin kölgəsi özünə düşməz.
Məcnunun Leylaya əli yetişməz -
Məhəbbət ömürlük həsrət kimidir.

Şairim, sızlayır durmadan yaram.
Azadlıq! - deyibən zar-zar ağlaram.
Adəmlə Həvvadan başlayıb haram:
Yaşamaq - taleyə rüşvət kimidir.

Demə bu dünyanın işi bəllidir;
Bayaq diri olan indi ölüdür.
Qadınlar, uşaqlar qorxu içində -
Yatır "bığıbəylər" pərqu içində

Odur "İlan dağı" əsrlər yorub,
Naxçıvan gecəni yuxusuz qalıb.
Möminəxatunum günəşlə durub,
Sayəsin tarixin üstünə salıb.

Abidə önündə durdu maşınlar...
Şəhər doğmaları arayır burda.
Nə qədər yollarda hələ qalan var -
Millət nələr çəkmir şaxtada, qarda.

Şahid göz gəzdirir. Meyid-sahibsiz...
İnsan diri gedib, ölü gəlibdir.
"Qocanı" öz evi gözləyir, hərgiz
Durna köç eləyib, teli gəlibdir.

Yorğunluq Şahidin qəddini əyir,
Yaxşılıq itirən deyil Naxçıvan.
Mühüm tapşırığa əməl eləyir,
"Yükü" son mənzilə çatdıranacan.

Qoşulub ürəkdən obaya, elə
Şahid bu dəfndə iştirak edir
Dönür ürəyində qəzəbi selə -
Axı, bu qocanın günahı nədir?

Necə doğru demiş qoca Şirazi,
Bəşər bir bədənin üzvləridir.
İnsan ola bilməz ölümdən razı -
Hər yaşayan -ölən bizdən biridir.

***RİCƏT***

Bir can borcumuz var qoca dünyada
Uca Tanrımızın öz qarşısında.
Bu borc qaçılmazdır cəhdlər bihuda
Sərvət qarşısında, söz qarşısında.

Oğrular qanundan qalalar qurub,
Cinayət cəzaya qandallar vurub.
Yalan həqiqətin taxtında durub,
Düzü görən yoxdu göz qarşısında.

Başa da düşülmür kim-kimdir, nədir?
Sənə kim doğmadır, kim biganədir.
Qarğalar bülbülə nəğmə öyrədir,
Kül oddan danışır köz qarşısında.

Ər başı namərdlər qoltuğundadır,
Ac ölkə vədlər bolluğundadır.
Koroğlu Həmzələr "qulluğunda"dır
Yaxşı boyun əyib pis qarşısında.

Ariflər zülmətdə, əskiklər taxtda,
Fırlanır geriyə fələk də, vaxt da.
Mizanlar pozuqdur, əyarlar saxta
Qızıl qiymətsizdir mis qarşısında.

Neçə diləyimiz qalıb ürəkdə
Yarıyuxuluyuq, yarı gerçəkdə.
Həyatı nə qədər əyri getsək də,
Durmuşuq ölümün düz qarşısında.

Kreml oynayır Qərblə üz-üzə
Qurbanlıq rolunu veriblər bizə.
Qlobal fırıldaq belə qurulub,
Altında "Qorbaçov" imzası durub:

Xırda ölkələrə "azadlıq" vermək.
Sonra ayrılıqda üstə yerimək.
Zəifin malını əlindən almaq.
Hər kəsi çıxılmaz labirintə salmaq!

İmperiyaların qürub çağında
Xırda tiranları başa çıxarmaq.
Milli istiqlalın addımlığında
Millətin ümidin boşa çıxarmaq.

Qlobal maliyyə böhranlarının,
Ağzına fəhləni, işçini atmaq.
Durub tərəfində haram, harının,
Dollar dünyasının ömrün uzatmaq.

Xırda çəki daşı - xırda talelər -
Balansı yerində saxlamaq üçün.
Bürüyüb səmanı ahu-nalələr:
Dolubdur buludlar ağlamaq üçün.

...Qoşulub bu yasda obaya, elə
Şahid dəfndə də iştirak edir.
Dönür ürəyində qəzəbi selə
Axı, bu insanın günahı nədir?

Bəli, bu dünyada oyunlar gedir,
Zaman zəifləri belə məhv edir.
Biri vardı ilə başlayır həyat,
Biri yoxdu ilə nağıllar bitir...

### *QATAR*

Hər kəsin ömründən bir qatar keçir,
Hərənin əlində bir bileti var.
Kimsə bu qatarı yanılış seçir
Hərdən səhv düşür tale-ünvanlar.

Heç kəs ilk vağzalda qalmaq istəməz,
Arzular ürəyi yollara çəkər.
Qoparar insanın taleyində səs
Bir qatar, bir vaqon, bir də ki təkər.

Gen dünya insanın başına dardır
Çoxu doğmaların gözündən uzaq.
Hər kəsin qəriblik dastanı vardır
Hamı ömür sürür özündən uzaq.

Ölüm vağzalıdır sonuncu ünvan
Bütün həsrətlilər burda görüşər.
Hər kəsə son kərə qurular divan:
Hər bəxtə, taleyə bir son gün düşər.

Hər kəsin ömründən bir qatar keçər,
Hərənin əlində öz bileti var.
Çoxu ünvanını yanılış seçər
Hamını bir yerə gətirər qatar.

## II HİSSƏ. MÜHARİBƏ - olduğu kimi

**93-cü ilin ortaları.**

Respublika xaosa sürüklənib. Ölkədə hakimiyyət dəyişikliyi baş verir. Yeni Ali baş komandan xalqı işğal edilmiş ərazilərin müdafiəsinə çağırır. Bizim qəhrəmanımız da dərhal bu çağırışa qoşulur. O, Şəhərlərarası və Beynəlxalq Daşımalar Birliyinin baş direktorluğundan istefa verib, Qarabağ uğrunda vuruşmaq üçün paytaxtın Nərimanov rayonundan birbaşa döyüş bölgəsinə yollanır və orada "N" saylı hərbi hissənin 6-cı taboruna başçılıq edir. Atəşkəsəcən xeyli uğurlu hərbi əməliyyatlar keçirir, yüksəkliklərin alınması, ərazilərimizin azad edilməsində mühüm rol oynayır. Yaralanır - II qrup Qarabağ müharibəsi əlili və "Azərbaycan bayrağı" ordeni ilə geriyə -

öz köhnə əmək kollektivinə dönür və ona yenidən rəhbərlik edir. Hal-hazırda o, "Magistral-Ekspress" Açıq Tipli Səhmdar Cəmiyyətin prezidentidir. O, bu gün eyni zamanda qədim mədəniyyət abidələrimizin qorunub saxlanması və mənəvi dəyərlərimizin müdafiəsi uğrunda da fəal mübarizə aparır.

Gedir düşmən ilə qanlı döyüşlər
Beyləqan, Horadiz, Füzuli boyu.
Bu böyük tarixi şanlı döyüşlər,
Sınayır qəhrəman Oğuz soyunu.

Burda mənasızdır dialoq, hədə -
Döyüşdə sözünü silahlar deyir.
Müdriklər haqlıdır: müharibədə
Hər güllə bir ana qəlbinə dəyir.

...Qara pencəyini atıb çiyninə
Şahid bulvara da gedə bilərdi.
Almayıb Vətəni, Xalqı eyninə -
Həyatı əyləncə edə bilərdi.

Gedir Qarabağa vətənsevərlər
Dönür ev-eşiyə bədənsevərlər.
Savaşın ruhudur döyüşən əsgər!
Milləti tarixdə yaşadır hünər!

Savaş yalnız qəzəb, kin demək deyil -
Namusdur, vicdandır, ibrət dərsidir.
Günəş yalnız işıq, gün demək deyil -
Həyatdır, sevincdir, eşqdir, arzudur.

Sərvətin, mənsəbin yanından keçər
Döyüşü taletək qəbul edənlər.
İnsanlıq uğrunda canından keçər -
Həyatı ölümlə kamil edənlər.

Bir meydan - Bakıdır, biri - hərbiyyə
Hərənin bir şeyə qarışıb başı.
Vətəni bölüblər iki cəbhəyə -
Vəzifə savaşı, Torpaq savaşı!

Zorun qarşısında zor olmalıdır:
Tarix imtahana çəkir ərləri.
Zori Balayanlar kor olmalıdır:
Minir Koroğlular boz kəhərləri!

Şahid ikinci kəs hərbi and içir -
Başlayır taledə tufanlı günlər.
Millətin ruhudur döyüşən əsgər:
Vətəni tarixə bağlayır hünər.

***RİCƏT***

Mənə dəstək verin, mənə ün verin!
Tarixi nizama sala bilim mən.
Mənə möhlət verin, mənə gün verin
Düşməndən intiqam ala bilim mən.

Alçaq zamanədən cana yığmışam,
Məgər öz evimi özüm yıxmışam?!
Bütün dünya ilə cəngə çıxmışam,
Özümlə təklikdə qala bilim mən.

Düşmən var olubdur yurdumdan "Yox!"dan
Mənim qiyamətim başlanıb çoxdan.
Çıxmışam kənara taledən, vaxtdan:
İsrafil surunu çala bilim mən.

...Onu tanımayan, sevməyən yoxdu
181 saylı hərbi hissədə.
Kapitan qarşıya bir plan qoydu,
Tabor yetəcəkdir, demək, məqsədə...

Gedir Haramidə tank döyüşləri
Yerlə göy lərzəyə gəlib savaşdan.
Hərbidə qanun var əzəldən bəri:
Döyüşdə artıqdır əsgər qardaşdan.

94-cü ilin soyuq yanvarı.
Bəytəpə uğrunda vuruşlar gedir.
Öndədir Şahidin cəsur taboru,
Döyüş qələbəylə, zəfərlə bitir!!

Böyük Qələbənin gəlir sorağı.
Sancılıb zirvəyə Vətən bayrağı!
Alqışlar bürüyüb həm solu, sağı -
Uzaqda deyildir son zəfər çağı.

Harami düzündə, bax, dərs verirlər
Yanıb tüstülənir Haykın tankları.
Bizdə öz qanilə yedizdirirlər
Dəvət olunmamış ac qonaqları.

Zərdablı Haqverdi kimi igidlər
Qurban elədilər Vətənə canı.
Öz cavan ömründən keçən şəhidlər
Ədəbi yaşadır Azərbaycanı.

Milli Ordumuzun zəfər yürüşü!!
Çəkilir geriyə qorxaq erməni.
Tülkü gedə bilməz Aslan yerişi,
Hörmüz yenəcəkdir bəd Əhriməni.

Altıncı taboru düzüb sıraya
Hamını nəzərdən keçirir Şahid.
Savaşın açdığı hər bir yaraya
Vətənin köksündə məlhəmdir şəhid!

## *KÖLƏLƏR VƏ AZADLAR*

Fərman kölə etmir: əsl kölələr,
Qorxudan bağırı yarılanlardır.
Ruhu qul, varlığı qara kölgələr,
Qorxudan ayağa sarılanlardır.

Kimdir qul? - qoy bilsin sözün yeyənlər:
Qul deyil savaşda kəfən geyənlər.
Qul - zülmə, zalıma boyun əyənlər,
Zəfərə ümidi qırılanlardır.

Xoşbəxtlər gülləndə, gözündən gülər.
Gülün günəş eşqi qayanı dələr.
İgid ər alnından gülləyə gələr, -
Kölələr kürəkdən vurulanlardır.

Azaddır - əməli, sözü doğrular,
Azaddır vicdanı gül qoxulular.
Azaddır meydanda Qoç Koroğlular,
Kölələr - savaşdan yorulanlardır.

Cahangir Əliyev - cənab kombriq
Təcili tapşırıq verir kapitana:
Atəş zolağını keçib gələrək,
Görüş istəyibdir gənc ata, ana.

Budur müharibə: ana oğlunun
Yanıb yox olduğu torpağı görür.
Şahid göz yaşı tək yağan dolunun
Vurduğu ziyandan uzağı görür.

**18226305 -**
On səkkiz milyon iki yüz iyirmi
Altı min üç yüz beş nömrəli çaxmaq:
Anaya, ataya gəlmir dərd kimi
Şəhid övladına bu cürə baxmaq.

Dik tutub başını Fəxrəddin kişi
Qayıdır Zərdaba böyük fəxrlə.
Nə zamanı söyür, nə də gərdişi,
Şəhid atasıdır - dözür səbrlə...

İndi bir oğlu yox, min oğlu vardır,
Döyüşən əsgərlər onunkulardır.
Gözün tək arzusu - səhərə bağlı,
Əsgərin həyatı - zəfərə bağlı.

## BİZ

Haqqın dərgahına Fərhadlar kimi
Əlində külüngü gələnlərik biz.
Qəlbində gizlədib kədəri, qəmi
Həsrətin üzünə gülənlərik biz.

Mənasız gəlmədik heç də həyata.
Andı, sədaqəti vermədik bada.
Bu zəri, zərgəri saxta dünyada,
Saf zərin qədrini bilənlərik biz.

Hər ağıl anlamaz sevdanın gücün.
Tacdan yuxarıdır bizimçün hüsn.
Bir zərif ürəyə yol açmaq üçün,
Min dağın köksünü dələnlərik biz.

Birdən uca deyil məqamı yüzün,
Əyrinin ağası, quluyuq-düzün!
Eşqin kitabından xəyanət sözün
Bağrının qanıyla silənlərik biz.

Eldən ayrı deyil bizim baxtımız,
Haqqa dua ilə keçir vaxtımız.
Qurulub qəm üstdə könül taxtımız,
Sevinci hamıyla bölənlərik biz.

Budur, hücumdadır Altıncı tabor
Bəytəpə ardınca daha dörd uğur...
Füzuli. Aşağı Veysəlli kəndi,
Durub yüksəklikdə düşmən: "Əfəndi!"

Artilleriyanın üç saat sürən
Mərmi yağışları. - Dığalar pərən!
Tanklar hücumdadı, top hücumdadı.
Əlimiz daha bir yüksəyə çatdı!

Beyləqan-Horadiz uğurlu yürüş.
Tarixə yazıldı bu şanlı döyüş.
Mükafat ayrılır! 4 milyon manat
Şəhid ailələrə edilir barat.

Uğrunda savaşçın hər daşın, dağın
Əmri gözlənilir komandanlığın.
Vətən sevgisidir ən böyük duyğu,
Milləti yaşadır qələbə ruhu!

Şahidin taboru gizli cəbhənin
Diqqət-nəzərini çəkir özünə:
Öcünü almaqçın hər qələbənin
Neçə sui-qəsdçi düşüb izinə...

94-cü ilin 7 yanvarı.
Gündüz saat 3-4 radələrində.
Alovlu güllələr deşir buz qarı
Taborun 3-cü bölük yerində...

Öndə bir düşmən var - adı erməni -
Arxada neçədir? - onu kim bilir.
Kim açıb Şahidə iki cəbhəni -
Nədir bu oyunun sonu, kim bilir.

Kürək söykədiyi, çörək kəsdiyi,
İnsanı insana nə edib düşmən?
Aruzlar durduqca bir Oğuz bəyi
Sığortalanmayıb namərd güllədən.

"Yaxşı ki, güllədən qurtuldum yenə
Tanrı möhlət verdi ömrümü mənə.
Vətənin nəinki vətəndaşını, -
Qoruyam mən gərək adi daşını!.."

...Hər döyüş qabağı, hər döyüş sonu
Həyat düşündürür dərindən onu:
- Səfərbər eləyib bütün milləti:
Qorumaq lazımdır mədəniyyəti.

Bu yurdun tarixdir kəsəyi, daşı,
Qamusdur, muzeydir hər addımbaşı.
Demə, bu ərsinlər, kuzələr nədir? -
Hər saxsı parçası bir səlnamədir.

Vətən yalnız torpaq, su demək deyil,
Babalardan qalmış mədəniyyətdir.
Hər naxış, hər oyma, hər ilmə, hər gül,
Dünyaya sığmayan bir həqiqətdir.

Onları toplayıb bir yerə yığmaq -
Ərzə mədəniyyət göziylə baxmaq.
Bəzən bir ərsinçin candan keçərək,
Onu xilas etmək talançılardan -

Hər kəsə mənəvi borc olsun gərək
Tarix qorunmalı yalançılardan!
Hər döyüş qabağı, hər döyüş sonu
Həyat düşündürür dərindən onu.

Bir Tanrı sirridir bu yer, bu cahan
Bəlkə də, hər şeydə dərin məna var.
Bəzən başa düşmür, anlamır insan
Dünyaya gəlməkdə, getməkdə nə var?!

Buludu əmməsə, quruyar dəniz.
Xanım-xatunluqdan uzaqdır kəniz.
Arifə, cahilə bölünmüşük biz:
Bir dana başlı var, bir də danə var.

Oxuyub çox sirdən olmadıq agah:
Bəşərin üzünə bağlıdır dərgah.
Gədadan bəy olmaz, nökərdən də şah
"Peşkanı" "ferz" edən neçə xanə var.

Həyatdan dərsini almır hər insan.
Könlünü mehraba salmır hər insan.
Yeyib-içməyindən qalmır hər insan.
Hər məscid yanında bir meyxanə var.

Oxuyun qəlbimi kamanda, tarda
Bağlıdır taleyim bu doğma yurda.
A dostlar, ürəyim dəryadır orda
Əlli sədəf varsa, yüz dürdanə var.

...Dünən güllə atıdı ona "dostları"
Şahidin ömrünə sui-qəsd olub.
Üzünə gülübdür öz bəxti, yarı, -
Yenidən anadan sanki doğulub.

Bənzər hər qızılbaş bir qızıl gülə
Qızılbaş alnından vurulub ölər.
Arxadan atılsa, igidə güllə,
Onu yalnız tale qoruya bilər.

Keçir ürəyindən qəzəb selləri
Dalğalar sədləri hey vurub aşır.
Dinib-danışdıqca könül telləri
Fikri tarixlərdə gəzib-dolaşır:

## *HƏSBİ-HAL*

Kişinin vicdanı sekuntantıdır,
Hər kəsin özüylə bir dueli var.
Olumdan ölümə bircə santıdır,
Hər kəsin tətikdə duran əli var.

Xoş həyat hər kəsin son qış nağılı,
Hər baş bəlalıdır, hər ürək dağlı.
Tükənməz deyildir insanın ağlı.
Hər kəsin könlündə yatan dəli var.

Həyat səbrlidir, tale ərköyün
Yerdən soruşulmaz nizami göyün.
Bəndədən qurtulan bir namərdliyin
Tanrı hüzurunda min bədəli var.

Dövr edir kainat, dönür qərinə
Gedənin bir kimsə ölməz yerinə.
Həyatda əbədi deyildir heç nə -
Dünyanın bir sonu, bir əzəli var.

Hər daşın, kərpicin öz yeri vardır
Bizim Vətən adlı can mülkümüzdə.
Şərəfi qoruyan xas insanlardır,
Bu bəy yurdumuzda, xan ölkəmizdə.

Vətən torpağında hər kiçik daşın
Taleyi barədə düşünən zaman -
Necə arasından yarın-yoldaşın
Namərd gülləsinə tapılır imkan?!.

Hər döyüş qabağı, hər döyüş sonu
Həyat düşündürür dərindən onu.
Allahın Rəsulu: "Düşmən var!" deyib
"Cənnətə açardır Qılınclar!" deyib.

Komandir düşünür: verir son qərar -
Taborda erməni agentləri var.
Bizim xeyrimizə işləyir zaman.
Xəyanət özünə axtarır imkan...

704-cü briqadada
Dövlət çevrilişi hazırlığı var.
Xəyanət qoxusu artır havada
Qoşulub iblisə xain insanlar.

Dünən güllə atan, gör kimi öyür:
"Səninlə qardaşam, ölüncə" - deyir.
Qiyama çağırır onu “qonaqlar,
Xalqa xəyanətə nə deyər dağlar?!

Çəkilin yollardan xain gürzələr,
Meydan düşmən gözü tökənlərindir.
Vətən üzərində bütün kürsülər,
Millət namusu çəkənlərindir!

Bəlkə, yoxlayırlar böyüklər onu:
Əks-kəşfiyyatın bu öz oyunu?..
Düşünür dərindən Şahid beləcə-
Çıxarır olaydan qəti nəticə:

### *OLMUR*

Zaman qarışıqdır, tale--qaranlıq.
Daha gecələrin gündüzü olmur.
Kimsə öz sözündə durmur bir anlıq--
Min əhdi-peymanın bir düzü olmur.

Günahkar Tanrıdan eləyir giley
Kəpəyi un əvəz ələyir ələk.
Yalan üzərində qurulub hər şey
Kimsənin bir dili, bir üzü olmur.

Payız gələn kimi yarpaq saralar,
İnsan sürünəndə uçar paralar.
Bəhanə gəzməsin qəlbi qaralar
Eşqin kitabında um-küsü olmur.

Şair, yorma daha ağrıyan başı,
Qoy axsın ürəyə gözünün yaşı.
Xainin Vətəni, dostu, qardaşı,
Atası, anası heç kəsi olmur.

...Dünən bir səngərdə döyüşən əsgər
Bu gün üz-üzədir iki düşmək tək.
Köksündə sönsə də yanar qəlpələr, -
Şahidi ağrıdır bu acı gerçək.

### *HƏYAT*

Həyat - bir oyundur, insan oyuncaq,
Əcəl bu oyunun baş hakimidir.
Heç kəs öz əlinə oynamır gerçək;
İnsan dəyişilən fiqur kimidir.

Kimsənin taleyi əlində deyil
Pulta bağlanıbdır hamı elə bil.
Hələ doğumundan öncə neçə il
İnsan "Titanik"tək batan gəmidir.

Kimsə qurtulmadı pul ilə, varla,
Aşiqlər baş qatdı eşqlə, yarla.
Ölüm-kombayndır, talelər-tarla,
Ömür biçiləcək hazır zəmidir.

Dalğa tək toqquşur sərvətlər, güclər,
Xoşbəxtdir dünyada dəlilər, giclər.
Ani, ötəridir bütün sevinclər:
Həyat itkilərin, dərdin cəmidir.

Bakı qan ağlayır: ölkədə qiyam.
Baş nazir qiyama başçılıq edir.
Cəbhədə qaydalar başqadır tamam--
Əsgər yalnız düşmən üstünə gedir.

Şahid də əsgərdir - Vətən əsgəri,
Ordu siyasətə qarışa bilməz.
Ey qara buludlar, çəkilin geri,
Sizdən bu torpağa heç xeyir gəlməz.

Alınır qarşısı qiyamın dərhal.
Paytaxt nəfəs alır yenə dərindən.
Millət tezlik ilə tutur hal-əhval
Vətənin bu gözəl baş şəhərindən.

Ali baş komandan! Millətin gücün,
Bütün zəfərlərin zirvəsi sayır.
Düşmən üzərinə son hücum üçün,
Ordunun ürəyi coşub-qaynayır.

Kiçik axıntılar quruyar gec-tez
Gücü selə dönər Kürləşənlərin!
Dünya qabağında dayana bilməz -
Varlığı yumruq tək birləşənlərin!!!

9 oktyabr 94-cü il -
"Azərbaycan bayrağı" ordeni alır.
Arzular qəlbində açılır gül-gül
Bəli, qəhrəmanlar daim ucalır!...

Dünya dövlətləri ayağa durur--
Yeni bir qlobal layihə qurur.
Daha “Atəşkəs”dir oyunun adı--
Bu--nə sülh deməkdir, nə də hücumdur...

Susur bircə anda topların səsi--
Qalxır Qarabağın həzin naləsi...
--Atəş pozulmazdır!--dünya əmindir:
Fransa, Rusiya, ABŞ zamindir...

Endirir silahı əsgərlər yerə.
Ordu tabe olar verilən ƏMR-ə.
Atəş pozulmazdır savaş xəttində,
Atəşin, hədəfin təmas xəttində...

Atəşkəs bağlanıb, donubdur savaş
Ən böyük dövlətlər veriblər qərar.
Eh-ey! Vətən oğlu, möhkəm hazırlaş,--
Ordu güclü olsa, düşmən basılar...

Unutma bu yurdun hər qarışını
Geriyə qaytarmaq sənin borcundur.
Masalar önündə yorma başını--
Əsil müdafiə elə hücumdur!

Unutma, yurduna girən düşmənin
Qəbrini burada sən qazacaqsan.
Şahidi olaraq son qələbənin
Onu tariximə sən yazacaqsan!

**Namiq ATABƏYLİ**

# POEMANIN MÜƏLLİFİ

## Namiq Atabəyli

1958-ci ildə Kürdəmir rayonunda tanınmış jurnalist Rəşid Fərəcovun ailəsində anadan olub.

BDU-nun məzunudur. Tələbəlik illərində VIII Respublika elmi konfransında (1980-81-ci il) "Azad şeirin poetikası" əsəri I dərəcəli Diploma və Qızıl medala layiq görülüb. Elmi Şuranın qərarı ilə aspirant saxlanılması qərara alınıb. Lakin zabit kimi könüllü hərbi xidmətə gedib

. Uzun illər Bakı şəhərində pedaqoji fəaliyyət göstərib. 1990-cı ildən bu günəcən - "İlham", "Dan ulduzu", "Azərbaycan" qəzetlərində, "Ulduz", "Region plus" jurnallarında müxtəlif vəzifələrdə çalışıb. 1994-2004-cü illərdə informasiya üzrə ali dövlət qulluğunda olub.

Ədəbi tənqid, şeir və nəsr əsərləri, tərcümələri (M.Kuzmin, İ.Severyanin, Mark Şaqal, M.Zoşşenko,Y.Balasaqunlu, A.Blok, Yevgeni Zamyatin və b.) dərc olunub. Totalitarizmin və hüquqi dövlətin tədqiqatçıları-- İvan İlin və Jelyü Jelevin milli türkcəmizə ilk tərcüməçisi olub.Bəzi şeirlərinə simfonik mahnı bəstələnib (bəstəkar:Ədviyyə Rəhmətova) və "Qızıl fonda" daxil edilmişdir.

İlk kitabı -"Azadlığın qədri" 1996-cı ildə Bakıda işıq üzü görüb.

"Eol arfası" adlı şah istibdadı əleyhinə ilk poeması hələ tələbə ikən Q.Beqdeli və Firuz Sadıqzadənin təqdimatında 1979-cu ildə İİR-də dərc edilib.

"Şahid" lirik-fəlsəfi poeması müəllifin oxucularla növbəti görüşüdür.

# ŞAHİD HƏBİBULLAYEVİN HƏYAT SƏLNAMƏSİ HAQQINDA YAZILMIŞ ƏSƏR

## SON SÖZ ƏVƏZİ

Hər bir xalqın maddi-mənəvi mədəniyyət nümunələri, dastanları, atalar sözləri, nağılları, sözlü folklor yaradıcılığı, musiqi folkloru və s. həmin xalqın qədim tarixi keçmişindən xəbər verməklə birlikdə, eyni zamanda onun ayaqda qalmasına, müxtəlif basqınlara, hücumlara tab gətirməsinə, öz mənliyini, dilini, dinini, adət-ənənələrini, milli özünəməxsusluğunu qorumasına yardımçı olmuşdur.

Xalqımızın min illərdən gələn bədii-estetik dəyərləri həmçinin onun yaradıcılıq fəaliyyətinin müxtəlif sahələrində zəngin, təkrarolunmaz və yüksək səviyyəyə çatmış estetik mədəniyyətə sahib olmasını da isbatlamaqdadır. Son zamanlar respublikamızda yaranmış əlverişli şərait, keçmiş tariximizə və zəngin yaradıcılıq mirasımıza olan maraq, həmçinin onun zəngin qatlarının, uzun müddət ideoloji səbəblərdən dolayı, kölgədə qalmış tərəflərinin araşdırılması, öyrənilməsi və təbliği yolunda atılmış addımlar bir daha fikrimizi təstiqləməkdədir.

Bu yaxınlarda xalq arasında haqlı olaraq hörmətlə tanınan, öz xoş əməlləri ilə xalqımızın, xüsusilə də sənət adamları və sənətsevərlərimizin sevgisini qazanan Şahid Həbibullayevin şəxsi kolleksiyası ilə tanış oldum. Uzun illər misgərlik sənətinə aid nadir nümunələr toplayan Şahid bəyin xalq qarşısında, onun zəngin və hüdudsuz mədəniyyəti qarşısında nə qədər böyük xidmət göstərdiyini qeyd etməmək olmaz. Dekorativ-tətbiqi sənətin ***(əl sənətləri də deyilir)***

əslində dar bir sahəsi sayılan misgərlik sənətinin bu qədər rəngarəng, bu qədər nadir sənət nümunələri ilə zəngin olmasını, etiraf edim ki, Şahid Həbibullayevin şəxsi kolleksiyasından öyrənmiş oldum. Kolleksiya sahibi onlarca misgərlik nümunələrini toplamaqla onların istifadə olunması, sosial-mədəni həyatımızda yeri, məişətimizdə hansı amaclara görə yer alması, bu nümunələrin tarixi keçmişi, istehsal üsulu və s. barədə bilgilər əldə etməklə birlikdə, bu nadir misgərlik nümunələrinin təsnifatını verməyə çalışır, bu örnəklərə aid, bəlkə də, bəzi mütəxəssislərə belə tanış olmayan dəyərli bilgilər verə bilir.

Kolleksiyada toplanmış nümunələr tarixilik baxımından son dərəcə böyük önəm daşısa da, Şahid bəyi daha da seçdiyi nümunələrin bədii-estetik yönü, onların nə dərəcədə bəşəri dəyərlər sisteminə daxil ola biləcəyi məsələləri düşündürdüyünü hiss etmək mümkündür.

Məlumdur ki, misgərlik sənəti dekorativ-tətbiqi sənətin digər janrları ***(xalı-kilim, qab-qacaq, keramik sənəti, ev əşyası, mebel sənəti və s.)*** kimi, bir tərəfdən, utilitar-praktiki məna daşıyırsa, yəni insanların praktiki tələbatlarını ödəyirsə, digər tərəfdən, estetik funksiya da daşıyır. Əslində bu nümunələri sənət səviyyəsinə qaldıran, onları sənət gerçəkliyinə çevirən də məhz bu örnəklərin bədii-estetik baxımdan işlənməsi, keyfiyyətcə yeni bir yüksək zirvəyə qaldırılmasıdır. Zənnimizcə, Şahid bəy bu estetik prinsipləri bildiyinə görədir ki, o, sözünü etdiyimiz örnəkləri topladığı zaman onların xalqımızın sosial-məişət praktikasında istifadəsi ilə birlikdə, xalq sənətkarlarının bu nümunələrə gətirdikləri yaradıcılıq tapıntılarını da göz önündə canlandırmağa çalışıb. Təsadüfi deyil ki, bu nadir sənət vurğunu lazım bildiyi, daha doğru-

su, estetik dəyəri olan kolleksiyaları, həmçinin ən qədim tarixi dəyəri olan nümunələri yenidən gözdən keçirməyi, onları restövrə etməyi, keçmiş parlaqlığını və cazibədarlığını üzə çıxarmağı özünə mənəvi bir borc edib. O, hər dəfəsində bunu edərkən ən yüksək bəşəri meyarlar mövqeyindən çıxış edir, çox yaxşı anlayır ki, bu nümunələr müxtəlif millətlərdən olan tamaşaçılar tərəfindən diqqətə alınacaq və təbii ki, onlar tarixi və bədii dəyəri gerçəklikləri əks etdirə bilməli, xalqımızın bədii düşüncə tərzini, ulu sənətkarlarımızın yüksək məharətini nümayiş etdirə bilməlidir.

Şahid Həbibullayevin kolleksiyasında toplanmış nümunələrlə tanışlığın, bir çox baxımdan, gənclərimizin bədii-estetik tərbiyəsi işində, eğitim (təhsil) sistemimizdə yararlı ola biləcəyi fikrindəyik. Burada əksini tapmış nadir nümunələri, onların adları, keçmiş məişət həyatımızdan istifadə olunma yolları və s., demək olar ki, çoxları tərəfindən unudulmuş, gənclərimizin əksəriyyəti üçün isə tamamilə tanış olmayan bədii hadisələrdir. Bu qəbildən olan şəxsi kolleksiyalar, muzeylər insanlarımızın tarixi hafizəsini formalaşdırmaqla yanaşı, gənclərimizin əmək fəaliyyətinin müxtəlif sahələrinə olan ilgisini və tarixi bilgisini artırmış olur. Bir çox yabançı ölkələrdə müxtəlif əmək fəaliyyəti ilə əlaqədar olan muzeylərin, məsələn, saat muzeyi, gəmiçilik muzeyi, silah muzeyi və s. olması, heç şübhəsiz, həmin amaclarla meydana gəlmişdir. Bu baxımdan da, Şahid Həbibullayevin yaratdığı şəxsi kolleksiya xüsusilə diqqəti çəkməkdədir. Bu kolleksiya nümunələri ilə tanışlıq bir daha məni inandırdı ki, burada xalqımızın bədii təfəkkürünün məhsulu olan tükənməz bədii-estetik potensiala malik bir "mədəniyyət xəzinəsi" toplanmışdır və o, uzun bir zaman digər mədəniy-

yətlərə və uygarlıqlara  xalqımızın bəxş etdiyi önəmli qatqılarının olmasının bariz nişanəsidir. Şəxsi kolleksiya ilə tanışlığım, bu kolleksiyanı hər cür maddi-mənəvi çətinliklərə baxmayaraq, meydana gətirən, bu yolda öz ali məqsədindən dönməyən Şahid Həbibullayevə olan hörmətim, etiqadım, bir sənətkar kimi inancım son dərəcə artmış oldu.

**Tanınmış jurnalist dostum, iti və kəsərli qələm sahibi Şöhrət Səlimbəylinin** Şahid Həbibullayevin həyat və yaşam yoluna həsr olunmuş "Bir ömrün səhifələri" kitabını oxuduqdan sonra bu nadir şəxsiyyətə olan sayğım və inancım birə on yüksəlmiş oldu.

**Əsərdə Şöhrət Səlimbəyli** Şahid bəyin yuxarıda da qeyd etdimiz nadir kolleksiyasından, onun sosial-mədəni həyatımızdakı mənasından, xalq sənətinə, xüsusilə də dərindən bildiyi misgərlik sənətinə olan sonsuz sevgisindən söz açmaqla birlikdə, bu nadir insanın bir şəxsiyyət kimi pillə-pillə ucalmasından da ətraflı söhbətlər aça bilib; əslində, dialoq üsulunda olan kompozisiyaya təməllənən bu əsərdə, eyni zamanda, sənədlilik meyli demək olar ki, ana xətti təşkil etmişdir.

Dialoq şəklində keçən və söylədiyimiz kimi tamamilə real faktlara təməllənən müəlliflə Şahid bəy arasındakı söhbətlərdə, bir tərəfdən, bu nadir insanın şəxsi həyatda da məğrur, təmiz, sözünün ağası, alicənab, yardımsevər bir insan olması, digər tərəfdən, yüksək idarəçilik istedadı, tabeliyində olan insanları dərindən tanıya bilmə qabiliyyəti və s. maraqlı faktlarla oxuculara çatdırılmışdır.

Şahid bəyin vaxtilə haqsız hücumlara, böhtanlara məruz qalması, bütün bu dözülməz hadisələrə sinə gərə bilməsi və

s. **faktlar Şöhrət Səlimbəylinin əsərində olduqca inandırıcı bir şəkildə təsvir olunmuşdur.**

Müəllif Şahid bəyin erməni təcavüzü ilə əlaqədar hadisələrdə yaxından iştirakı, ağır vəziyyətdə qalan insanlarımızın Laçın dəhlizindən təhlükəsiz yerlərə daşınmasında, eyni zamanda, çətin müharibə şəraitində Bakı vağzalında qalmış Naxçıvan sərnişinlərinin İran ərazisindən avtobus karvanı vasitəsi ilə evlərinə çatdırılmasında göstərdiyi şəxsi işgüzarlıq, bacarıq, təşkilatçılıq istedadı və s. barədə də maraqlı məlumatlar verir, bir daha bu nadir şəxsiyyətin həqiqi vətən sevgisini, insanlara olan sonsuz məhəbbətini, onların yolunda canından belə keçə biləcəyini vurğulamağa çalışır.

Müəllif bir daha Şahid Həbibullayevin yaşının ötdüyünə baxmayaraq, onun könüllü olaraq savaşa getməsi, gənclərimizə örnək olması, yaralandıqda belə əsgəri vəzifəsini sürdürə bilməsi, ermənilərə xidmət edən əks-kəşfiyyatçını öz əlləri ilə tərksilah etməsi kimi hadisələr də müəllifin gözlərindən yayınmır.

**Kitabın önəmli cəhətlərindən biri də odur ki, burada Şöhrət Səlimbəyli** Şahid bəylə olan müharibə söhbətlərini, sadəcə olaraq, oxucularına çatdırmaq metodu ilə getmir, o, bu söhbətlərdə, həmçinin zamanın çətin siyasi hadisələrə, xüsusilə də ermənilərin düşmənçilik, genosid siyasəti, işimizdəki yanlışlıqlar, anlaşılmazlıqlar, dağılmaqda olan SSRİ ideoloqlarının milli məsələyə dair birtərəfli, şovinist münasibəti kimi məsələlərə də diqqət yetirməyə çalışır. Erməni terroristlərinin Qarabağdakı vəhşilikləri, erməni siyasətçilərinin tarixi həqiqətləri saxtalaşdırdıqları, Moskva qarşısında

ikiüzlü, yaltaq hərəkətləri və s. müəllif tərəfindən məharətlə ifşa edilir.

**Şöhrət Səlimbəyli** bəziləri kimi Qarabağ hadisələrini kitablardan, yazılı ədəbiyyatdan, kino-lentlərindən öyrənən birisi deyil, o da Şahid bəy kimi bu hadisələrin canlı iştirakçısı, eyni zamanda, Qarabağ torpağını qarış-qarış gəzmiş və onu yaxşı tanıyan bir jurnalist-yazıçımızdır.

Təsadüfi deyil ki, onun Qarabağ savaşı ilə əlaqədar Şahid bəylə apardığı müsahibə xarakterli söhbəti olduqca canlı, inandırıcı və təsirlidir.

Kitabı xalqımızın keçmiş tarixinə, yüksək mənəviyyatına, adət-ənənələrinə, maddi-mənəvi mədəniyyətinə sonsuz sevgi bəsləyən, öz şəxsi əməyi və imkanları ilə çoxəsrlik misgərlik sənət nümunələrindən ibarət zəngin kolleksiya toplayan Şahid Həbibullayevin həyat səlnaməsi haqqında sevgi ilə yazılmış maraqlı bir əsər olaraq dəyərləndirmək mümkündür.

Əsəri oxuduqdan sonra bir daha Şahid bəyin də bir çox mütərəqqi xeyriyyəçi dünya insanları kimi tanınmış Tretyakov, Sahib Sabançı, Svyatoslav Rixter və başqaları kimi milli, mənəvi, estetik dəyərlərin keşiyində durmasına və bu dəyərlərin milli çərçivələri aşıb, dünya xalqlarının da mənəvi mədəniyyətlərində yer alması yolundakı yorulmaz səyləri və təmənnasız qatqılarına inanırsan.

**BABƏK QURBANOV**
*fəlsəfə elmləri doktoru,*
*Gaziantep Üniversitetinin Türk Musiqisi*
*Dövlət Konservatoriyasının professoru*

# KİTABIN SƏHİFƏLƏRİNDƏ

**ÖN SÖZ**

Şərəflə yaşanan ömür **(Nəriman Həsənzadə)**................................5
İşğal edilmiş Azərbaycan torpaqları.................................10

**BİR ÖMRÜN SƏHİFƏLƏRİ**

Bir ömrün səhifələri (sənədli oçerk)........................................11
Muxasdan başlanan yol.......................................................14
DTK-nın istintaq təcridxanasında.........................................16
İmperiyanın yazılmayan qanunları........................................26
Naxçıvan mühasirədədir.......................................................27

Günnüt harayı.......................................................................29
Əsir alınmış kənd..................................................................35
Türkiyə Naxçıvanın ərazi təminatçısıdır...............................37

Laçın ətrafında döyüşlər səngimirdi....................................39

**QARABAĞ MÜHARİBƏSİ**

Qarabağ müharibəsi.............................................................43
Xidməti xasiyyətnamə..........................................................45
Uğurlu döyüş əməliyyatları...................................................48
Sui-qəsd..............................................................................59

Altıncı tabor qəhrəman döyüşçüləri (**şəkillər**)......................65

Şəhid olmuş zabit və əsgər heyətinin siyahısı......................81
Yaralanmış zabit və əsgərlərin siyahısı.................................82

Ordudan tərxis etdilər...........................................................85
"Azərbaycan bayrağı" ordeninə layiq görüldü.......................86

Müqəddəs torpağımızı xilas etməliyik....................................87
Son döyüşə az qalıb.............................................................89
Baş direktor vəzifəsində.........................................................91
Ş.Həbibullayevin şəxsi kolleksiyası.......................................93
Söz ardı...............................................................................103

Ş.Həbibullayevin şəxsi kolleksiyası (şəkillər).....................109

**Ş. HƏBİBULLAYEVƏ HƏSR OLUNMUŞ ŞEİRLƏR**

Ay Şahid **(İlyas Tapdıq)**...................................................................118
Mis üzərində imza **(Ələmdar Quluzadə)**......................................120
Səni döyüşlərə səslədi vətən **(Rahil Məmməd)**..........................122
Millətin şərəfi, namusu torpaq **(Əbülfət Mədətoğlu)**................124
Sənin kimi igid varmı **(Qələndər Xaçınçaylı)**..............................125
Qürur duyacaq **(Qara Tülpan Ağcalı)**............................................127
Bəytəpədə tarix yazdın **(Ziyəddin Səlim)**....................................128
Anam Azərbaycana **(Əyyub Şuşalı Şirlanlı)**.................................130
Şücaət **(Qəşəm İlqar)**......................................................................132
Məni **(Narıngül Sadiq)**......................................................................134
Ata **(Günel Salmanlı)**.........................................................................136
Deyirlər **(Salam Cavadlı)**...................................................................138
Hansını deyim **(Xədicə Murad)**..........................................................139
Bizə ana olan vətən -Qibləgah **(Ədalət Əsgəroğlu)**.................141
Cəsarət rəmzisən, Şahid **(Nəcibə İlkin)**.........................................142
Ürəyimizdə **(Nəcibə İlkin)**..................................................................143
Ömür yolu **(Sabir Baba Eyvazlı)**........................................................145
Vətən basılmazdır **(Mahmud Vəli)**.................................................147
Əsirgəmə güc **(Surxay Hatəm Mövlamverdi)**................................148
Ləyaqətin sınağı (Bəydadaş Cəfərli)..................................................150
Qələbə sevdalı bir zaman gəlir **(Əli Toxlucalı)**...........................152

Şahidim **(İdris Şükürlü)**.....................................................................153
Bəytəpədə bəy igidlər **(Səməd Məftun)**.......................................154
Haydı, mərd igidlər **(Süleyman Osmanoğlu)**.................................155
Vətən igid şahidlərlə öyünür **(Çingiz Teymur Zəkulla)**.............156
Həyat savaş meydanıdır **(Namiq Atabəyli)**...................................157
İgidlər səngərə qayıtmalıdır **(Gileyli Bəylər)**...............................159
Sənin qədər **(Eldar Həsənli)**..............................................................161
Bu ad planeti dolaşıb gəzir **(Oqtay Rza)**......................................163
Ay Şahid qardaş **(Balayar Sadiq)**.....................................................166
Sancaq İrəvana bayrağı, Şahid **(Nəsib Qaramanlı)**.....................168
Boevoy ofiser **(Aleksandr Rodionov)**.......................................170

**Ş. HƏBİBULLAYEVƏ HƏSR OLUNMUŞ POEMA**
Şahid **(Namiq Atabəyli)** ....................................................................172

Ş.Həbibullayevin həyat səlnaməsi haqqında yazılmış
əsər **(Babək Qurbanov)**....................................................214

# KİTABIN MÜƏLLİFİ



**Şöhrət SƏLİMBƏYLİ**

Şöhrət Əlvənd oğlu Səlimbəyli

Bakıda ADPU-nun filologiya fakültəsini, Moskvada SSRİ Pedaqoji Elmlər Akademiyasının aspiranturasını bitirib.

Yazıçılar Birliyinin üzvü, 8 kitab müəllifidir.

AMEA. M.Füzuli adına Əlyazmalar İnstitutunun əməkdaşıdır.

Texniki redaktor: **Çingiz ZƏKULLAYEV**
Bədii tərtibat: **Sənan GÜLALIYEV**

**ŞÖHRƏT SƏLİMBƏYLİ**
(Şöhrət Əlvənd oğlu Səlimbəyli)

**TERRORİZM ▪ qan çilənən torpaqlar**
*"Azərbaycan bayrağı" ordenli Şahid Həbibullayevin həyatından ştrixlər*

(Azərbaycan dilində)

**«Avropa» nəşriyyatı.**
**Bakı-2010**

**Formatı:** 60x90 1/16
**Tirajı:** 1000 ədəd
**Həcmi:** 14 çap vərəqi

**Qiyməti:** müqavilə ilə

**«EUROPA»** publishing house
**Tel**: 434-30-09

**Hazır diopozitivlərdən ofset üsulu ilə çap olunmuşdur**